**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

---

*Əlyazması hüququnda*

İSAXAN ABDULLA oğlu İSAYEV

# AZƏRBAYCANDA ÖZƏL ALİ TƏHSİLİN PROBLEMLƏRİ

İxtisas: 13.00.01. Pedaqogika nəzəriyyəsi və tarixi

Pedaqoji elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş

D İ S S E R T A S İ Y A

Elmi rəhbər:

Pedaqoji elmlər doktoru, akademik H.M. Əhmədov

Bakı - 2003

# MÜNDƏRİCAT

GİRİŞ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3

FƏSİL 1. AZƏRBAYCANDA ÖZƏL ALİ TƏHSİLİN YARANDIĞI SİYASİ, SOSİAL-İQTİSADİ VƏ HÜQUQİ ŞƏRAİT 18

1.1. Özəl ali məktəblərin meydana gəldiyi siyasi, sosial-iqtisadi və hüquqi vəziyyətin qısa xarakteristikası . . . . . . . . . . . . . . . . . . . . . . . . . 18

1.2. Özəl ali təhsil sahəsində dünya təcrübəsinin öyrənilməsi və Azərbaycanda onun tətbiqi problemləri . . . . . . . . . . . . . . . . . . . . . . . . 43

1.3. Özəl ali məktəblərin maliyyə və idarəolunma məsələləri . . . . . . . 60

FƏSİL 2. AZƏRBAYCANIN TƏHSİL SİSTEMİNDƏ ÖZƏL ALİ MƏKTƏBLƏR ŞƏBƏKƏSİ: UĞURLAR, PROBLEMLƏR, PERSPEKTİVLƏR 74

2.1. Özəl ali təhsil sistemində tələbə kontingentinin formalaşdırılmasının müasir vəziyyəti və onu təkmilləşdirmək problemləri . . . . . . 74

2.2. Özəl ali məktəblərin "professioqramması" və onun optimallaşdırılması məsələləri. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 125

2.3. Azərbaycan ali təhsilində süzgəc prosesi və özəl ali təhsilin perspektivləri. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 133

NƏTİCƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 144

İstifadə olunan ədəbiyyat siyahısı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 147

# GİRİŞ

Təhsil cəmiyyətin inkişafнna fəal təsir göstərən, cəmiyyətdə və ümumiyyətlə həyatda baş verən proseslərin mahiyyətini, müəyyən mənada, özündə əks etdirən bir sahədir. Bütün inkişaf etmiş ölkələrdə təhsilə xüsusi diqqət yetirilməsi, onun strateji əhəmiyyət daşıyan bir sahə kimi götürülməsi də cəmiyyətin həyatında oynadığı bu böyük rol ilə əlaqədardır.

Bütün zamanlarda dövrün qabaqcıl adamları təhsili cəmiyyətin, millətin inkişafının əsas şərti saymış, bu istiqamətdə mühüm işlər görməyə çalışmışlar. İnkişaf səviyyəsindən asılı olmayaraq, hər bir ölkədə təhsilin inkişafı ən önəmli məsələ kimi həmişə ön plana çəkilmiş, bu sahədə planlı, məqsədyönlü islahatların aparılması əsas vəzifə kimi qarşıya qoyulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin təbirincə, hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır.

ABŞ-da ölkə vətəndaşları üçün təhsil almaq imkanının genişləndirilməsi, təhsil sistemində yüksək keyfiyyətin təmin edilməsi dövlətin tərəqqisinin başlıca şərti sayılır. Təhsili idarə edənlərin fikrincə, əgər hamı üçün təhsil almaq imkanı və təhsil sisteminin yüksək keyfiyyəti təmin edilməzsə, XXI əsrdə vahid Amerika qurmaq mümkün olmaz. Dövlətdən hər bir amerikalıya dünyanın ən yaxşı təhsil müəssisələrində ən yaxşı müəllimlərdən ən yaxşı təhsil almaq üçün şərait yaratmaq tələb olunur. Bu isə o deməkdir ki, yüksək standartlar, böyük ümidlər və təhsil sahəsi ilə bağlı olan hər bir kəsdə yüksək məsuliyyət hissi olmalıdır.

Əgər insanlarda belə bir hiss olmasa onlar müasir dövrdə qarşıda duran ən böyük problemi - insanın inkişafını cəmiyyətin inkişaf sürətinə müvafiq qurmağı həyata keçirə bilməzlər. Adətən bu çox çətin funksiyanı həmişə təhsil sistemi öz üzərinə götürmüşdür, çünki iqtisadiyyatda, mədəniyyətdə, elmdə, həyatın bütün

sahələrində əldə olunmuş nailiyyətlərin başında duran, onun əsasını təşkil edən məktəbdir, təhsildir. Təhsil insanla cəmiyyət arasındakı inkişafın bir-birinə yaxınlaşmasına, istehsalın, elmin, mədəniyyətin yeni səviyyəsinə uyğun olmasına kömək edir.

Təhsilin ölkənin həyatında, ümumiyyətlə, cəmiyyətdə hansı rola malik olmasını, onun inkişaf etmiş ölkələrin təhsil sistemlərinə inteqrasiyasının vacibliyini Azərbaycan Respublikasının Təhsil Naziri professor M.Mərdanov belə qeyd edir: ëBu bir həqiqətdir ki, təhsil cəmiyyətin bütün üzvlərini əhatə edən, dövlətin, dövlətçiliyin təməlində duran ümummilli məsələdir. Təsadüfi deyil ki, bu gün Azərbaycan əhalisinin 2 milyonundan çoxunu təhsil prosesinin birbaşa iştirakçısı olan – təhsil alanlar və təhsil verənlər təşkil edir. Belə bir şəraitdə təhsilin bu günü, sabahkı taleyi hər bir Azərbaycan vətəndaşını, bütövlükdə Azərbaycan dövlətini hər an maraqlandıran prioritet sahədir. Çünki artıq hamıya məlumdur ki, XXI əsrdə müasir dünya intellektin gücü ilə idarə ediləcək, hər bir dövlətin qüdrəti təhsilinin səviyyəsi ilə ölçüləcəkdir. Başqa sözlə, dünya birliyi yeni əsri ëintellekt əsriënə çevirməyi strateжi xətt kimi artıq qəbul edib. Bu mənada Azərbaycan təhsilinin inkişafını qabaqcıl ölkələrin təhsil sistemlərinə inteqrasiyasız, onlardan təcrid edilmiş şəkildə təsəvvür etmək mümkün deyildirë (50, s.2).

Keçid dövrünü yaşayan Azərbaycanda bu istiqamətdə ciddi işlər görülür. Müstəqil Azərbaycan dövlətinin hüquqi normativ sənədlərinə və dövlətin tələblərinə uyğun, yeni məzmuna, yeni istiqamətə malik təhsil sistemi yaratmaq sahəsində ciddi axtarışlar aparılır. Belə əsaslara söykənən təhsil sisteminin yaradılması, ümumilikdə, cəmiyyətimizin demokratik inkişafının təməl daşıdır. ëAzərbaycan Respublikasının Prezidenti H.Əliyevin işləyib hazırladığı və uğurla həyata keçirdiyi müstəqil dövlət quruculuğu strategiyasında belə bir ideya ön plana çəkilmişdir ki, müstəqilliyin əbədiliyinin və dönməzliyinin, cəmiyyətin sivil, demokratik inkişafının magistral yolu yalnız təhsildən keçirë(50, s.6).

Həyatımızda baş verən yeniləşmələr, ictimai-iqtisadi sistemin dəyişməsi,

cəmiyyətin demokratikləşdirilməsi istiqamətində görülən ciddi işlər respublikamızda təhsil sisteminin yenidən qurulması ilə bağlı yeni tələblər irəli sürür.

Təhsil sisteminin ictimai quruluşun xarakterindən bir başa asılılığı dünyanın inkişaf etmiş ölkələrinin təhsil sistemlərinə xas olan bir sıra əlamətlərin təhsil sistemimizə gətirilməsi zərurətini yaratmışdır. Elmin, texnikanın inkişafı, suverenlik əldə edən dövlətlər ilə dünyanın inkişaf edən dövlətləri arasında bütün sahələrdə inteqrativ əlaqələrin yaradılması, başqa sözlə desək, elmi-texniki nailiyyətlərin beynəlmiləlləşdirilməsi labüd olaraq Azərbaycanı dünya ölkələri ilə, dünya ictimai-siyasi, sosial-iqtisadi, maliyyə-bank strukturları ilə əlaqəyə girməyə sövq etmişdir.

Yeni vəzifələr, təhsil sisteminin modernləşdirilməsi ölkənin təhsil sistemində bu vaxta qədər olmayan yeni peşələr üzrə mütəxəssis hazırlığı zərurəti yaratmış, bu isə öz növbəsində Azərbaycanda yeni ali təhsil sistemi şəbəkəsinin yaradılmasına və yeni daha konkret, dar ixtisaslaşmalar üzrə kadr hazırlığına gətirib çıxarmışdır. “Təhsil elə qurulmalıdır ki, ilkin ümumi əsaslardan sonra dar ixtisaslaşma getsin. Çünki müasir informasiya bolluğu şəraitində insanın fəal hafizəsi ancaq dar ixtisas sahəsini əhatə edə bilər. Beləliklə, təhsil bir tərəfdən insanların ümumi rasional dilə malik olmasını, o biri tərəfdən də insanların müxtəlifləşməsini, müxtəlif peşə və ixtisaslar üzrə ixtisaslaşmasını təmin etməlidir. Həm də bu proses elə həyata keçirilməlidir ki, müxtəlif qruplara ayrılmış insanların əldə etdikləri nailiyyətləri əlaqələndirmək və toplamaq mümkün olsun”(74,s.11).

Respublikamız müstəqillik əldə etdikdən sonra inkişaf etmiş xarici ölkələrin təhsil sisteminə istinad olunaraq Azərbaycanda özəl təhsil müəssisələrinin yaradılması məsələsi meydana çıxdı. Bu məsələ 1992-ci il dekabrın 16-da təsdiq olunmuş təhsil haqqında Qanunda öz əksini tapdı. Qanunun 13-cü maddəsinin 1-ci bəndində yazılırdı: “Azərbaycan Respublikasında dövlət və qeyri-dövlət, pulsuz və pullu təhsil müəssisələri fəaliyyət göstərir”(12).

Bu ideyanı ilk olaraq qaldıran indiki Xəzər Universiteti Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun nəzdində “İngilis dilli Azərbaycan Universiteti” kimi,

Azərbaycan Universiteti Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində “Ali Humanitar Kollec” kimi, Qərb Universiteti isə “Gənclər” institutu kimi fəaliyyətə başladılar (59).

Beləliklə, Azərbaycanda ilk özəl ali təhsil müəssisələri yaradıldı. Hər bir ölkədə özəl təhsil müəssisələrinin bütövlükdə təhsil sistemində özünəməxsus yeri və funksiyaları vardır. “Yaponiyada dövlət büdcəsindən maliyyələşən universitetlər və özəl ali məktəblər əsasən ixtisas sahələrinə görə fərqlənirlər. Ali təhsildə dövlət sektoru ilə özəl sektor arasında rəsmiləşməmiş bir ixtisas bölgüsü getmişdir. O sahələrdə ki, ali təhsil almaq istəyənlər çoxdur, böyük müsabiqə vardır və valideynlər təhsil haqqını ödəməyi öz üzərinə götürürlər, həmin sahələrdə kadr hazırlığı, əsasən, özəl sektorun payına düşür. Məsələn, hüquqşünas və iqtisadçı hazırlamaq üçün dövlət, demək olar ki, vəsait xərcləmir. Lakin o sahələr ki, dövlətin strateji maraqlarına uyğun olsa da, bura axın yoxdur və təhsil haqqını ödəmək istəyənlər çox az tapılır, belə ixtisaslar üzrə kadr hazırlığını dövlət öz üzərinə götürür. Məsələn, fundamental elmlər, texniki elmlər və s.” (74, s. 72).

Azərbaycanda da ali təhsilli kadr hazırlığı ilə bağlı yaranmış problemi bu cür həll etmək olar. Lakin dövlət bütün sahələr üzrə kadr hazırlığını davam etdirir və külli miqdarda vəsait xərcləyir. Halbuki dövlət özəl ali məktəblərin yaranmasını (konkret prinsiplərlə buna nəzarət etmək şərtilə) və inkişafını dəstəkləməklə, təhsilin keyfiyyətinə xələl gətirmədən, ali təhsilə ayrılan büdcə xərclərini öz xeyrinə tənzimləyə bilər.

Özəl ali məktəblərin yaradılmasında əsas məqsəd 90-cı illərin əvvəllərində artıq ciddi şəkildə böhran keçirən dövlət təhsil sisteminə yarış və rəqabət xarakteri verəcək və bununla da təhsilin keyfiyyətinin yüksəldilməsinə gətirib çıxaracaq yeni ruhlu, sağlam təhsil sistemi hazırlamaq idi. Ölkənin ictimai-siyasi həyatında baş verən əsaslı dəyişikliklər buna şərait yaratdı.

Əhalinin ali təhsilə tələbatlarının qanunauyğun olaraq artımı ilə dövlət ali təhsil sisteminin imkanları arasında uyğunsuzluğun yarandığı bir dövrdə özəl ali

məktəblərin yaranması ölkədə sosial gərginliyin azaldılması və ya aradan qaldırılması yolunda həyata keçirilən mühüm ictimai-siyasi, elmi-pedaqoji aksiya idi. Bu da nəzərə alınmalıdır ki, gənclərin geniş təbəqələrinin ali təhsilə olan marağının ödənilməsi onların cəmiyyətdə hörmət və nüfuz qazanmasının, arzusuna uyğun işlə təmin olunmasının mühüm amillərindən biridir. Bu mənada çoxsaylı və müxtəlif amillərin təsiri nəticəsində Azərbaycanda ali təhsilə artan tələbatın ödənilməsində dövlət ali təhsil müəssisələri ilə paralel olaraq bütün parametrlərinə görə o standartlara uyğun olan özəl ali təhsil müəssisələri artıq neçə ildir ki, uğurla fəaliyyət göstərir. Bu təbii bir prosesdir. Azərbaycan Respublikasının prezidenti H.Əliyev çıxışlarının birində demişdir: "Təhsil sistemində cürbəcür islahatlar aparılır, dəyişikliklər baş verir. Bunlar təbiidir. Özəl təhsil sistemi yaranır, bu da təbiidir".

Bir fakt inkaredilməzdir ki, hazırda respublikamızda geniş şəbəkəli ali təhsil müəssisələrinin müxtəlif profilli kadr hazırlığı ilə məşğul olması ölkədə geniş kadr istehsalına gətirib çıxarır. Bu, bir tərəfdən sovet cəmiyyətinə xas olan planlaşdırmadan imtina etməyin, bütün insanların maneəsiz olaraq ali təhsil almaq hüquqlarının həyata keçməsinin bariz nümunəsidirsə, digər tərəfdən demokratik prinsiplər üzərində qurulan cəmiyyətdə kadrların seçilib yerləşdirilməsi ənənələrinin yaranması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirdir.

Doğrudur, Azərbaycanın hazırkı sosial-iqtisadi və hərbi-siyasi vəziyyəti vətəndaşların təhsillə bağlı konstitusiya hüquqlarının həyata keçməsi üçün real imkanlar yaratmır. Yenicə müstəqillik yoluna qədəm qoymuş və yuxarıda qeyd etdiyimiz problemlərlə üzləşən respublikamızda vətəndaşların təhsillə bağlı konstitusiya hüquqlarının tam həyata keçməsinə mane olan obyektiv səbəblər, şübhəsiz ki, gələcəkdə aradan qaldırılacaqdır.

Respublikamızda təhsil sisteminin təkamülü təkcə kəmiyyət deyil, həm də keyfiyyət xarakteri daşıyır. Bu gün Azərbaycanın ali təhsil müəssisələrində təhsilin məzmunu və metodlarının modernləşdirilməsi, elektron hesablayıcı maşınların və kompüter texnikasının təhsilin texnologiyasının mühüm komponentlərindən birinə

çevrilməsi gələcəkdə respublikamızda təhsil sisteminin keyfiyyət göstəricilərinin yaxşılaşmasına kömək edəcəkdir.

İctimai həyatımızın müxtəlif sahələrində olduğu kimi təhsil sistemində də ciddi, planlı islahatlar keçirilir. Bu istiqamətdə işləri tənzimləmək, sistematik və planlı şə-kildə aparmaq, təhsilin məzmunu və strukturu ilə bağlı dəyişiklikləri həyata keçirmək məqsədilə Azərbaycan Respublikasının prezidenti H.Əliyevin sərəncamı ilə 1998-ci ilin mart ayında Azərbaycan Respublikasında təhsil sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradılmışdır. Komissiya bir il ərzində təhsil islahatı üzrə Dövlət proqramını hazırlamış, 15 iyun 1999-cu ildə Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə təsdiq olunmuşdur (9). Bununla bərabər təhsil islahatının əsas hüquqi bazası olan Təhsil Qanununun yeni layihəsi hazırlanmış və birinci oxunuşda qəbul olunmuşdur. Lakin təhsilin xalqın həyatında oynadığı müstəsna rolu nəzərə alaraq, bu qanun layihəsi ümumxalq müzakirəsinə çıxarılmış, ümumxalq müzakirəsindən sonra ikinci oxunuşa təqdim olunmuşdur. Hazırda o, ingilis dilinə tərcümə olunaraq ekspertizadan keçmək üçün Avropa təsisatlarına göndərilmişdir.

Azərbaycan Respublikasının təhsil sistemində aparılan islahatların mühüm bir istiqamətini bu sistemin əsas və nüfuzlu sahəsi olan ali təhsil əhatə edir. İstər təhsil islahatı proqramında, istərsə də qanun layihəsində ölkədə ali təhsilin inkişafı, onun yenidən qurulması və təkmilləşdirilməsinə xüsusi diqqət yetirilmişdir. Ali təhsilə xüsusi diqqət yetirilməsinin vacibliyi onun daşıdığı funksiya ilə bağlıdır. Təhsilin bu pilləsinin əsas məqsədi dövlətin və cəmiyyətin artan tələbatına uyğun yüksək ixtisaslı mütəxəssislər hazırlanmasını təmin etməkdir. Suverenliyimizin və dövlətimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın, mədəniyyətimizin tərəqqisi ilk növbədə kadrlardan asılıdır. Ölkəmizdə bazar münasibətləri təşəkkül tapır, cəmiyyətin infrastrukturu dəyişir. Aydındır ki, iqtisadiyyatda dəyişikliklər elm və təhsildə də uyğun dəyişikliklər tələb edir. İstehsal profilinin bazarın tələbatına uyğun tez-tez dəyişdiyi bir şəraitdə çevik təfəkkürə malik təşəbbüskar mütəxəssislərin qısa müddətdə və daha az xərclə hazırlanması zərurəti yaranmışdır. Bununla bərabər indi

ali məktəblər-universitetlər (həm dövlət, həm də özəl), institutlar cəmiyyətin həyatında əhəmiyyətli rol oynayır, ictimai həyatın demokratikləşdirilməsində həlledici amil kimi çıxış edirlər.

Ali təhsil sistemində aparılan islahatların başlıca məqsədləri, təhsil sahəsində bu günə qədər əldə olunmuş müsbət təcrübədən, ənənədən, nailiyyətlərdən səmərəli istifadə etmək, təhsilimizin səviyyəsini inkişaf etmiş ölkələrin təhsili səviyyəsinə çatdırmaq, dünya təhsil sisteminə inteqrasiya imkanlarını genişləndirmək, inkişaf etmiş ölkələrlə təhsil sahəsində əlaqələri hər iki tərəf üçün əlverişli səviyyədə qurmaqdır. Hazırda ali təhsil sistemində aparılan islahat məhz buna istiqamətlənmişdir.

Azərbaycan Respublikasının Təhsil Naziri, prof.M.Mərdanovun fikrincə, islahat bütövlükdə aşağıdakı məsələlərin həllinə imkan verəcəkdir:

- ali təhsili böhrandan çıxarmaq üçün yolları müəyyənləşdirmək;
- ölkənin sosial-siyasi həyatında baş verən hadisələri, dəyişiklikləri nəzərə ala biləcək düzgün milli təhsil sistemi yaratmaq;
- ölkə təhsilini inkişaf etmiş ölkələrin səviyyəsinə qaldırmaq (49).

Azərbaycanda təhsil sisteminin genişlənməsinin və səmərəliliyinin yüksəldilməsinin obyektiv tendensiyası özü-özlüyündə cəmiyyətin tələbatı ilə vətəndaşların ali təhsilə olan tələbatlarının ödənilməsi arasında ziddiyyətlərə gətirib çıxaracaqdır ki, nəticədə kəmiyyət göstəriciləri tədricən keyfiyyət göstəricilərinə keçəcəkdir. Бu proses rəqabət əsasında həyata keçirildiyindən özəl ali məktəblər əhali arasında kifayət qədər yüksək nüfuza malik olan dövlət ali məktəbləri ilə rəqabətə girməyə və bu mübarizədə davam gətirməyə çətinlik çəkəcəkdir. Bu prosesdə, hətta özəl ali təhsil müəssisələrindən bəzilərinin bağlanılması və ya birləşdirilməsi istisna olunmur. Ona görə də perspektivdə özəl ali təhsilin ən ümdə vəzifələrindən biri keyfiyyət göstəricilərinin qayğısına qalmaq, hazırladığı kadrların ixtisas səviyyəsini yüksəltmək olmalıdır. Yalnız bu yolla özəl ali məktəblər ictimaiyyətdə özləri haqda və ümumiyyətlə özəl ali təhsil haqda müsbət rəy formalaşdıra bilər və öz gələcək

fəaliyyətlərini uğurla qura bilərlər. Bunu dərk etdiyimizdən özəl ali təhsilin tərəqqisinin mühüm şərtlərini, elmi-nəzəri və praktiki inkişaf konsepsiyalarını müəyyənləşdirməyə, bu sahədəki uğurları və nailiyyətləri ümumiləşdirməyə, mövcud problemlərin həlli yollarını layihələşdirməyə və proqnozlaşdırmağa çalışmışıq.

Azərbaycanda özəl ali məktəblər öz fəaliyyətini dövlət təhsil müəssisələri üçün nəzərdə tutulmuş vahid normativ sənədlər əsasında tənzimləyir. Bununla belə özəl ali təhsil ilk baxışdan gözə görünməyən, amma dərin analitik iş nəticəsində səbəb və nəticə əlaqələrinin üzə çıxarılması mümkün olan təsirlərə məruz qalır. Bu neqativ halların Konstitusiya, Təhsil Qanunu və normativ sənədlər əsasında yoluna qoyulması, özəl ali təhsilin yaşaması və fəaliyyəti üçün normal mənəvi-psixoloji və hüquqi şəraitin yaradılması yollarının müəyyənləşdirilməsi Azərbaycanın hazırkı inkişaf mərhələsində mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzv kimi qəbul edilməsi və öz üzərinə müəyyən öhdəliklər götürməsi, şübhəsiz gələcəkdə Azərbaycanın özəl təhsil sistemi üçün normal siyasi və hüquqi şəraitin yaradılmasını təmin edəcəkdir. Azərbaycan artıq beynəlxalq münasibətlər sisteminə Avropa ölkəsi kimi qədəm qoymağa başladı. Son illər dünyanın bir sıra ölkələri, beynəlxalq, hökumət və qeyri-hökumət təşkilatları ilə təhsil sahəsində əməkdaşlığımız getdikcə genişlənir. Bu əlaqələrdə təbii ki, ali təhsil aparıcı yer tutur. Azərbaycanın ali təhsil sahəsində xarici ölkələrlə əməkdaşlığı müxtəlif proqramlar üzrə tələbə və müəllim mübadiləsi, birgə elmi-tədqiqatlar aparılması, beynəlxalq forumlarda iştirak edilməsi, beynəlxalq və regional təhsil proqramlarına qoşulması və s. məsələləri əhatə edir. 1994-1997-ci illərdə respublikamız təhsil sənədlərinin, diplomların və elmi dərəcələrin qarşılıqlı tanınması haqqında Avropa, cənubi-şərqi Asiya regional konvensiyalarına, o cümlədən Yunesko və Avropa Şurasının konvensiyalarına qoşulmuşdur və Azərbaycan diplomların və elmi dərəcələrin qarşılıqlı tanınması haqqında konvensiyanı 1997-ci ildə ratifikasiya edən ilk ölkə idi. Hazırda Avropanın 34 ölkəsi bu konvensiyanı imzalamış, 21 ölkə onu ratifikasiya etmişdir. Azərbaycan Yunisef, Eko, Avropa

Fondu, Yunebon, Avropa İttifaqının təhsil proqramları ilə bağlı qurumların işində fəal iştirak edir. Beynəlxalq təşkilatlarla aparılan əməkdaşlığın ən diqqətəlayiq istiqamətlərindən biri respublikamızın ali məktəblərinin Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Tasis-Tempus proqramına cəlb olunmasıdır. Hazırda bu proqram çərçivəsində "Avropa-Xəzər dənizi" arasında beynəlxalq münasibətlərin inkişafı, idarəetmənin modernləşdirilməsi və beynəlxalq aləmə çıxış və akademik proqramların keyfiyyətinin artırılması üçün mərkəzin yaradılması və s. layihələr işlənib hazırlanmışdır.

Özəl ali təhsil sistemində mövcud problemlərin hüquqi elmi-nəzəri və praktiki cəhətdən həll olunması, layihələşdirilməsi və proqnozlaşdırılması aktual məsələdir. Araşdırmalar zamanı məlum oldu ki, Azərbaycanda özəl ali təhsilin problemləri ilə bağlı indiyə kimi nəinki dissertasiyalar yazılmayıb, heç elə bir ciddi elmi iş də aparılmayıb. Azərbaycan  Respublikası Təhsil Nazirliyinin özəl ali məktəblərin fəaliyyətinə, oradakı mövcud vəziyyətə, onların qarşısında duran vəzifələrə həsr olunmuş xüsusi kollegiya qərarları, özəl ali məktəblərdə təhsilin  keyfiyyətinin artırılması yolunda Təhsil Nazirliyi tərəfindən görülmüş işlər, xüsusi normativ sənədlər, sərəncamlar və s., eləcə də özəl ali təhsil müəssisələrinin rektorlarının öz ali məktəbləri ilə bağlı məqalələri, müsahibələri (29,36,37),  ali məktəb rəhbərlərinin özəl ali təhsilin müxtəlif məsələlərinə həsr olunmuş yazıları (38,39,40,41,74,91) istisna edilərsə, bu sahədə bir boşluq vardır.

Özəl ali təhsillə bağlı yazıların əksəriyyətində problemin ümumi məsələlərinə toxunulur, tədrisin, təlim-tərbiyənin daxili məsələləri üzə çıxarılır. Ali təhsilin, o cümlədən özəl ali təhsilin bir sıra prinsipial məsələləri ilə bağlı məqamlar, əsasən, prof.H.İsaxanlı və prof.S.Xəlilovun araşdırmalarında öz əksini tapmışdır. Prof.H.İsaxanlının yazılarında ali təhsil sahəsində, o cümlədən, özəl ali təhsildə dünya təcrübəsi geniş araşdırılır, təhsilin keyfiyyətinin yüksəldilməsi yolunda təhsil sistemində yarış və rəqabət motivlərinə geniş meydan verilməsinin vacibliyi qeyd olunur, "elm, təhsil və mədəniyyətimizin sabahkı yüksək səviyyəsini ancaq dünənki üsullarla təmin

etməyin mümkünsüzlüyü" göstərilir, ali təhsilin müxtəlif pillələri arasında əlaqələr geniş təhlil olunur, ali məktəblərdə (istər özəl, istərsə də dövlət) elmi tədqiqatların həmişə ön plana çəkilməsi vacibliyi əsaslandırılır, "Qərbi Avropa və Amerika modellərinin öyrənilməsi və onların bizim ənənələri, şəraiti nəzərə almaqla Azərbaycanda tətbiq olunması" ali təhsildə müvəffəqiyyətə aparan yollardan biri kimi qiymətləndirilir. Prof.S.Xəlilovun "Təhsil sistemi: nəzəriyyə və praktika" kitabında "Azərbaycanda müasir təhsil sistemi və onun qarşısında duran vəzifələr, Qərbdə təhsilin xüsusiyyətləri aşkar edilir və Azərbaycanda təhsil sisteminin müasir sivilizasiyanın müsbət ənənələri zəminində qurulması zərurəti əsaslandırılır" (74, s.6). Müəllif dövlət və özəl tədris müəssisələrinin bəzi mübahisə doğuran məsələlərini müqayisəli şəkildə təhlil edir, ciddi fəlsəfi ümumiləşdirmələr aparır. Xüsusilə özəl təhsil sisteminin elmi təhlili, onun nəzəri və praktik məsələlərinin həlli kitabda mühüm yer tutur. Bütün bunlarla yanaşı, qeyd etməliyik ki, bu yazılarda "təhsilin sosial bir sistem kimi öyrənilməsi, onun iqtisadi aspektinin, maliyyələşdirmə xüsusiyyətlərinin təhlili", tədqiqatdan təcrid olunmuş, qabaqcıl ölkələrin uzun illər sınaqdan çıxmış ali təhsil təcrübəsini nəzərə almaqla Azərbaycan üçün məqbul özəl ali təhsil konsepsiyasının elmi-nəzəri əsasları tam şəkildə işlənib hazırlanmamışdır.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Azərbaycanda ali təhsilin qarşısında duran vəzifələrin düzgün müəyyənləşdirilməsi, onlara uyğun islahatların aparılması, Azərbaycan ali təhsilinin inkişafında özəl bölmənin rolunun və yerinin müəyyənləşdirilməsi, ümumilikdə özəl təhsildə olan problemlərin həlli yollarının araşdırılması, onların üzə çıxarılaraq aradan qaldırılması, özəl təhsilin dövlət təhsili ilə yanaşı yaşama və inkişaf etmə hüquqlarının əsaslandırılması yolunda gördüyü işlər xüsusi təqdirəlayiqdir. Belə ki, dövlət ali məktəbləri ilə yanaşı, özəl ali məktəblərdəki vəziyyət həmişə Təhsil Nazirliyinin diqqət mərkəzində saxlanılır, onların fəaliyyəti, qarşısında duran vəzifələr və s. Təhsil Nazirliyinin xüsusi kollegiyalarında müzakirə edilir, bu haqda xüsusi qərarlar verilir və onların həyata keçirilməsinə ciddi nəzarət edilir. Bütün bunlar özəl ali məktəblərin əksəriyyətinin öz

işində ciddi dönüş yaratmasına gətirib çıxarır. Bu barədə Azərbaycan Respublikasının Təhsil Naziri professor M.Mərdanovun ëAzərbaycan təhsili islahat yollarında: uğurlar, problemlər, vəzifələrë məqaləsində (50) geniş məlumat verilir. Bütün bunlarla yanaşı, ali təhsillə bağlı nəzəri və praktiki biliklərin sistemləşdirilməsi, ali təhsilin təşkilati, sosial-iqtisadi müstəvilərdə nəzərdən keçirilməsi bu sahədə ciddi və sanballı əsərlərin yazılmasını tələb edir. Əgər biz ali təhsilimizi beynəlxalq standartlar səviyyəsində qurmaq istəyiriksə, ali təhsildə dünya təcrübəsini mükəmməl surətdə öyrənməli, mövcud ali təhsil sisteminin uğurlarını ümumiləşdirməliyik. Bunsuz Azərbaycanın ali təhsilində özəl bölmənin yerini və rolunu, onun inkişaf perspektivlərini müəyyənləşdirə bilmərik.

Bu səbəbdən də biz tədqiqatımızı Azərbaycanda özəl ali təhsilin problemlərinə həsr etmişik.

*Tədqiqatın obyekti* Azərbaycanda özəl ali təhsildir.

*Tədqiqatın predmeti* Azərbaycanda özəl ali təhsilin problemləridir.

*Tədqiqatın məqsədi* Azərbaycanda təşəkkül prosesi keçirən özəl ali təhsilin uğurlarını və nailiyyətlərini təqdir etməklə bu sahədə yol verilmiş nöqsanların obyektiv və subyektiv səbəblərini üzə çıxarmaqdan, mövcud problemləri təhlil etməklə özəl ali təhsilin perspektivlərini layihələşdirməkdən və proqnozlaşdırmaqdan ibarətdir.

*Tədqiqatın əsas vəzifələri*

1. Azərbaycanda özəl ali təhsilin yaranmasını şərtləndirən ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni və hüquqi bazanın müəyyənləşdirilməsi;

2. Azərbaycanda özəl ali təhsilin kəmiyyət və keyfiyyət göstəricilərinin xarakteristikasının verilməsi;

3. Azərbaycanda özəl ali təhsilin inkişaf xüsusiyyətlərinin, istiqamətlərinin, tendensiyalarının və problemlərinin üzə çıxarılması və onların həlli yollarının layihələşdirilməsi və proqnozlaşdırılması;

4. Dövlətlə özəl ali təhsil arasında münasibətlərin tənzimlənməsində dünya təcrübəsinin öyrənilməsi;

5. Azərbaycanda özəl ali təhsilin yaranması zəruriliyinin əsaslandırılması və kadr hazırlığında onun yerinin və rolunun müəyyənləşdirilməsi;

6. Özəl ali təhsilin inkişafının iqtisadi aspektinin, maliyyələşmə xüsusiyyətlərinin təhlili;

7. Dövlət ali məktəblərinə muxtariyyət hüququnun, özəl ali məktəblərə isə sərbəstlik verilməsinin (tələbə qəbulu, tədris planlarının və proqramlarının hazırlanıb həyata keçirilməsi və s.) əsaslandırılması.

*Müdafiəyə çıxarılan müddəalar*

1. Dissertasiyada müqayisəli təhlil əsasında sübut olunmuşdur ki, özəl ali məktəblər Azərbaycan cəmiyyətinin müasir inkişaf mərhələsində gənclərin ali təhsil almasında müəyyən rol oynamaqla ölkədə sosial sabitliyin yaranmasına təsir göstərən mühüm qurumlardan biridir.

2. Özəl ali təhsil müəssisələri müxtəlif sahələr üzrə kadr hazırlamaq funksiyasını yerinə yetirməklə Azərbaycan gənclərinin təhsili, tərbiyəsi və inkişafı işinə, onların vətənə xidmət etməyə hazırlanmasına öz töhfəsini verir.

3. Azərbaycanda özəl ali məktəblər respublikamızın ali təhsillə bağlı bütün hüquqi və normativ sənədlərinə istinad edərək fəaliyyət göstərir, ali təhsilin daha da inkişafına xidmət edir.

4. Özəl ali məktəblərin hüquqi və mənəvi-psixoloji vəziyyətinin dövlət ali məktəblərinin vəziyyəti ilə eyni olmaması (özəl ali məktəblərin elmi şuralarına elmi adlarla bağlı vəsadət qaldırmaq hüququnun verilməməsi, müdafiə şuraları yarada bilməməsi və s.) özəl ali təhsil müəssisələrinin səmərəli fəaliyyətinə və nüfuzuna mənfi təsir göstərir. Bu uyğunsuzluqların aradan qaldırılması, özəl və dövlət ali təhsil müəssisələrinin bərabər hüquqlu şəraitdə fəaliyyət göstərməsi və bununla da ictimaiyyətdə özəl ali təhsilin nüfuzunun qalxması üçün mühüm şərtdir.

5. Özəl ali təhsil müəssisələrinin mərkəzləşdirilmiş idarə sisteminə cəlb olunmasına baxmayaraq dövlət ali təhsil müəssisələri ilə müqayisədə bə`zi imtiyazlardan məhrum edilməsi (dövlətdən dotasiya almaq, məzunların yerləşdirilməsinə fərqli yanaşmalar, aşağı bal toplamış abituriyentlərin özəl ali təhsil müəssisələrinə göndərilməsi və digər ayrı-seçkilik işləri) ölkə vətəndaşlarının təlim-tərbiyəsində və təhsilində dövlət münasibətinin müxtəlifliyinə gətirib çıxarmışdır. Süni yaradılan bu problemlərin nəticəsidir ki, hələ də valideynlərin çox hissəsi dövlət ali təhsil müəssisələrinə (ödənişli olsa da belə) üstünlük verir.

6. Özəl ali təhsil müəssisələrinin ən zəif cəhətlərindən biri onun daimi yüksək səviyyəli elmi-pedaqoji kadr potensialına malik olmamasıdır (bir neçə ali məktəb istisna olmaqla). Əgər özəl ali təhsil müəssisələri yüksək sosial və elmi-pedaqoji bazaya malik olmaq istəyirsə, öz fəaliyyətini dövlət ali məktəblərinin kadr potensialı ilə fasiləsiz iş prinsipi əsasında qurmağa çalışmalıdır.

7. Özəl ali təhsil müəssisələrinin dövlət ali təhsil müəssisələri ilə paralel olaraq bir çox sahələr üzrə kadrlar hazırlaması onların fəaliyyətində ciddi çətinliklər törədir. Çünki dövlət ali məktəbləri ilə özəl ali məktəblər arasında rəqabətin Azərbaycanda qanunun aliliyinin, hüquqi və əxlaqi dəyərlərin hələlik tamamilə bərqərar olmadığı bir şəraitdə baş verməsi, dövlət ali məktəblərinin xeyrinə, amirlik və subyektivizm təzahürlərini labüd edir. Bu isə özəl ali məktəblərdə müəyyən ixtisasların, hətta ola bilər ki, bə`zi özəl ali məktəblərin “təbii” yolla bütövlükdə ləğvinə səbəb olsun. Dövlət ali təhsil müəssisələrinə üstün praktiki və hüquqi imtiyazların verilməsi özəl ali təhsil müəssisələrindən dövlət ali təhsil müəssisələrinə keçid meylinin yaranmasına səbəb olmuşdur ki, bu da ali təhsildə özəl bölmənin rəqabət qabiliyyətinin zəifləməsinə gətirib çıxarır.

*Tədqiqatın metodoloji əsası.* Dissertasiyanın komponentlərinin xarakteristikasını vermək üçün tətbiq edilən, onun vəzifələrinin həlli prosesində zəruri olan nəzəri müddəaların və prinsiplərin, forma və metodların, vasitələrin toplusu tədqiqatın metodoloji əsasını təşkil edir.

*Tədqiqatın elmi yeniliyi.* Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, Azərbaycanda özəl ali təhsil çox da böyük tarixə malik olmasa da ali təhsilin inkişafında müəyyən rol oynamışdır. Belə bir nəticəyə gəlinmişdir ki, özəl ali təhsil Azərbaycanın həyatında baş verən ictimai- siyasi və hüquqi dəyişikliklərin nəticəsi olmaq etibarı ilə bir sıra məhdudiyyətlər qarşısında qalmışdır ki, bu da Azərbaycanda yeni dövlət quruculuğu dövründə hüquqi normativ sənədlərin yetkinsizliyi ilə bağlıdır. Müqayisəli-analitik iş nəticəsində müəyyən olunmuşdur ki, özəl ali təhsil müəssisələri ilə dövlət ali təhsil müəssisələrinin eyni hüquqi-normativ sənədlər əsasında fəaliyyət göstərməsi, cəmiyyətdə özəl ali təhsilin nüfuzunun artmasına səbəb olardı. Belə bir qənaətə gəlinmişdir ki, özəl ali təhsil müəssisələrinin nizamnamə hüququnun məhdudlaşdırılması və o hüquqların bəzilərinin dövlət inhisarına çevril-məsi, ali təhsil sahəsində dövlət monopolizminin yaranmasına, rəqabətin aradan qaldırılmasına, nəticədə isə kadr hazırlığının keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Dövlət seçmə təsisatının (Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının) yaradılması, onun idarəetmə orqanlarının dövlət tərəfindən müəyyən olunması, mövcud seçmə texnologiyasının həyata keçirilməsi klassik monopolizmin təzahürü olmaqla ölkənin intellektual potensialının hazırlanmasına mənfi təsir göstərir və özəl ali təhsilin inkişafına mane olur. Tədqiqatda ali təhsil texnologiyasına ilk dəfə olaraq "süzgəc" anlayışı daxil edilmiş, onun prinsipləri, tətbiqi və təhsilin keyfiyyətini yüksəltmək yolları müəyyənləşdirilmişdir.

*Tədqiqatın metodları:* müşahidə metodu, tarixi-müqayisəli metod, təhlil-tərkib metodu, (analiz-sintez), induktiv-deduktiv metodlar, riyazi metodlar və s.

*Tədqiqatın nəzəri əhəmiyyəti.* İlk tədqiqat əsəri olmaqla dissertasiyada Azərbaycanda özəl ali təhsilin meydana gəlməsinin siyasi-iqtisadi, elmi və praktiki əsasları hərtərəfli və dərin təhlil edilmişdir. Dissertasiya çox da böyük tarixə malik olmayan özəl ali təhsilin yaranma və inkişafını, problemlərini və onların həlli yollarını, gələcək perspektivlərini proqnozlaşdıran tədqiqat işi kimi gələcəkdə də bu

istiqamətdə elmi axtarışların davam etdirilməsi üçün ilkin mənbə rolunu oynayacaqdır.

*Tədqiqatın praktiki əhəmiyyəti.* Azərbaycanda özəl ali təhsilin praktiki olaraq həyata keçirilməsi prosesində, özəl ali təhsillə bağlı hüquqi və normativ sənədlərin, özəl ali təhsilin texnologiyasının təkmilləşdirilməsində və onun səmərəliliyinin yüksəldilməsində, özəl ali təhsilin rastlaşdığı problemlərin həllində, eləcə də ali məktəbdə pedaqogika nəzəriyyəsi və tarixi üzrə mühazirə və seminar məşğələlərində tədqiqatın nəticələrindən istifadə etmək olar.

*Tədqiqatın aprobasiyası.* Tədqiqatın nəticələri ingilis və Azərbaycan dillərində 10 adda məqalə və tezislər şəklində çap edilmişdir. Bu məsələlər Azərbaycan Respublikasının Təhsil Nazirliyinin keçirdiyi “Aspirant və gənc tədqiqatçıların respublika elmi konfransında”, “Humanitar elmlərin öyrənilməsinin aktual problemləri” üzrə ali məktəblərarası elmi konfransda, Riqada keçirilən “Baltik dənizi regionu XXI əsrin astanasında” adlı beynəlxalq konfransda və. s. şərh edilmiş, irəli sürülən elmi müddəalar müdafiə olunmuşdur.

*Dissertasiyanın quruluşu.* Əsər giriş, 2 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL
# AZƏRBAYCANDA ÖZƏL ALİ TƏHSİLİN YARANDIĞI SİYASİ, SOSİAL-İQTİSADİ VƏ HÜQUQİ ŞƏRAİT

## 1.1. Özəl ali məktəblərin meydana gəldiyi siyasi, sosial-iqtisadi və hüquqi vəziyyətin qısa xarakteristikası

Azərbaycanda təhsil sistemi əsaslı şəkildə yenidən təşkil olunma dövrü keçirir. Bu prosesin hüquqi əsası 1992-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Təhsil Qanunu ilə bağlıdır. Bu qanunun qəbulundan, onunla bağlı normativ sənədlərin hazırlığından sonra Azərbaycanın ali təhsil sistemi hərtərəfli şəkildə yenidən qurulmağa başladı.

Bu dəyişiklik Azərbaycanda baş verən siyasi, sosial-iqtisadi və hüquqi şəraitlə, cəmiyyətdə baş verən əsaslı dəyişikliklərlə bağlı idi. 90-cı illərin əvvəllərində Azərbaycan milli müstəqilliyinə nail oldu, onu möhkəmlətmək, dönməz tarixi reallığa çevirmək üçün yeni milli müstəqil və demokratik dövlət quruculuğu prosesi başlandı.

Yeni respublika quruculuğu prosesinin dönməz xarakter alması, iki dəfə prezident seçkilərinin və parlament seçkilərinin keçirilməsi, Konstitusiyanın qəbulu və daxili sabitliyə mane olan bir çox amillərin təsirinin zəiflədilməsi, daxili və xarici siyasətdə populizmdən peşəkarlığa əsaslı dönüşün tə”min edilməsi, sosial-iqtisadi sahədə islahatlara zəmin olan qanunverici sənədlər külliyyatının hazırlanması ilə qanunun aliliyi prinsipinin cəmiyyət həyatına hakim kəsilməsi istiqamətində görülən məqsədyönlü işlər bu dövrün xarakterik xüsusiyyətləridir.

Məhz, bu dövrdə Azərbaycan Respublikası Prezidenti H.Əliyev tərəfindən cəmiyyətdə ictimai-siyasi sabitlik təmin edilmiş, ölkəmiz dünya birliyində ləyaqətli yer tutmuş, Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmişdir. Beynəlxalq inteqrasiya proseslərinə qoşulan Azərbaycan demokratik, hüquqi dövlət quruculuğu, vətəndaşların hüquq və azadlıqlarının qorunması, həyatın bütün sahələrində əsaslı

dəyişikliklər aparılması ilə bağlı islahatlar keçirir, ölkədə bazar iqtisadiyyatı münasibətlərini yaradır. Bu da təbii ki, cəmiyyətin ictimai-humanitar düşüncə tərzinə, sosial psixologiyasına müsbət təsir göstərməyə bilməz.

Bu dövr həm də milli tarixi ənənələrə, ümumbəşəri dəyərlərə və beynəlxalq təcrübəyə söykənən təhsil islahatlarının aparılması ilə səciyyəvidir. Bu tarixi proseslərin uğurlu getməsinin, onun Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə xidmətinin ən mühüm şərtlərindən biri həmin tarixi yenidənqurma işlərini tənzimləyən hüquqi-normativ bazanın və elmi-metodik xidmətin yaradılması idi. Azərbaycanda milli dövlət quruculuğu şəraitində əsas qanununun-Konstitusiyanın və müvafiq olaraq təhsillə bağlı qanunların qəbulu Azərbaycanda təhsil sisteminin məzmun və strukturunun yenidən qurulması, bu sahədə əsaslı islahatlar aparılması zərurətini doğurmuşdu. Hazırda Azərbaycan Respublikasında fasiləsiz təhsil sistemi yaratmaq siyasəti həyata keçirilir. Təhsil sistemi qarşısında duran vəzifələr Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktına, Azərbaycan Respublikasının Konstitusiyasına, Təhsil Qanununa və müvafiq beynəlxalq hüquq normalarına uyğun həyata keçirilir.

Azərbaycan Respublikasının Konstitusiyası respublikamızın daxili və xarici siyasətini müəyyənləşdirən mühüm hüquqi sənəddir. Konstitusiya respublikamızda yaşayan bir millətə, etnik qrupa, milli azlığa, ictimai-siyasi qrupa üstünlük vermədən bütün əhalinin ümumi istək və arzularını, ümummilli mənafeyini əks etdirir. Konstitusiya həm vətəndaşların dövlət, həm də dövlətin vətəndaşlar qarşısında məs”uliyyət və vəzifələrini əks etdirən, yeni münasibətlər sistemi yaradılmasını nəzərdə tutur. Müstəqil dövlət quruculuğunun əsaslarının mühüm təminatçı sənədi olan Konstitusiyada Azərbaycan Respublikası vətəndaşlarının təhsil hüququ geniş və hərtərəfli şərh olunub. Dövlətin təhsil siyasəti Konstitusiyanın 42-ci maddəsində öz əksini aşağıdakı kimi tapmışdır: 1) Hər bir vətəndaşın təhsil almaq hüququ vardır. 2) Dövlət pulsuz icbari orta təhsil almaq hüququnu təmin edir. 3) Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir. 4) Maddi vəziyyətindən asılı olmayaraq istedadlı

şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir. 5) Dövlət minimum təhsil standartlarını müəyyən edir (11).

Respublikadamızda təhsilin təşkili sahəsində müstəqilliyin təmin olunması işi elmi surətdə əsaslandırılmış proqram üzrə həyata keçirilir. Yeni ictimai-iqtisadi münasibətlərə keçid Azərbaycanda təhsil sisteminin real maddi və mənəvi bazasının, mövcud potensial imkanlarının yeni tələblər baxımından nəzərdən keçirilməsini, artıq qərarlaşmış təlim-tərbiyə işi ilə milli-mənəvi xüsusiyyətlər və adət-ənənə arasındakı uyğunsuzluqların tədricən aradan götürülməsini, lazımsız ixtisasların və fənlərin ləğv olunmasını və yeni ixtisaslar üzrə kadr hazırlanmasını, ali məktəb şəbəkəsinin genişləndərilməsini və təhsil müəssisələri arasında səmərəli rəqabət mühiti yaradılmasını tələb edir.

Yuxarıda göstərilən hüquqi-normativ sənədlər əsasında Azərbaycanda özəl ali təhsil müəssisələrinin yaradılması prosesi başlandı. Qeyd etmək lazımdır ki, bu proses çox çətinliklə, bir çox hallarda müəyyən inzibati və hüquqi cəhətdən əsası olmayan maneələri dəf etməklə, müşayiət olunurdu. Bununla belə, özəl ali təhsil müəssisələrinin təsisçiləri onları uğurla aradan qaldırmaqla öz istəklərinə nail ola bildilər.

1992-ci ilin dekabrında Azərbaycan Respublikası Təhsil Qanunu qəbul edildikdən (12) sonra həmin qanunun 31-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 01.02.93-cü il tarixli 60 saylı qərarı (53) ilə Təhsil Nazirliyi nəzdində Dövlət Ali Ekspert Komisiyyası (DAEK) yaradıldı və onun əsasnaməsi təsdiq edildi. Bu Komissiyanın əsas işi Azərbaycanda Təhsil Qanunu əsasında özəl təhsil müəssisələrinin yaranma qaydalarının hazırlanması, fəaliyyət normativlərinin müəyyənləşdirilməsi və akkreditasiya olunması idi. Lakin bu dövrdə özəl təhsil müəssisələrinin yaranması prosesində bir sistemsizlik hökm sürür və Nazirlər Kabineti bu məsələyə tam nəzarət edə bilmirdi. Belə ki, DAEK-in müsbət rəyini almış özəl ali məktəblər Nazirlər Kabinetinin uyğun qərarı olmadan fəaliyyətə başlayırdı. Bu səbəblərdən çox çəkmədi ki, mövcud DAEK-in fəaliyyəti zəiflədi və

tezliklə dayandırıldı. Yeni ali təhsil ocaqlarının yaranma mexanizmi olmadığı, təhsil siyasətində, təhsilin idarə olunmasında hakimiyyətsizliyin hökm sürdüyü bir dövrdə paradoksal olsa da, özəl təhsil müəssisələri yaranmaqda idi. Artıq 1994-cü ildə belə təhsil ocaqlarının sayı xeyli artmışdı.

Belə bir dövrdə, 1993-cü il 29 iyul tarixli 413 saylı qərarla məhz Nazirlər Kabinetinin nəzdində yeni DAEK-in yaradılması məqsədəuyğun hesab olundu (52).

Təhsildə dövlət mənafeyini qorumaq, özəl təhsil sistemini tənzimləmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 24 sentyabr tarixli 212 saylı fərmanı ilə Nazirlər Kabineti yanında yeni DAEK yaradıldı(15). (Təhsil Qanununa görə isə belə qurum Təhsil Nazirliyi nəzdində yaranır). Geniş səlahiyyətlərə malik bu Komissiya tam dövlət mənafeyi tərəfindən çıxış edərək özəl təhsil müəssisələrinin yaranmasını akkreditasiya yolu ilə məhdudlaşdırmağa çalışırdı. Amma bunun qarşısını ala bilmədi. Respublika Təhsil Nazirliyinin 2000-ci ildə "Azərbaycan müəllimi" qəzetində verdiyi məlumatlardan məlum olur ki, Azərbaycanda hələ də 48 özəl məktəb və ya digər ölkələrin ali məktəblərinin filialları icazəsiz fəaliyyət göstərir. Təhsildə biznes elə bir miqyas almışdır ki, Azərbaycan hələlik bu problemi qanunvericilik yolu ilə tənzim edə bilmir, itaətsizlik hələ də hökm sürür. Dünya təcrübəsində isə akkreditasiya ilə bağlı belə qurumlar heç bir dövlət orqanlarına tabe olmayan tam sərbəst ictimai qurumlardır.

"... Yoxlama aparan komitə təhsil sistemini idarə edənlərdən asılı olmayan qurumdur"(86,s.33).

DAEK-in əsasnaməsindən: "DAEK fəaliyyətdə olan və yeni yaradılan təhsil müəssisələrinin qeydə alınması barədə qanunvericiliyə uyğun olaraq, Nazirlər Kabineti və ya Təhsil Nazirliyi qarşısında məsələ qaldırmaq, onların elmi-pedaqoji, maddi texniki və kadr hazırlığının beynəlxalq standartlar və real zəmin mövqeyindən qiymətləndirmək, onların hansı ixtisaslar üzrə diplom vermək hüququ olduğunu müəyyənləşdirmək və rəy (təklif) vermək səlahiyyətlərinə malikdir"(35).

Beləliklə, fəaliyyətdə olan özəl təhsil müəssisələri yenidən təzə yaradılmış

DAEK-in müsbət rəyini almalı oldular. Təxminən 3 ay müddətində DAEK-in xüsusi komissiyaları özəl ali məktəblərdə tədris proqramları, kadr potensialı, maddi-texniki baza, beynəlxalq əlaqələr və s. məsələləri diqqətlə öyrənərək, bir sıra özəl ali məktəblərin fəaliyyətinin məqsədəuyğunluğu haqda Nazirlər Kabineti qarşısında vəsatət qaldırdı. Bundan sonra Nazirlər Kabinetinin uyğun qərarları ilə təxminən, 2 il müddətində 16 özəl ali məktəb dövlət qeydiyyatına alındı.

1995-ci ildə Xəzər (4.03.95, 45 saylı qərar), Qərb (4.03.95, 44 saylı qərar), Asiya (4.03.95, 46 saylı qərar), Azərbaycan (4.03.95, 47 saylı qərar), Qafqaz (11.09.95, 203 saylı qərar), Təfəkkür (11.09.95, 202 saylı qərar), San-Marino BEA AM-ın Azərbaycan filialı (11.09.95, 203 saylı qərar), Bakıda Amerika Universiteti (17.01.95, 8 saylı qərar), 1996-cı ildən Ali Pedaqoji Qızlar Seminariyası (21.02.96, 21 saylı qərar), Ali Diplomatiya Kolleci (21.02.96, 22 saylı qərar), Odlar Yurdu (8.07.96, 86 saylı qərar), Naxçıvan (4.07.96, 84 saylı qərar), Gəncə Elm-Təhsil mərkəzi (4.07.96, 81 saylı qərar), 1997-ci ildə Bakı Biznes Universiteti (11.10.97, 204 saylı qərar), Azərbaycan Beynəlxalq Universiteti (11.10.97, 204s saylı qərar), Ali İctimai-Siyasi Kollec (11.10.97, 204 saylı qərar), Azərbaycan Respublikası Nazirlər Kabinetinin uyğun qərarları ilə dövlət qeydiyyatına alındılar[1]. Artıq özəl ali məktəblərin sayı sürətlə artmağa başlayırdı və bu proses belə təhsil müəssisələrinin yaranmağını məqsədəuyğun saymayanları narahat etməyə başlayırdı və artıq aydın idi ki, sürətlə artmaqda olan və ictimaiyyət tərəfindən birmənalı qarşılanmayan, çox minli tələbə auditoriyası qazanmış özəl təhsil ocaqlarının qarşısının alınması güc ilə deyil, belə təhsil müəssisələrinin ciddi yaranma mexanizminin hazırlanması vasitəsilə ola bilərdi. Belə bir mexanizmin hazırlanması əslində fəaliyyətdə olan DAEK-in əsas məqsədi və vəzifəsi olmalı idi. Bu işin öhdəsindən gəlməyə çalışan DAEK yeni ali məktəblərin yaranma prosesini qanuni tənzimləməyə çalışır, bunun üçün bir mexanizm hazırlayırdı və bununla da yeni özəl ali məktəblərin yaranması üçün

hüquqi baza hazırlamış olurdu.

Beləliklə, cəmiyyətdə gedən dəyişikliklər cəmiyyətin inkişafı üçün təhsilin hüquqi bazasını dəyişdirməyə başladı.

Keçid dövründə belə bir hüquqi bazanın hazırlanması heç də sadə iş deyildi. İnkişaf etmiş ölkələrin təhsil sistemi və qanunvericilik təcrübəsinin dərindən öyrənilməsi, bu işlə məşğul olan təşkilatın tam müstəqilliyi məsələsi, demokratik idarəetmə prinsipləri ilə Azərbaycanda bu sahədə hazırlanmış qanunlar arasında uz-laşmaya nail olmaq lazım idi.

Ümumiyyətlə, təhsilin hüquqi bazası aşağıdakıları tənzimləməli idi: 1. Yeni təhsil ocaqlarının yaranma və fəaliyyət prinsiplərinin hazırlanması; 2. Təhsil ocaqlarının dövlətdən yardım alma mexanizminin hazırlanması; 3. Dövlət tərəfindən yardımın dayandırılması mexanizminin hazırlanması; 4.Təhsil müəssisələrinin (dövlət və özəl) fəaliyyətinin dayandırılması prinsiplərinin hazırlanması; 5. Özəl təhsil müəs-sisələrinin profilinin müəyyənləşdirilməsi (ixtisaslaşması); 6. Özəl təhsil müəssisələrinin statusunun, ümumi ali təhsil sistemində yerinin və rolunun müəyyənləşdirilməsi və s.

Yalnız bu prinsiplərə əməl etməklə təhsil sistemində sabitlik yaratmaq mümkündür, dürüst addımlar atmaq olar. Bu prinsiplərin birincisilə məşğul olan DAEK müəyyən müddət keçdikdən sonra özəl təhsil müəssisələrinin bir sıra para-metrlərə görə (Məsələn, kompyuter funksiyasının geniş öyrədilməsi, beynəlxalq əlaqələrin təşkili, tələbə mübadiləsi, xarici mütəxəssislərin cəlb olunması, bəzi ixtisaslar üzrə ingilis dilində tədrisə çalışılması, tədris proqramlarına yeni vacib fənlərin salınması və s.) dövlət təhsil ocaqlarından geridə qalmadığını, daha çevik və mütərəqqi rol oynadığını görür və tədricən özəl təhsil ocaqları mənafeyindən çıxış etməyə başlayır. Hazırda 18 özəl təhsil müəssisəsi akkreditə olunmuş, dövlət tərə-

[1] Azərbaycan-Amerika Beynəlxalq Cəmiyyəti idarə heyətinin 5 iyun 2000-ci il tarixli qərarı ilə Bakıda Amerika Universitetinin, Təhsil Nazirinin 14.08.2001-ci il tarixli, 903 saylı əmri ilə Gəncə Elm-Təhsil mərkəzi, San-Marino

findən tanınmış və onların fəaliyyəti qanuniləşmişdir. Şübhəsiz ki, akkreditə olunmuş bu özəl ali məktəblər bir-birindən çox fərqlidir, ictimaiyyət tərəfindən eyni cür qarşılanmır.

Burada təhsil ocaqlarının akkreditə olunması barədə qısa da olsa danışmaq lazım gəlir.

Əsasən, 2 tip akkreditasiya mövcuddur. 1. Ali təhsil ocağının bütövlükdə bir təhsil ocağı kimi qeydiyyata alınması; 2. Müxtəlif sahələr üzrə professional assosiasiyaların apardığı akkreditasiya.

Birinci növ akkreditasiya ali təhsil ocağının bir təşkilat kimi qeydiyyatdan keçməsi deməkdir. Bunun üçün ali təhsil ocağının öz fəaliyyət imkanlarını (bina və auditoriyaların varlığı, professor-müəllim heyətinin olması və s.) sənədləşdirməsi kifayətdir. O ki, qaldı 2-ci növ akkreditasiyaya, bu yalnız peşəkarlardan ibarət nüfuzlu assosiasiyaların apardığı akkreditasiyadır.

Peşəkar akkreditasiyaların məqsədi ali təhsil ocağında fəaliyyət göstərən elmi-tədris qurumlarının araşdırılması, müxtəlif ixtisaslar üzrə kadr hazırlığı imkanlarının öyrənilməsindən ibarətdir. Bəs bu sahədə dünya təcrübəsi nə deyir? Kadr hazırlığı istiqamətində ali məktəbin səviyyəsinin müəyyənləşdirilməsi kimə və nəyə lazımdır?

Peşəkarlar tərəfindən akkreditasiya olunmuş və hər hansı ixtisas üzrə yüksək səviyyəli kadr hazırlığını təmin edə bilən ali təhsil ocaqları başqaları ilə müqayisədə aşağıdakı üstünlüklərə malik olurlar: 1. Akkreditə olunmuş ixtisaslar daha nüfuzludur, tələbələri daha çox cəlb edir; 2. Akkreditə olunmuş ixtisas üzrə uyğun ali məktəbin dövlətdən yardım alması asanlaşa bilər (40). (Bu fikir DAEK-in əsasnaməsində də öz yerini tapmışdır). DAEK-in əsasnaməsinə görə DAEK öz səlahiyyətləri daxilində tədris-metodik ekspertizadan keçən və Respublika üzrə kadr hazırlığında həqiqətən müsbət rol oynayan tədris müəssisələrinə dövlət qayğısı barədə, onların konkret ehtiyacları barədə məsələ qaldıra bilər (Maddə 2.2.). 3.Akkreditə olunmuş ixtisaslar üzrə bir ali məktəbdən başqa ali məktəbə köçürülmə

---

BEA AM-ın Azərbaycan filialı, Naxçıvan Universitetinin fəaliyyəti dayandırılmışdır.

məsələsi asanlaşır.

DAEK təkcə özəl ali məktəbi yox, eyni zamanda onun ayrı-ayrı ixtisaslarını akkreditə etmək fəaliyyəti ilə də məşğul olurdu. Bu olduqca vacib prosedura idi. Belə ki, akkreditə olunmuş ixtisaslardan başqa ali məktəbə keçmə məsələsi asanlaşdığı halda, akkreditasiya olunmamış ixtisaslar “bağlanmır”, amma onlar, sadəcə, müəyyən hüquqlardan məhrum olur, onların nüfuzuna müəyyən xələl gəlir. Odur ki, bu növ akkreditasiyanın keçirilməsində dövlət deyil, ali məktəblərin özləri maraqlıdır. Qeyd edək ki, yuxarıdakı üstünlüklərdən yalnız birincisi bu gün Azərbaycan özəl ali təhsilində özünü qabarıq şəkildə büruzə verir. Tələbə qəbulu mərkəzləşmiş surətdə aparıldığına görə yalnız akkreditə olunmuş ali təhsil ocaqlarına tələbə qəbulu aparılır. Lakin hələlik akkreditasiya haqqında tam müəyyənlik olmadığı üçün akkreditə olunmamış ali təhsil müəssisələri özləri sərbəst tələbə qəbulu aparır. Doğrudur buraya tələbələri cəlb etmə prosesi xeyli çətin olur.

Üçüncü məsələ də müəyyən mənada özünü göstərir. Belə ki, dövlət ali təhsil müəssisəsinə tələbə yalnız akkreditə olunmuş özəl ali təhsil müəssisəsindən keçə bilər.

İkinci məsələyə gəldikdə isə, bu gün Azərbaycanda akkreditə olunub-olunmamasından asılı olmayaraq, heç bir özəl ali məktəbin dövlətdən yardım almaq şansı yoxdur. Çünki özəl təhsil haqqında, onun qorunması və vacibliyi haqqında heç bir qanun olmadığı bir vaxtda dövlətdən yardım gözlənilməsi, hələlik, reallıqdan uzaqdır.

Burada bir məsələni də qeyd etmək vacibdir. Azərbaycanda hər hansı bir ixtisasın akkreditə olunmaması həmin ixtisasın bağlanması ilə eyniləşdirilir, həmin ixtisas üzrə tələbə qəbulu avtomatik dayandırılır və beləliklə də akkreditə olunmamış ixtisas öz mənasını itirmiş olur.

Bu məsələlərlə bağlı Hamlet İsaxanlı “Azad təhsil və azad cəmiyyət” (Azərbaycan Respublikasının yeni Təhsil Qanunu layihəsinə aid bəzi qeydlər) (38) adlı məqaləsində öz fikirlərini əsaslandırmağa cəhd göstərmişdir. Müəllifin yazısında

dövlətin ali təhsil ocaqlarına hansı yolla yardım göstərməsi, bu yardımın kəsilmə mexanizmi və eləcə də ali təhsil ocaqlarının (dövlət və ya özəl) yaranma və ləğv olunma prinsipləri açıqlanmışdır.

Azərbaycanda yeni, dünya təcrübəsinə əsaslanan təhsil sisteminə keçid təhsilin əsaslı, hüquqi baza üzərində qurulmasını təmin edən işləmə mexanizminin yaradılmasını zəruri edir. Müəllifin fikrincə bu mexanizmin işləmə prinsipi o qədər də mürəkkəb deyil və aşağıdakı müddəaları əhatə etməlidir:

1.Təhsil müəssisəsi təsis olunduqdan sonra təsisçinin iradəsi (dövlət və özəl bölmənin hər ikisi üçün) əsasdır. Dövlət yalnız maliyyələşdirmə məsələlərini həll edir;

2.Tələbələr ali məktəblərə iki yolla qəbul edilirlər: tam sərbəst və Dövlət Qəbulu Komissiyası vasitəsilə. Müəllif belə hesab edir ki, dövlət qəbul komissiyasına müraciət edən və uğur qazanan şəxsə təhsil müddəti üçün dövlət büdcəsindən müəyyən olunmuş məbləğ ayrılır və tələbə bu məbləği oxumaq istədiyi dövlət ali məktəblərinə və ya dövlətin tanıdığı özəl ali təhsil ocaqlarına təhsil haqqı kimi təqdim edir. Və dövlətdən kömək yalnız bu yolla alına bilər, dövlət komissiyasının xidmətindən istifadə etməyənlər isə təhsil ödənişlərini tam öz üzərinə götürürlər və ya onlar dövlətdən borc istəyə bilərlər. Beləliklə, bir tərəfdən yalnız dövlətin bəyəndiyi, onun nəzarətindən keçən tələbəyə büdcədən pul ayrılır, digər tərəfdən isə tələbələrin tam maraq göstərdikləri ali məktəblər də dolayısı yolla maddi kömək alırlar, yəni təhsil ocaqlarının arasında rəqabət yaranır. Hal-hazırda isə dövlət təhsil müəssisəsi yaxşı-pis olmasından, rəqabətə davamlı olub-olmamasından asılı olmayaraq, dövlət büdcəsindən ayırmalar hesabına varlığını qoruyur.

3.Akkreditasiyadan keçməyən ixtisas üzrə dövlət maliyyələşdirilməsi (yuxarıda göstərilən Dövlət Qəbul Komissiyası vasitəsilə gələn tələbənin təhsil xərclərini ödəmək baxımından) kəsilir.

4.Təhsil müəssisəsinin ləğvi isə yalnız təsisçinin qərarı ilə (müəssisədə təhsil alanların məsələsini müəyyən yolla həll etdikdən sonra) və ya məhkəmənin qərarı ilə ola bilər.

Göründüyü kimi, sadə, işləmə prinsipi aydın olan və göstərilən şərtlərin hamısını ödəyən bir mexanizm təklif olunur.

Burada əlavə olaraq ali təhsil ocaqlarının akkreditasiya olunması vacibliyi (akkreditasiyanın dünya təcrübəsinə əsaslanmış formasında) aydın olur və bu akkreditasiya həmin mexanizmin iş prinsipində (yardımın kəsilməsi, yoxsa davam etməsi məsələsi) əsas rol oynayır.

Akkreditasiya məsələsi tək özəl təhsil müəssisələri ilə məhdudlaşmamalıdır. Əslində, dövlət təhsil ocaqlarının akkreditasiyası ön plana çəkilməlidir. Dövlət büdcəsindən pay alan, dövlətdən bina və avadanlıq alan, laboratoriyalar alan təhsil ocağının kadr hazırlama səviyyəsi birinci növbədə araşdırılmalıdır.

Bu gün Azərbaycanda bu iki növ akkreditasiya forması eyniləşdirilmişdir. Dövlət tərəfindən qeydə alınan özəl ali məktəbə hansı ixtisaslar üzrə mütəxəssis hazırlayacağı da göstərilir. Mümkündür ki, bu halı keçid dövründə, müəyyən mənada, qəbul etmək olar. Amma gələcəkdə ölkəmizdə dünya standartlarına uyğun təhsil verilməsi və buna qadir təhsil müəssisələri yaradılmasını istəyiriksə, unutmamalıyıq ki, dövlət tərəfindən qeydə alınmış istənilən özəl ali təhsil müəssisəsi hər hansı ixtisas üzrə mütəxəssis hazırlamaqda tam sərbəstdir.

Nazirlər Kabinetinin 1997-ci il 2 avqust tarixli 98 saylı qərarı (54) ilə Nazirlər Kabineti yanında DAEK-in fəaliyyəti dayandırıldıqdan sonra yeni özəl ali məktəblərin yaranması və onların fəaliyyətinə icazə verilməsi prosesinin izlənməsi də tənzimlənmə baxımından vacib və xeyli maraqlıdır. DAEK-in fəalliyyəti dayandırıldıqdan sonra yeni özəl ali məktəblərin yaranması xeyli çətinləşsə də bundan sonra 2 belə ali məktəb yaranmışdır.

Mövcud DAEK-in fəaliyyəti dayandırıldıqdan sonra Azərbaycan Respublikası Prezidentinin “Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısının təsdiq edilməsi haqqında” 04.10.97-ci il tarixli 637 saylı fərmanına (14) əsasən Nazirlər Kabineti 19 may 1998-ci il tarixli 112 saylı qərar hazırladı. Bu qərara görə Azərbaycan Respublikasının ali təhsil müəssisələri də fəaliyyətinə xüsusi razılıq

(lisenziya) tələb olunan fəaliyyət növləri siyahısına aid edildi və bu məsələ Təhsil Nazirliyinə həvalə edildi. Belə ki, artıq yaranan yeni özəl ali təhsil ocağı əvvəlcə Respublika Ədliyyə Nazirliyində qeydiyyatdan keçməli və nizamnaməsi burada təsdiq olunmalıdır.Yalnız bundan sonra həmin təhsil müəssisəsinin fəaliyyətinə Təhsil Nazirliyi tərəfindən lisenziya verilir və təhsil müəssisəsi qanuni fəaliyyətə başlayır.

Yeni "Müstəqil Azərbaycan" Universitetinin yaranması məhz belə baş vermişdir. Bu universitet 14.08.98-ci il tarixli 23 saylı şəhadətnamə ilə Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır və yalnız bundan sonra Təhsil Nazirliyi öz səlahiyyətləri daxilində bu universitetin fəaliyyətə başlaması üçün 4.09.98-ci il tarixli AV № 019001 saylı lisenziya vermiş və elə həmin vaxtdan da tələbə qəbulu üzrə Dövlət Komissiyası bu universitetə tələbə qəbulu aparmışdır.

Naxçıvan Özəl Universitinin yaranması da bu baxımdan maraqlıdır. Bakıda fəaliyyət göstərən Özəl Naxçıvan Universitetinin tədris bazalarından biri Naxçıvan MR-da yerləşirdi. Naxçıvan MR-da müstəqil fəaliyyət göstərən bir özəl ali məktəbin olmasını dəstəkləyən Naxçıvan MR-nın rəhbərliyi Azərbaycan Respublikası Təhsil Nazirliyinə və Ədliyyə Nazirliyinə müraciət edərək Naxçıvanda yerləşən tədris bazasının sərbəst ali məktəbə çevrilməsi məsələsini qaldırdılar və Ədliyyə Nazirliyinin 05.07.99-cu il tarixli 33 saylı şəhadətnaməsilə Naxçıvandakı tədris bazası Naxçıvan Özəl Universiteti kimi qeydiyyata alındı və beləliklə maraqlı bir tendensiya görünməkdədir. Ölkəmizdə mövcud özəl ali məktəblərin sayının çox olmağından gileylənən dövlət orqanları özləri yeni özəl ali məktəblərin yaradılmasına müsbət rəy verirlər. Bu onu göstərir ki, belə müəssisələrin yaranma və artma prosesi təbii bir prosesdir və onun qarşısını güclə almaq mümkün deyil. Şübhəsiz ki, həyatın sınaqlarından çıxa bilməyən özəl ali məktəblər özləri təbii yolla fəaliyyətlərini dayandırmalı olacaqlar.

Qeyd edək ki, müəyyən müddət ərzində nəinki özəl ali məktəblərin sayı artmışdır, hətta bir sıra özəl ali məktəblər respublikanın müəyyən bölgələrində və şəhərlərində

öz filiallarını yaratmışlar. Onu da qeyd edək ki, məhz bu məsələ özəl ali məktəblərin ünvanına söylənilən neqativ fikirlərə qüvvət verirdi. Belə ki, hələ Azərbaycanın mərkəzində-Bakıda yüksək səviyyəli kadr hazırlanmasında savadlı müəllimlərin işə cəlb olunması çox da asan olmadığı bir zamanda rayonlarda bu məsələnin necə həll olunması haqlı olaraq suallar doğururdu. Özəl ali məktəblərin nizamnamələrində belə filialların yaradılmasının mümkünlüyü göstərilsə də, bu məsələyə xeyli ciddi yanaşılmalıdır. Sözsüz ki, bu məsələdə əsas problem kadr problemidir və belə filialların fəaliyyəti çətin ki, ölkəmiz üçün yüksək səviyyəli kadr hazırlanmasında uğurlu addım olsun. Məhz elə bu səbəbdən də belə filialların fəaliyyəti Təhsil Nazirliyinin diqqət mərkəzində saxlanılaraq, Nazirlik tərəfindən xüsusi qərarların qəbul olunmasına gətirib çıxartdı. Belə ki, Təhsil Nazirliyinin 14.09.1998-ci il tarixli 46-03-2026/17 saylı əmri ilə respublikada müxtəlif ali məktəblərin fəaliyyət göstərən filiallarının qeyri-qanuni olduğu qeyd olundu və respublika əhalisinə mətbuatda Azərbaycan Respublikası Təhsil Nazirliyinin uyğun məlumatı çatdırıldı. Həmin məlumatda Azərbaycanda fəaliyyət göstərən yerli və xarici ölkə ali məktəblərinin 41 qanunsuz filial və tədris məntəqələrinin siyahısı dərc olundu və qeyd olundu ki, “siyahıda göstərilən və digər qeyri-qanuni fəaliyyət göstərən təhsil müəssisələrinə qəbul olunanların təhsili etibarsız sayılır və onlara dövlət tərəfindən təhsil haqqında diplomlar verilməyəcək” (66).

Beləliklə də, faktik olaraq ölkəmizdə fəaliyyət göstərən yerli və xarici ölkələrin ali məktəblərinin qanunsuz filial və bölmələrəinin fəaliyyətinə son qoyulmuş oldu. (Amma buna baxmayaraq yenə də qanunsuz fəaliyyət göstərən təhsil müəssisələrinə təsadüf olunur. Məsələn: Futurologiya Universiteti, bir sıra xarici ali məktəblərin filialları və s.).

Azərbaycanda özəl ali təhsilin yaranma və inkişaf tarixinə edilən bu ekskurs göstərir ki, respublikada DAEK-in mövcud olduğu müddətdə özəl ali məktəblərin yaradılması, hansı ixtisaslar üzrə mütəxəssis hazırlanması, tələbə qəbulunun planlaşdırılması və digər bütün məsələlər məhz DAEK tərəfindən həll edilmişdir.

Mövcud DAEK-in fəaliyyəti dayandırıldıqdan sonra isə özəl ali məktəblərin fəaliyyəti ilə bağlı bütün məsələlər Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən həll edilir. Belə ki, özəl ali məktəblərdə tədris proqramlarının təsdiqi, tələbə qəbulu planının müəyyənləşdirilməsi, hansı ixtisaslar üzrə mütəxəssis hazırlığının aparılması, maddi-texniki bazası və elmi-pedaqoji kadr potensialı zəif olan ixtisaslar üzrə kadr hazırlığının dayandırılması, məzunlara dövlət nümunəli diplomların verilməsi və s. kimi məsələlər məhz Təhsil Nazirliyinin səlahiyyət dairəsindədir.

Ümumiyyətlə, ali məktəblərin fəaliyyətinə tam nəzarətin bir orqan tərəfindən həyata keçirilməsi (istər DAEK, istərsə də Təhsil Nazirliyi) məsələlərin nizamlanmasında müsbət rol oynayır. Lakin Təhsil Nazirliyi də bəzi məsələlərin həllində tam sərbəst səlahiyyət sahibi deyil. Belə ki, Təhsil Nazirliyinin səlahiyyət dairəsinə aid olunması daha məntiqi görünən bəzi məsələlər (tələbə qəbulunun planlaşdırılması, yeni ixtisasların açılması və s.) daha yüksək dövlət orqanlarında həll olunduqdan sonra formal olaraq Təhsil Nazirliyinin əmrilə qanuniləşir və bu ikihakimiyyətlilik məsələnin həllini müəyyən mənada çətinləşdirir. Təhsil Nazirliyi ali məktəblərə daha yaxın olduğu halda məsələlərin məhz ali məktəblərlə birbaşa əlaqəsi olmayan yuxarı hakimiyyətdə, əslində isə təhsilin idarə olunması baxımından Təhsil Nazirliyindən xeyli aşağı səviyyəli bir qurumda həll olunması çox vaxt qeyri-real addımlara gətirib çıxarır. Tələbə qəbulu işinin Təhsil Nazirliyi ilə faktik heç bir əlaqəsi olmayan bir quruma tapşırılması və Təhsil Nazirliyinin bu prosesdən kənarda qalması, ölkənin ali təhsil müəssisələrinin bu qurumun "yedəyinə" bağlanması, təhsil sisteminə bütünlüklə cavabdeh olan Təhsil Nazirliyinin və onun tabeliyində olan çoxsaylı ali və orta ixtisas məktəblərinin hüquqlarının məhdudlaşdırılması kimi qiymətləndirilir.

Dövlətlə özəl təhsil arasında münasibətdən danışarkən bu təhsil ocaqlarının məzunlarına hansı növ diplom verilməsi məsələsinə də toxunmalıyıq.

Azərbaycan Respublikası Təhsil Qanununda bu haqda deyilir: "Təhsil müəssisələri məzunlarına həmin təhsil müəssisəsini bitirmələri, aldıqları ixtisas və

onun dərəcəsi barədə vahid formada təhsil haqqında dövlət sənədi verir. Təhsil haqqında dövlət sənədinin nümunəsini müvafiq icra hakimiyyəti orqanı təsdiq edir".

Özəl universitetlərin məzunlarına "müvafiq icra hakimiyyəti" tərəfindən hazırlanmış diplomun verilməsi uzun müddət mübahisələrə səbəb olmuşdur və bu mübahisə indi də davam etməkdədir.

İlkin yaranmış özəl ali məktəblər (Xəzər, Qərb, özəl Azərbaycan universitetləri) 1995-ci ildə Nazirlər Kabinetində qeydiyyatdan keçəndən 1-2 il sonra bu ali məktəblərin ilk məzunları oldu və həmin məzunlara dövlət nümunəli diplom blanklarının verilməsi məsələsində problem yarandı. Belə ki, bu ali məktəblərdən 2-si (Xəzər Universitəsi o zaman da məzunlara öz diplomlarının verilməsinə tərəfdar idi) həmin vaxt məzunlarına dövlət nümunəli diplomlar verilməsi üçün Təhsil Nazirliyinə müraciətlər etsələr də həmin ali məktəblərə belə diplomlar verilmədi. Bu sahədə müvafiq təcrübə olmadığından Təhsil Nazirliyinin məsul işçiləri bilərəkdən, ya da bilməyərəkdən müraciətlərə çox məntiqsiz cavablar verirdilər. "Dövlət diplomları dövlət ali məktəbləri üçündür. Qeyri-dövlət ali məktəblər zəhmət çəkib öz məzunlarına öz diplomlarını versinlər" kimi fikirlər söylənilməyə başladı. Təhsil Nazirliyinin bu yanlış fikirlərdə olan məmurları adi bir həqiqəti yaddan çıxarırdılar ki, özəl ali məktəblərdə təhsil alanlar da Azərbaycan vətəndaşlarıdır və onlar da Azərbaycana xidmət edəcəklər. Beləliklə, bu ali məktəblər məcburiyyət qarşısında qalaraq məzunlarına öz diplomlarını verdilər.

Qeyd edək ki, həmin vaxtlar özəl ali məktəb məzunlarına dövlət diplomlarının verilməməsi özəl ali məktəblərin nüfuzunun aşağı salınmasına qulluq edirdi və bu müəyyən müddət öz "effektini" verdi. Çünki tələbələr və onların valideynləri arasında ciddi bir narahatçılıq yaranmağa başladı. Əgər dövlət qeydiyyatdan keçmiş özəl ali məktəblərə öz diplomunu vermirsə, sonralar məzunların işə düzəlmə prosesində də ciddi çətinliklərin meydana çıxacağı gözlənilirdi və bu hal özəl ali məktəblərin xeyli çətinliklərlə üzləşməsinə səbəb olurdu. Qeyd edək ki, bu məsələ tələbə qəbulu vaxtı özəl ali məktəblərə daxil olmaq istəyənlərin sayına da mənfi təsir

göstərirdi. Bu kimi çətinliklərlə üzləşə-üzləşə özəl ali məktəblər məzunlarına öz diplomunu verməkdə davam edirdilər. Artıq özəl ali məktəblərin verdiyi diplomlarla işə düzəlməyin mümkünlüyü göründükcə (məzunlar çox hallarda yüksək maaşlı işlərə dəvət olunur və faktiki olaraq ailələrinin "çörək gətirənlərinə" çevrilirdilər) məzunlar arasında özəl ali məktəb diplomlarına münasibət müsbət istiqamətdə dəyişilirdi və onlar dövlət diplomlarının varlığını unudurdular. Belə bir dövrdə 1997-ci ildən etibarən Təhsil Nazirliyi dövlət qeydiyyatından keçmiş özəl ali məktəb məzunlarına dövlət diplomlarının verilməsi haqda qərar verdi. Maraqlıdır ki, vaxtilə özəl ali məktəb məzunlarına dövlət diplomları verilməsini qeyri-mümkün sayaraq Təhsil Qanununun uyğun maddəsinə göz yuman Təhsil Nazirliyi, indi Təhsil Qanununun eyni maddəsinə istinad edərək bütün ali məktəb məzunlarına vahid formalı dövlət diplomunun verilməsini israr edirdi. Lakin bu dövrdə özəl ali məktəblərin verdiyi diplomlar artıq tələbələr, məzunlar və onların valideynləri arasında kifayət qədər hörmət qazanmışdı və indi məzunlar və ali məktəblərin özləri Təhsil Nazirliyi tərəfindən verilən diplomları götürüb-götürməməyi düşünürdülər.

Elə indi də özəl universitetlərin rəhbərləri arasında bu məsələyə müxtəlif baxışlar var. Belə ki, bir sıra özəl universitetlərdə məzunlara məhz vahid formalı dövlət diplomlarının verilməsi fikri dəstəklənir, digər özəl universitetlər isə məzunlarına öz diplomlarının verilməsini yeganə düzgün yol hesab edirlər.

Bu barədə Xəzər Universitetinin rektoru, professor Hamlet İsaxanlı yazır: "Məgər dünyada olduğu kimi hər ali məktəb öz diplomunu (minimum göstəricilərə cavab vermək şərtilə) versə bu daha düzgün deyilmi? Hər ali təhsil ocağı öz diplomunun arxasında özü dursun, pisi də ona aiddir, yaxşısı da. Dövlət isə zəif, güclü, özəl... hamısını eyni diplom vasitəsilə eyniləşdirir. Deyəsən bərabərləşdirmə, eyniləşdirmə siyasəti düşüncələrdə özünə isti yuva tapıb" (38).

Bu fikir "Azərbaycan" Universitetinin rektoru, professor Səlahəddin Xəlilovun yazısında da öz əksini tapmışdır: "... hələ indiyədək yaxşı oxuyan da pis oxuyan da eyni diplom alır. Bərabərçilik bəlasından xilas olmaq o zaman mümkündür ki, diplom

vermiş təhsil müəssisəsi məzunun sonrakı fəaliyyətində üzə çıxan çatışmazlıqlar üçün məsuliyyət daşısın" (75).

Şübhəsiz ki, ali məktəb qeyd olunan məsuliyyəti o vaxt daha çox hiss edir ki, məzunlarına öz diplomunu vermiş olsun. Qeyd edildiyi kimi bu məsələ yaxşıya da, pisə də və eyni zamanda bütün ali məktəblərin məzunlarına eyni gözlə baxılması kimi zərərli bir halın qarşısını alar və diplomu özünü doğrultmuş, başqa sözlə yalnız layiqli məzunlara diplom vermiş ali məktəblərin hörməti artmış olar. Bu da ölkədə yüksək səviyyəli kadr hazırlığı prosesinə sözsüz ki, öz müsbət təsirini göstərər.

Yuxarıda qeyd etdik ki, bir sıra özəl ali məktəblərdə məzunlara məhz dövlət diplomunun verilməsi fikri dəstəklənir. Düşünürəm ki, burada məqsəd özəl ali məktəblərin hələ "tam özəl" olmadığı bir şəraitdə "dövlət ali məktəbi" imicindən istifadə etməkdir. Görünür, bu özəl ali məktəblər dövlət ali məktəblərlə rəqabətdə qalib çıxacaqlarına çox da inanmır və "mən də məzunlarıma dövlət diplomu verirəm" deyərək yenə də bərabərləşdirmə və eyniləşdirmə siyasəti yeridir və beləliklə də, özəl təhsilin hələ cəmiyyətdə tam birmənalı qarşılanmadığı halda özünü müəyyən mənada sığorta edir.

Lakin dünya təcrübəsinə nəzər salsaq görərik ki, nəinki özəl ali məktəblər, hətta dövlət ali məktəbləri də hərə öz diplomunu verir. Görünür gələcəkdə biz də buna gəlməli olacağıq. Gstənilən halda, bu gün özəl ali məktəblərin məzunlarına dövlət diplomlarının verilməsi onların fəaliyyəinə mənfi deyil, müsbət təsir göstərir.

Bir məsələni də qeyd etmək lazımdır.

Həm dövlət, həm də özəl ali məktəblərdə hazırlanan kadrlar, əsas etibarilə, Azərbaycanın sosial- iqtisadi və mədəni həyatının müxtəlif sahələrində işləyir və gələcəkdə də işləyəcəklər. Lakin özəl ali məktəblərin məzunlarına dövlət nümunəli diplomların verilməsinə baxmayaraq, onlar işə qəbul olunarkən müəyyən dərəcədə subyektivizm və ayrı seçkilik elementləri ilə qarşılaşırlar və belə olan halda bu məzunlara hansı növ diplomun verilməsi mənasını itirmiş olur. Odur ki, bütün məzunlara verilən diplomların eyni formatda olması yox, eyni statusda olması

vacibliyi qarşıya qoyulmalıdır. Mümkündür ki, özəl ali məktəb məzunlarının ayrı seçkilik təzahürləri ilə qarşılaşmasını minimuma endirmək baxımından bu gün bütün məzunlara (istər dövlət, istərsə də özəl ali məktəbləri bitirən) vahid formatda və vahid statusda diplomların verilməsi məqsədəuyğundur. Amma cəmiyyətin və dövlət məmurlarının sosial psixologiyasında müvafiq dönüş baş verdikdən sonra, məzunlara formaca müxtəlif, lakin hüquqi baxımdan eyni statuslu diplomların veriləcəyi qarşısıalınmaz bir prosesdir.

Bu məsələdən danışarkən bir şeyi də unutmamaq lazımdır. Məlumdur ki, ölkəmizdə məzunlara 2 səviyyəli diplom verilir - adi və fərqlənmə. Düşünürəm ki, bu tip fərqləndirmək istəyi vəziyyəti tam obyektiv əks etdirmir və nəinki güclünü zəifdən, hətta güclünü-güclüdən və zəifi-zəifdən də fərqləndirmək lazımdır. Bu baxımdan Xəzər Universitetində tətbiq olunan və artıq bəzi başqa universitetlərin də (“Qərb”, “Odlar yurdu”) marağına səbəb olmuş fərqləndirmə metodu diqqətəlayiqdir. Tədris proqramlarını yerinə yetirmə nəticələrinə görə məzunlara 4 səviyyəli diplom verilir - adi, fəxri, yüksək fəxri və ən yüksək fəxri. Bu səviyyələr çox ciddi və dəqiq kriteriyalarla - tələbənin müvəffəqiyyət əmsalının (TMƏ) hansı aralığa düşməsilə müəyyənləşdirilir.

$60 \leq$ TMƏ $\leq 79{,}5$ adi diplom

$80 \leq$ TMƏ $\leq 86{,}5$ fəxri diplom

$87 \leq$ TMƏ $\leq 93{,}5$ yüksək fəxri diplom

$94 \leq$ TMƏ $\leq 100$ ən yüksək fəxri diplom.

Sözsüz ki, belə fərqləndirmə metodu bir tərəfdən məzunların fərqləndirmə prosesini daha da konkretləşdirir və daha obyektivdir, digər tərəfdən isə tələbələrin daha yüksək nəticə göstərmələrinə stimul verən bir əlamətdir.

Dövlət və özəl ali məktəblərin münasibətindən danışarkən tələbələrin bir ali məktəbdən başqa bir ali məktəbə köçürülməsi məsələsinə də diqqət yetirmək lazımdır.

Ümumiyyətlə, hər bir məsələdə olduğu kimi bu məsələyə də konkret müstəvidən baxmaq lazımdır. Çünki müxtəlif özəl ali məktəblərdən dövlət məktəblərinə, eləcə də başqa bir özəl ali məktəbə köçürülmələrin səbəbləri də müxtəlif olur.

Şübhəsiz ki, özəl ali məktəblərdən dövlət ali məktəblərinə köçürülmək istəyənlərin sayı daha çoxdur. Bunun da əsas səbəbi dövlət ali məktəblərin məzunlarının işlə təminatında daha az problemlərin olmasıdır. Hər hansı dövlət məmuru dövlət təşkilatında işə düzəlmək istəyən ali məktəb məzununa “sən dövlət ali məktəbini qurtarmısan, ona görə də səni işə götürə bilmərəm” - deyə bilmir. Amma təəssüflər olsun ki, özəl ali məktəblərin məzunlarına bu sözlər çox tez-tez deyilir.

Bir özəl ali məktəbdən başqasına köçürülmə formaca çox sadədir. Bu köçürülmə hər iki ali məktəbin rektorlarının qarşılıqlı razılığı ilə həll olunur (64). Belə köçürmələrin səbəblərini əsasən aşağıdakı kimi qruplaşdırmaq olar.

1. Hər hansı bir özəl ali məktəbə daha çox inam olması və burada ciddi təhsil almaq arzusu.

2. Başqa bir ali məktəbə köçürülərək asanlıqla və vaxtında məzun olmaq arzusu.

3. Ali məktəblərdə təhsil haqqının xeyli müxtəlif olması, başqa sözlə maddi vəziyyətlə bağlı köçürmələr.

Özəl ali məktəblərarası köçürmələrdə xüsusi prosedur çətinlikləri olmadığından əsas məqsədimiz özəl ali məktəbdən dövlət ali məktəbinə köçürmələri araşdırmaqdır.

Azərbaycan Respublikası Təhsil Nazirinin 09.12.97-ci il tarixli, 870 saylı əmrilə özəl ali məktəblərdən dövlət ali məktəblərinə köçürülməyə icazə verilmişdir. “Qanuni fəaliyyət göstərən qeyri-dövlət təhsil müəssisəsindən dövlət təhsil müəssisələrinə əlavə pullu (ödənişli) təhsil qruplarına tələbələrin köçürülməsi həmin təhsil müəssisə-sinin rəhbərliyinin razılığı ilə həyata keçirilir”(68).

Köçürülmənin ümumi qaydaları isə Təhsil Nazirinin 07.08.1996-cı il tarixli 402 saylı əmrilə təsdiq olunmuş əsasnamədə (69) göstərilmişdir. Göründüyü kimi, dövlət ali məktəblərinə köçürmələr yalnız həmin ali məktəblərdə ödənişli təhsil qrupları açıldıqdan sonra, özü də yalnız bu qruplara mümkündür. Buradan belə bir qənaətə

gəlmək olar ki, belə köçürmələrin əsasında dövlət ali məktəblərinin qazanc əldə etməsi, eləcə də, dövlət ali məktəblərinin statusunu qaldırmaq, onun monopoliyasını, nüfuzunu nümayiş etdirmək istəyi durur. Əks halda heç olmasa müəyyən şərtlər daxilində dövlət ali məktəblərinin pulsuz (ödənişsiz) qruplarına da köçürmələr mümkün olardı.

Özəl ali məktəblərdən dövlət ali məktəblərə köçürmələrin səbəbini belə qruplaşdırmaq olar.

1. Əhalidə özəl ali məktəblərə nisbətən dövlət ali məktəblərə inamın daha çox olması. Qeyd edək ki, bu hal özünü tələbələrə nisbətən onların valideynləri arasında daha çox büruzə verir. Valideynlər çox vaxt tələbələrin öz istəklərinin əksinə olaraq bu qərara gəlirlər. Bunlar şəxsən mənim dövlət ali məktəblərinə köçürülən tələbələrlə ünsiyyətdən gəldiyim qənaətdir.

2. Bəzi özəl ali məktəblərdə təhsil haqqının xeyli yüksək olması. Bəzən valideynlər öz övladlarının dövlət ali məktəblərinə köçürülməsini məhz bununla izah edirlər. Lakin məsələyə daha dərindən yanaşsaq və nəzərə alsaq ki, dövlət ali məktəbləri ilə özəl ali məktəblərdəki təhsil haqqı arasındakı fərq çox da böyük deyil, (bəzən hətta ümumiyyətlə çox deyil) məsələnin yenə də dövlət ali məktəblərinə olan inamla bağlandığını görərik.

3. Tələbənin dövlət ali məktəblərində asanlıqla və vaxtında diplom alma arzusu.

Məsələ burasındadır ki, bir sıra özəl ali məktəblər var ki, onların əhali arasında reytinqi heç də ən qabaqcıl dövlət ali məktəblərindən geri qalmır. Belə ali məktəblərdə tələbələrə yüksək və ciddi bilik verilməsi, buradakı ciddilik və obyektivlik artıq ictimaiyyət tərəfindən qəbul edilir. Odur ki, belə ali məktəblərdən başqa məktəblərə köçürülmədə başqa bir məqam da var. Tələbələr bu ali məktəblərdə (Xəzər, Amerika Universiteti, Qərb) oxumağın ciddiliyini və çətinliyini görür və bu səbəbdən də vaxtında diplom almaq arzusu və məqsədilə başqa ali məktəblərə, o cümlədən dövlət ali məktəblərinə köçürülürlər.

Bu müddəanı başqa bir faktla da isbat etmək olar. Məhz yuxarıda sadalanan özəl

ali məktəblərdən alınan məlumatlara görə 1997-ci ildən bəri (köçürülməyə məhz bu vaxtdan icazə verilib) həmin özəl ali məktəblərdən başqa özəl və dövlət ali məktəblərinə köçürülən tələbələrin demək olar ki, hamısı zəif tələbələrdir, həmin tələbələrin oxuduqları ali məktəbdə vaxtında məzun olmaq şansı yoxdur və ya çox aşağıdır. Odur ki, həmin tələbələrin əksəriyyəti gedib orada xeyli sayda kəsirlərini asanlıqla ləğv edirlər və vaxtında məzun olurlar.

Qeyd edək ki, özəl ali məktəbdən dövlət ali məktəbinə köçürmənin qaydaları Təhsil Nazirliyinin müxtəlif sənədlərində öz əksini tapsa da köçürülmə prosesində xeyli pozuntular olur. Belə köçürülmədə hər iki ali məktəbin rəhbərliyinin razılığı olması vacibliyinə baxmayaraq, əksər halda belə razılıq olmadan Təhsil Nazirliyi tələbənin bir ali məktəbdən başqasına köçürülmə məsələsini həll edir. Hətta bəzən artıq tələbənin müəyyən dövlət ali məktəbinə köçürülməsi haqda əmr ali məktəb rəhbərinin xəbəri olmadan ona göndərilir və beləliklə də rektorun razılığı formal xarakter daşıyır. Köçürülməyə etiraz olunan halda rəhbərlik valideynin narazılığı ilə qarşılaşır. “Təhsil Nazirliyi köçürülməyə icazə verib, siz isə buna mane olmaq istəyirsiniz” kimi fikirləri dəf etmək lazım gəlir. Əlbəttə mümkündür ki, başqa bir ali məktəbə köçürülməyi qərara alan tələbəyə köçürülməyə icazə verilmədiyi halda yenə müəyyən narazılıqlar olsun. Lakin köçürülmə artıq Təhsil Nazirliyi tərəfindən “vaxtından əvvəl” həll olunursa, valideynlərin belə narazılıqları müəyyən mənada “qanuniləşmiş” olur. Qeyd edək ki, belə məsələlər son vaxtlar yalnız özəl ali məktəbdən dövlət ali məktəblərinə yox, eləcə də başqa bir özəl ali məktəbə köçürülmələrlə bağlı da baş verir. Belə neqativ halların varlığı həm ali məktəblə tələbə və ya onun valideyni arasında, həm də köçürülmə ilə birbaşa bağlı olan ali məktəblər arasında münasibətlərə xeyli soyuqluq gətirir. Burada bir məqam da meydana çıxır.

Məlum olduğu kimi özəl ali məktəblərdə təhsil ödənişlidir və o da məlumdur ki, iqtisadi vəziyyətin çox da yüksək olmadığı bir zamanədə tələbələr vaxtlı-vaxtında təhsil haqqını ödəyə bilmirlər.

Ali məktəbin köçürülmələrə etirazının əsas səbəblərindən biri köçürülmək

istəyən tələbənin ali məktəbə borclu olmasıdır və yuxarıda deyilən formada köçürülməyə “tələsik icazə” verilməsi tələbədən borcun alınmasına mənfi təsir göstərir. Artıq özünü başqa ali məktəbə köçürülmüş hesab edən tələbə təhsil haqqı borcunu ödəmək istəmir. Sözsüz ki, son məqamda belə məsələlər həll olunur, lakin onların meydana çıxması özü sevindirici olmur.

Bununla bərabər qeyd etmək lazımdır ki, köçürülmə ilə bağlı bəzi neqativ halların qarşısı məhz Təhsil Nazirliyi tərəfindən alınır. Son vaxtlar Azərbaycanın müxtəlif rayonlarında xarici dövlətlərin ölkəmizdə fəaliyyətinə icazə verilməyən filial və şöbələri fəaliyyət göstərirdi. Sözsüz ki, “gözdən iraq” bu ali məktəblərə qəbul olmaq heç bir çətinlik törətmir. Müəyyən müddət belə yerlərdə təhsil alandan sonra tələbələr özəl və dövlət ali məktəblərinə köçürülməklə, öz tələbə statuslarını qanuniləşdirirdilər. Bunun qarşısının alınması üçün Təhsil Nazirinin 14.09.98-ci il tarixli 46-03-2026/17 saylı əmrilə yuxarıda göstərilən strukturların fəaliyyəti qeyri-qanuni elan olundu və belə strukturlardan dövlət və özəl ali məktəblərə köçürmələrə icazə verilmədi (67).

Eyni məqsədlə Təhsil Naziri prof.M.Mərdanov kütləvi informasiya vasitələrilə çıxış etdi və mətbuatda qanunsuz fəaliyyət göstərən ali məktəblər, onların müxtəlif rayonlardakı filial və şöbələrinin siyahısı dərc olundu (66). Qeyd olundu ki, “qeyri-qanuni fəaliyyət göstərən təhsil müəssisələrinə qəbul olunanların təhsili etibarsız sayılır və onlara dövlət tərəfindən təhsil haqqında diplomlar verilməyəcək” və bundan sonra bu cür neqativ köçürülmələr aradan qaldırılmışdır.

Ali məktəblərarası köçürmələrin nizamlanması məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyi Nazirlər Kabineti tərəfindən təqdim olunmuş dövlət nümunəli akademik arayışlar hazırlatdı və 1999-cu ilin iyun ayından etibarən ölkədə ali məktəblərarası köçürmələr yalnız bu tip akademik arayışlar əsasında aparılır (65).

Qeyd edək ki, Rusiya Federasiyasının Təhsil Nazirliyi də xüsusi fərqlənən qiymətli kağızlarda akademik arayışlar buraxmışdır.

Beləliklə, respublikamızda ali məktəblərarası köçürmələr ölkəmizdə tətbiq

olunan dövlət nümunəli akademik arayışlar, Rusiya Federasiyasının ali məktəbləri və onların ölkəmizdə qanuni fəaliyyət göstərən filiallarından başqa ali məktəblərimizə köçürmələr isə Rusiya Federasiyası uyğun akademik arayışları əsasında aparılır və bu hal ali məktəblərarası qanunsuz köçürmələrin nizama salınmasında xüsusi rol oynayır.

Təhsil sisteminin milli zəmin üzərində, ümumbəşəri dəyərlərə əsaslanaraq yenidən qurulması və ona müvafiq hüquqi baza yaradılması sahəsində Respublikamızda xeyli iş görülmüş, təhsilin inkişaf strategiyasına söykənən təfərrüatlı hüquqi mexanizm işlənib hazırlanmışdır. Azərbaycan Respublikasının Təhsil Qanunu yenidən işlənmiş, ikinci oxunuş üçün Milli Məclisə təqdim olunmuşdur. Təhsil sahəsində ciddi islahatların aparılmasına başlanmışdır. Müstəqilliyimiz möhkəmləndikcə təhsil sahəsində də daha inamlı addımlar atılmağa başlanmışdır. Respublika Prezidenti H.Əliyev dövlətin təhsil sahəsinə münasibətini ifadə edərkən demişdir ki, biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq. Bütün dünya ölkələrinin mütərəqqi təcrübələrindən istifadə edirik. Hesab edirəm ki, indiyə qədər yaranmış təməlin, əsasın üzərində Azərbaycanın təhsili, məktəbi bundan sonra da daha da təkmilləşəcəkdir. Əlbəttə, təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində dövlət islahat proqramının hazırlanması mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Prezidenti H.Əliyevin sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" və müvafiq olaraq təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması ölkəmizdə geniş miqyaslı islahatların həyata keçməsi üçün göstərilən böyük diqqətin təzahürüdür. XXI əsr Azərbaycanın təhsil konsepsiyasını özündə aydın əks etdirən həmin proqramda təhsilin idarə olunmasında yeni prinsiplərin tətbiqi təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması və dünya təhsil sisteminə inteqrasiyasının sür"ətləndirilməsi, təhsilin məzmununda əsaslı keyfiyyət dəyişikliklərinin aparılması və yeniləşdirilməsi kimi strateji istiqamətlər müəyyənləşdirilmişdir.

Dövlət Komissiyası bu vəzifələrin həyata keçirilməsi üçün mühüm tədbirlər

planı işləyib hazırlamışdır.

1. Təhsil sistemində hər bir yenilik inqilabi yolla deyil, təkamül yolu ilə həyata keçirilməlidir.

2. Heç bir ölkənin təhsil sistemini olduğu kimi Azərbaycanda qurmağa cəhd göstərilməməlidir.

3. Dünyanın inkişaf etmiş ölkələrinin təhsil sistemi, bu gün həmin ölkələrdə təhsil sahəsində aparılmaqda olan islahatlarla yaxından tanış olunmalıdır.

4. Xalqımızın milli xüsusiyyətlərindən, ən”ənələrindən, xüsusən, təhsil sahəsində formalaşmış ən”ənələrdən səmərəli istifadə edilməlidir.

5. Təhsil sistemimizin hazırkı vəziyyəti, onun problemləri dərindən öyrənilməli, prioritet sahələr müəyyən edilməli, başqa sözlə, müstəqil Azərbaycanın təhsil sistemi milli zəminə söykənərək, ümumbəşəri dəyərlərdən bəhrələnməlidir.

15 iyun 1999-cu ildə təsdiq edilmiş proqram sözün əsl mə”nasında ölkəmizin təhsil tarixində bir hadisə oldu, ölkə prezidentinin təhsilə, onun inkişafına diqqətinin və qayğısının növbəti təzahürünə çevrildi.

Proqramda təhsil islahatının 3 mərhələdə keçirilməsi nəzərdə tutulur.

Birinci mərhələ hazırlıq mərhələsidir və 1999-cu ildə vətəndaşların təhsil almaq hüququnu tə”min edən, bazar iqtisadiyyatının tələblərinə uyğun yeni təhsil sisteminin normativ hüquqi, iqtisadi və informasiya bazasını yaratmaq üçün təşkilati işlərin aparılmasını nəzərdə tutur.

Qısamüddətli perspektivi əhatə edən ikinci mərhələdə, yəni 2000-2003-cü illərdə təhsil sahəsinin sosial-iqtisadi sabitliyini tə”min edən problemlərin həll olunması və genişmiqyaslı islahatların aparılması üçün təşkilati hüquqi, kadr, maliyyə, maddi-texniki tə”minatın və yeni idarəetmə modelinin yaradılması nəzərdə tutulur.

Üçüncü mərhələ 2004-cü ildən sonrakı mərhələdir ki, burada proqramda nəzərdə tutulan bütün tədbirlərin həyata keçirilməsi yolları əhatə olunmuşdur.

Təhsil islahatının bütün mərhələlərində şəxsiyyət amili, onun inkişafı və yüksək səviyyədə təhsil alması, əsl vətəndaş kimi tərbiyə edilməsi ön plana çəkilmiş, əsas

vəzifə olaraq qarşıya qoyulmuşdur.

Təhsil sistemini həmin tələblər zəminində qurmaq və inkişaf etdirmək üçün islahatın əsas prinsipləri müəyyənləşdirilmişdir. Bunlar aşağıdakılardır:

- təhsil sisteminin üstün inkişaf etdirilməli sahə olduğunu təsbit etməyə imkan verən e"tibarlı bazanın yaradılması, ölkə elminin və mədəniyyətinin inkişafı, demokratik vətəndaş cəmiyyətinin qurulması modelləşdirilmiş istehsalat mülkiyyət sistemi əsasında dayanaqlı iqtisadi artıma keçilməsi;

-demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə prinsiplərinə əsaslanaraq, təhsil alanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təhsil prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, bütün qurumların fəaliyyətinə təhsil alanın mənafeyinə xidmət etmək məqsədi ətrafında birləşdirən təhsil sisteminin yaradılması;

- mövcud təhsil sistemində toplanmış təcrübənin mütərəqqi əsaslarını saxlamaqla Azərbaycanın strateji məqsədlərini həyata keçirməyə qadir olan intellektual potensialın formalaşdırılmasında inkişaf etmiş ölkələrdə özünü doğrultmuş və elmi-pedaqoji ictimaiyyətin qəbul etdiyi təcrübədən istifadə olunması;

- idarəetmənin dövlət-ictimai xarakterdə həyata keçirilməsi, müəllimlərin və digər pedaqoji işçilərin fəaliyyəti üçün ən əlverişli şəraitin yaradılması, onların sosial müdafiəsinin tə"min olunması;

- təhsil sisteminin yeni iqtisadi modelinin qurulması, ehtiyat resurs tə"minatının möhkəmləndirilməsi və onun optimallaşdırılması və s.

İslahatın əsas məqsədindən irəli gələn bu prinsiplər keçmiş Sovetlər Birliyinin ictimai-siyasi quruluşu və ideologiyası əsasında formalaşmış və bu gün də qalmaqda davam edən prinsiplərdən kəskin şəkildə fərqlənir.

Yuxarıda sadaladığımız qlobal problemlərin, o cümlədən Azərbaycan vətəndaşlarının Konstitusiya ilə təsbit olunmuş təhsil hüququnu tam tə"min etmək, islahat proqramında müəyyənləşdirilən istiqamətləri gerçəkləşdirmək, təhsil

sistemində aparılan islahatları sür"ətləndirmək, təhsili idarəetmə mexanizmini təkmilləşdirmək, pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını və yenidən hazırlanmasını tə"min etmək, təhsildə maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini yüksəltmək məqsədilə Azərbaycan Respublikası Prezidenti H.Əliyev 13 iyun 2000-ci ildə "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" xüsusi fərman vermişdir və 30 avqust 2000-ci il tarixli fərmanı ilə haqlı olaraq həmin fərmanın bəzi maddələrinin fəaliyyətini dayandırmışdır. Çünki Təhsil Nazirliyi uzun onilliklər ərzində sahə nazirliklərinin tabeliyində olan müxtəlif profilli tədris müəssisəlrinə rəhbərlik etmək üçün nə təcrübəyə, nə də öz aparatında ixtisaslı kadrlara malikdir. Müəllimləri təkmilləşdirmə institutunun bazasında müəllimlər institutunun və Respublikanın çoxsaylı rayon mərkəzində və şəhərində həmin institutun filialının yaradılması, fikrimizcə, kadr hazırlığı sahəsində 30-50-ci illərin təcrübəsinə qayıtmaq deməkdir. Hər şeydən əvvəl elmi-pedaqoji kadrları olmayan həmin filiallarda yüksək ixtisaslı kadrların hazırlığı problematik görünür. Dünyanın qabaqcıl ölkələrinin təhsil sistemləri ilə inteqrativ əlaqələrin gücləndiyi bir dövrdə arxaikləşmiş bir adda tədris müəssisəsinin yaradılması, fikrimizcə, zamanın tələblərinə uyğun gəlmir.

Təhsil sisteminin idarə olunması sahəsində yeni idarəetmə modelinin yaradılması nəzərdə tutulur. Bu model təhsil sahəsində dövlət siyasətinin strategiyasının həyata keçirilməsini, təhsil sisteminin fəaliyyətinin hüquqi tənzimlənməsini, dövlət təhsil standartlarının hazırlanmasını və tətbiqini, təhsilin keyfiyyətini həmin standartlara uyğun qiymətləndirmə və nəzarət mexanizminin yaradılmasını, ali təhsil müəssisələrinə mərhələlərlə özünüidarəetmə statusu və maliyyə müstəqilliyi verilməsini təmin etməlidir.

## 1.2. Özəl ali təhsil sahəsində dünya təcrübəsinin öyrənilməsi və Azərbaycanda onun tətbiqi problemləri

Azərbaycanda özəl təhsilin inkişafını təmin etmək üçün dünya təcrübəsinin öyrənilməsi və onun mütərəqqi ənənələrinin tətbiqi böyük əhəmiyyət kəsb edir.

“Müxtəlif ölkələrdə ali məktəblər təhsilə, tədqiqata, mədəniyyətə və cəmiyyətə xidmətdə ümumi cəhətlərə malik olmaqla yanaşı, bir sıra tarixi, iqtisadi səbəblər və ənənələrlə bağlı dövlət və özəl bölmənin tutduğu yer cəhətdən fərqlənirlər. Əgər Almaniya, İngiltərə kimi ölkələrdə dövlət məktəbləri təhsil sisteminin aparıcılarıdırlarsa, ABŞ, Cənubi Amerika, Qərbi Asiya və Cənub-Qərbi Asiya ölkələrində özəl ali təhsil sistemi daha geniş yayılmışdır”””” (40).

Avropa ölkələrində özəl təhsillə dövlət təhsilinin balansı böyük üstünlüklə dövlət təhsili tərəfdədir.“Almaniyada 9 dini ali məktəbdən başqa bütün ali məktəblər dövlətə məxsusdur. Ali təhsilin Fransada 6%, Türkiyədə 23%, Norveçdə 1,5%, İspaniyada 6%-i özəldir”” (Ali məktəblərin sayı baxımından) (71).

Avstriya, Danimarka, Yunanıstanda demək olar ki, bütün ali məktəblər dövlətə məxsusdur. Şərqi Avropa ölkələrində də ali məktəblərin əksəriyyəti dövlətə məxsusdur. Beləliklə, Avropa ali təhsilində dövlət sektorunun açıq-aydın üstünlüyü göz qabağındadır.

ABŞ-da ali məktəblərin sayını müqayisə etsək burada özəl təhsilin üstünlük təşkil etdiyini görərik. Təxminən 2000 ali məktəbdən (universitetlər nəzərdə tutulur) 1400-ü özəl ali məktəbdir (ali məktəblərin 70%-i). Ölkədə ən məşhur ali məktəblər isə əsasən özəl universitetlərdir (Harvard, Çikaqo, Kolumbiya və s.)

Əgər ali məktəbləri burada təhsil alan tələbələrin sayı baxımından müqayisə etsək dövlət təhsilinin böyük fərqlə üstünlük təşkil etdiyini görərik. Bunun səbəblərindən biri ABŞ-da özəl ali məktəblərin bir qisminin əsasən kiçik ölçülü olmalarıdır. 1980-ci ilin statistikasına görə özəl ali məktəblərin 56%-də tələbələrin sayı 1000-ə qədər, 37%-də isə 1000-5000 arasındadır. Qalan ali məktəblərdə isə

tələbələrin sayı daha böyük rəqəmlərlə ifadə olunur. Müqayisə üçün qeyd edək ki, dövlət ali məktəblərində bu rəqəmlər, uyğun olaraq, 6% - və 38%-dir (84). Sözsüz ki, belə səbəblərdən biri də ABŞ-da özəl ali məktəblərdə təhsil haqqının nisbətən yüksək olmasıdır. Bu səbəbdən özəl ali məktəbdə təhsil almaq istəyənlərin bir qismi öz istəyinin əksinə olaraq dövlət ali məktəblərində təhsil almalı olur. ABŞ-da özəl ali təhsil dövlət ali təhsilindən tez yaranmışdır və hesab olunur ki, ABŞ-da ali təhsil 1636-cı ildə Harvard Universitetinin əsasının qoyulması ilə başlayır (106).

Bununla belə, ABŞ-da özəl təhsilə və dövlət təhsilinə münasibətdə bir balans var. Çünki ABŞ-da hər iki sektorun (həm dövlət, həm də özəl) inkişafı dövlət mənafeli bir məsələ kimi qəbul olunur və özəl universitetlərin xərcinin ən azı 25%-i dövlət büdcəsindən ödənilir. Bu ölkədə dövlətin özəl təhsilin inkişafında maraqlı olmasını göstərir.

“Yaponiyada ali təhsilin təşkili baxımından başqa təcrübə yaranmışdır. Yapon möcüzəsinin əsas səbəbini belə izah edirlər: çevik özəl universitetlər Qərbdən elmi Yaponiyaya gətirməklə, sənayenin dəyişməsinə və inkişafına təkan vermişlər. Avropa və Amerikadakı müxtəlif ali məktəb modelləri Yaponiyada heç bir məhdudiyyət qoyulmadan sınaqdan keçirilmişdir. 1949-cu ildə (diqqət edin: ölkə böhran keçirdiyi zaman) özəl universitetlərin sayı 92-yə çatmışdı.

Bu prosesi hüquqi əsas üzərində qurmaq üçün 1949-cu ildə Yaponiya parlamenti özəl təhsil bölməsinin hüquqlarını mühafizə edən özəl məktəblər qanunu qəbul etdi və özəl universitetlər şurası yaradıldı. 1952-ci ildən 1970-ci ilə qədərki dövrdə dövlət universitetlərində tələbələrinin sayı ikiqat, özəl bölmədə isə dördqat artdı. Bu artıma və sərbəstliyin qanunla qorunduğuna baxmayaraq, 60-cı illərin axırlarında özəl universitetləri böhran bürüdü. Maliyyə çətinliyi və istedadlı tələbələrin özəl ali məktəblərə az gəlməsi böhranın iki əsas təzahürü idi. Dövlət bu böhranı aradan qaldırmaq üçün bir sıra tədbirlər gördü. Özəl ali təhsilin inkişafı dövlət əhəmiyyətli məsələ elan edildi, özəl ali məktəblərin xərclərinin 50 faizinə qədərini dövlət öz üzərinə götürdü”” (40).

Hazırda Yaponiyada 443 ali məktəb var. Onlardan 125-i dövlət, 318-i özəldir (107).

İsao Amaqi (92) və Ceyms Estella, Ceil Benyamin (95) əsərlərində yapon ali təhsilindən geniş danışır, yapon ali təhsilinin inkişafında özəl ali məktəblərin əvəzolunmaz rolunu göstərir, bir sıra ölkələrdə yapon təcrübəsinin ali təhsilin inkişafı üçün əsas götürüldüyünü qeyd edirlər.

Latın Amerikası, Fillippin, İndoneziya, Cənubi Koreya, Hindistan, Banqladeş, İran, Macarıstan, Bolqarıstan, Çexiya və Slovakiya respublikaları, Polşa, Rumıniya, Rusiya, Ukrayna, Gürcüstan və s. özəl ali təhsil ocaqlarının sürətlə artdığı ölkələrdəndir".

Bəs Azərbaycanda vəziyyət necədir?

Azərbaycanda özəl təhsilin yaranma tarixi, yuxarıda qeyd etdiyimiz kimi, Sovetlər Birliyi dağıldıqdan sonra aydın təhsil siyasətinin və təhsil konsepsiyasının olmadığı bir dövrə təsadüf edir.

Belə bir dövrdə, bir tərəfdən dövlət ali məktəblərində maaş, dərslik və maddi bazanın təminatı məsələlərinin çətinləşməsilə əlaqədar dövlət təhsilində bir böhran yaranır, əvvəllər dövlət büdcəsindən lazımi qədər vəsait alan təhsil dövlətin maliyyə dəstəyindən sürətlə məhrum olur, digər tərəfdən isə müəllim heyəti və ilkin ictimai rəy baxımından bunlarla yarışa bilməyən, lakin proqram çevikliyi, tədrisin yeniləşdirilməsi, ağıllı maliyyə siyasəti və xarici əlaqələr sahəsində özlərini sübut etmiş özəl ali məktəblər təhsildə öz sözlərini deməyə başlayırdı. Özəl universitetlərin yaranmasını təhsildə yaranmış böhrandan bir çıxış yolu kimi qəbul etmək əvəzinə, müxtəlif yollarla belə təhsil ocaqlarının qarşısının alınması daha çox diqqət mərkəzində dururdu. Özəl universitetlərin sayının sürətlə çoxalması müxtəlif dövlət orqanlarını və o cümlədən, bir çox dövlət ali təhsil müəssisələrini narahat etməyə başlayırdı. "Özəl universitetlər yağışdan sonra göbələk kimi çıxırlar" ifadəsi radioda, televiziyada, qəzet və jurnal səhifələrində ən populyar ifadəyə çevrilmişdi. Amma bu fikri söyləyənlər məhz bununla özəl universitetlərin yaranması vacibliyini sübut etmiş

olurdular. Axı yağışın yağması göbələyin çıxması üçün əlverişli şərait yaradır. Bu dövrdə Azərbaycanda "yağış" rolunu dövlət ali təhsil müəssisələrində yaranmış (hələ indi də davam edən) dərin böhran oynayırdı və bu böhrandan çıxış yolunu özəl universitetlərin yaradılmasında görənlər yanılmırdılar.

Respublikamızda fəaliyyət göstərən özəl universitetlərin böyük hissəsi, kiçik miqyaslı ali məktəblərdir. Bunun təbii ki, üstünlükləri vardır. Belə ki, hər hansı böyük bir universitetdə müəyyən ixtisas üzrə çoxsaylı mütəxəssis hazırlamaqdansa, həmin ixtisas üzrə azsaylı tələbə oxuması və yüksək səviyyəli kadr hazırlanması daha məqsədəuyğundur.

Azərbaycan kimi müstəqil inkişaf yoluna qədəm qoymuş bir ölkədə isə bu hal təhsilə yarış xarakteri verir, rəqabətə yol açır və mütəxəssis hazırlığının səviyyəsinə öz müsbət təsirini göstərir. Doğrudur, Azərbaycanda kiçik ölçülü olmayan özəl ali məktəblər mövcuddur. Məsələn, ilk özəl ali məktəblərdən biri kimi yaradılmış "Futurologiya" və hazırda fəaliyyətdə olan Azərbaycan Beynəlxalq Universiteti (əvvəlki adı Beynəlxalq San-Marino Akademiyasının Bakı filialı) bunlara misaldır. Bəlkə də elə bu səbəbdən adı çəkilən "Futurologiya" dövlət qeydiyyatından keçə bilmədi.

Azərbaycan Beynəlxalq Universiteti isə son vaxtlar maddi-texniki bazanın genişləndirilməsində və. s. xeyli ciddi irəliləyişlərə nail olsa da, burada tələbələrin sayının çox sürətlə artırılması, buna xüsusi önəm verilməsi və həyati vacib məsələ kimi baxılması, fikrimizcə bu ali məktəbin ən zəif cəhətidir və bu ciddi amil ali məktəbdə təhsilin keyfiyyətinə mənfi təsir göstərməyə bilməz.

Azərbaycanda özəl təhsildən söhbət açarkən özəl təhsilin nə dərəcədə sərbəst olub-olmaması diqqət mərkəzində olmalıdır. Özəl təhsilin sərbəstliyi bir çox ölkələrdə demokratiyanın olub-olmaması faktı ilə bərabərləşdirilir. Belə sərbəstlik olmayan yerdə yüksək inkişaf səviyyəsindən danışmaq sadəlövhlük olardı. Azərbaycanda özəl təhsil nə dərəcədə sərbəstdir? Qanunvericiliklə müəyyən olunmuş aşağıdakı qaydalar ölkəmizdə özəl təhsilin nisbi sərbəst olduğunu, bu sahədə ciddi

problemlərin varlığını sübut edir.

1. Dövlət təhsil standartlarının hazırlanması (ali təhsildə də), təsdiqi və tətbiqi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir (maddə 8.3);

2. Tədris planları (maddə 28.5), təhsilin forma və pilləsi (maddə 16.2) müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir;

3. Təhsilin məzmunu müvafiq icra hakimiyyəti orqanının hazırladığı nümunəvi təhsil proqramlarına uyğun müəyyənləşdirilir (maddə 28.3);

4. Tələbə qəbulu müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydaya uyğun həyata keçirilir (maddə 17.1);

5. Qəbul planları, ixtisaslar spektri və s. məsələlər Təhsil Nazirliyi, Nazirlər Kabinetində həll olunur. Göründüyü kimi tam sərbəstlikdən danışmağa əsas yoxdur.

Ümumiyyətlə, sərbəstlik ölçülərinə görə (tədris proqramlarının müstəqil həyata keçirilməsi, tələbə qəbulu, ixtisasların seçilməsi və s.) Azərbaycan ali təhsilini Avropa, Amerika ilə müqayisə etsək görərik ki, adı çəkilən ölkələrdə nəinki özəl ali məktəblər, hətta dövlət ali məktəbləri Azərbaycandakı özəl ali məktəblərdən daha sərbəst, daha müstəqildirlər. Doğrusu elə Azərbaycanda dövlət ali məktəblərinə Təhsil Qanununa görə verilə bilən müstəqillik də özəl ali məktəblərin müstəqilliyindən çoxdur. Təhsil Qanunu layihəsinin 26-cı maddəsinə əsasən bəzi ali məktəblərə muxtariyyət hüququ verilə bilər. Muxtariyyət hüququ almış ali məktəbə aşağıdakı əlavə hüquqlar da verilir. Onlar təhsilin məzmununu qabaqcıl ölkələrin təhsil standartlarına uyğun müəyyən edə bilər, dövlət sifarişini nəzərə almaqla tələbə (bakalavr, magistr, diplomlu mütəxəssis) və aspirant, doktorant qəbulu planlarını müəyyənləşdirə bilər, müstəqil tələbə, aspirantura və doktoranturaya qəbul apara bilər, öz elmi adlarını təsis edə və verə bilərlər və s.

Sadalanan bu işlərin hamısını özəl ali məktəbin əvəzinə "müvafiq icra hakimiyyəti" görür. Bununla da muxtariyyət verilmiş dövlət ali məktəbin, yoxsa özəl ali məktəbin müstəqil olması tamamilə aydın olur.

Əgər özəl ali məktəblərlə muxtariyyət verilməyən dövlət ali məktəblərini

müqayisə etsək burada da özəl ali məktəblərdə heç bir xüsusi özəlliyin olmadığını görərik. (Tələbə qəbulu TQDK tərəfindən aparılır, tədris planları və proqramları Təhsil Nazirliyi tərəfindən təsdiq olunur, ixtisaslar Təhsil Nazirliyi tərəfindən seçilir, təsdiq olunur və s.). Beləliklə dövlətin "qeyri-dövlət" damğası vurduğu özəl ali məktəblər bir sıra göstəricilərinə görə dövlət təhsil müəssisəsi hesab edilə bilər.

Özəl ali məktəblərin nizamnamə hüquqlarının dövlət tərəfindən belə məhdudlaşdırılması Azərbaycanın bu sahədə sivil münasibətlər təcrübəsindən hələ çox uzaqda olduğunu göstərir. Dövlətdən heç bir yardım almadan ali təhsilin inkişafına, gənc nəslin təhsili və tərbiyəsinə xidmət göstərdiyinə görə onların dövlətdən sağlam münasibət gözləməyə haqqı vardır. Gətirdiyimiz müqayisələr göstərir ki, Azərbaycanda özəl ali təhsillə dövlət təsisatları arasındakı münasibətlər mürəkkəbdir və onların nizama salınması aktual bir məsələdir.

Özəl universitetlərə belə qeyri-doğma münasibətdən söhbət gedəndə əsasən bu ali məktəblərdə maddi-texniki bazanın olmaması, professor-müəllim heyətinin dövlət ali məktəblərdən dəvət olunması, tədris prosesi səviyyəsinin aşağı olması, bu ali məktəblərin yalnız şəxsi qazanc məqsədilə yaradılması, özəl ali məktəblərin sayının həddindən çox olması kimi amillər ön plana çəkilir.

Sadalanan bu amillərin hər biri ətrafında özəl ali məktəblərin fəaliyyətini təhlil etmək faydalı olar.

Təbii ki, maddi-texniki bazası olmayan bir ali məktəbdə yüksək səviyyəli tədrisdən və təhsildən danışmaq olmaz. Amma ən "qocaman" özəl ali məktəbin yalnız 9 yaşı olduğunu nəzərə alsaq, bu ali məktəblərdən 70-80 yaşlı dövlət ali məktəblərində mövcud olan maddi-texniki bazanı tələb etməyin də hələlik real olmadığını qəbul etməliyik. Digər tərəfdən də bu ali məktəblərdən birinə doğma (dövlət ali məktəblərində mövcud maddi-texniki baza dövlət büdcəsindən ayrılan vəsait hesabına qurulmuşdur), başqalarına (özəllərə) olan ögey münasibət də maddi-texniki bazanın yaradılmasını ləngidən amillərdəndir. İrəli sürülən bu fikrin tam obyektiv olduğunu nəzərə almaqla qeyd etməliyik ki, hətta belə bir çətin şəraitdə bəzi

özəl ali məktəblər maddi-texniki baza sahəsində xeyli işlər görmüşlər.

Bu haqda Təhsil Nazirliyinin "Özəl təhsil müəssisələrinin fəaliyyətində mövcud vəziyyət və qarşıda duran vəzifələr haqqında kollegiya qərarının icrası barədə" arayışında deyilir: "Özəl təhsil müəssisələrinin maddi-texniki bazalarının möhkəmləndirilməsi işində müsbət addımlar atılmışdır. Belə ki, Naxçıvan Universiteti, Ali Pedaqoji Qızlar Seminariyası, Xəzər Universiteti artıq özəlləşdirilmiş tədris korpuslarına malikdir. Odlar yurdu, Təfəkkür, Azərbaycan, Xəzər, Qərb universitetləri və San-Marino BEA AM Azərbaycan şöbəsi maddi-texniki bazalarını xeyli möhkəmləndirmişlər.

Maddi-texniki bazanı yaratmaq və tədris prosesini müasir texnologiya ilə təmin etmək, İNTERNET sisteminə qoşulmaq, xarici dillərin müasir metodika ilə öyrənilməsi üçün linqafon kabinetlərdən və xüsusi kompüter proqramlarından istifadə edilməsi, nəşriyyat yaradılması, tədris prosesini təmin etmək üçün kitabxananın zənginləşdirilməsi sahəsində Qərb, Xəzər, Azərbaycan, Azərbaycan Beynəlxalq, Təfəkkür, Bakı Biznes, Naxçıvan Özəl universitetləri, Ali Diplomatiya Kolleci, San-Marino BEAAM Azərbaycan şöbəsi və digər özəl təhsil müəssisələrində xeyli işlər görülmüşdür".

Sadalanan bu cəhətlərə malik olan ali məktəbi maddi-texniki bazanın olmamasında günahlandırmaq obyektivsizlikdən başqa bir şey deyil.

Maddi-texniki bazanın olmaması çox vaxt tibb üzrə mütəxəssislər hazırlayan özəl ali məktəblərin ünvanına söylənir. Burada da məsələni sakitcə təhlil etmək bu fikrin doğru olmadığını göstərir. Əgər hər hansı özəl ali məktəbdə tibbi kadrların hazırlanması qanun çərçivəsindədirsə, nədən bu ali məktəblərə dövlətin səhiyyə mərkəzlərindən (poliklinikalar, xəstəxanalar, klinikalar və s.) baza kimi istifadə etməyə icazə verilməsin? Axı özəl ali məktəblər də bu ölkə üçün mütəxəssislər hazırlayır. Burada, yəni tibb məsələsində özəl ali məktəblərin baza probleminin olması (əslində belə bir problem yoxdur, çünki ali məktəblər lap pis halda Səhiyyə Nazirliyinin tabeliyində olmayan xəstəxanalarla, klinikalarla müqavilə bağlayırlar)

yenə də dövlətin özəl təhsilə ögey münasibətinin nəticəsi kimi qiymətləndirilməlidir. Digər tərəfdən, əgər özəl ali məktəblərin tibb kadrları hazırlamaq üçün bazaları yox idisə, nə üçün əvvəlcədən onlara belə kadrlar hazırlamaq səlahiyyəti verilmişdi?

Professor-müəllim heyətinin əsasən dövlət ali məktəblərindən dəvət olunması isə çox təbii haldır. Çünki, onilliklərlə Azərbaycanda yalnız dövlət ali məktəbləri mövcud olmuşdur və təbii ki, bütün mütəxəssislər də burada toplanmışdır. Lakin bu heç də o demək deyil ki, burada toplanan mütəxəssislər məhz elə dövlət ali məktəbində oturaraq cəmiyyətə xidmət etməlidirlər. Axı özəl universitetlər də bu cəmiyyət üçün kadrlar hazırlayır. Odur ki, hər hansı dövlət ali məktəbində işləyən müəllim öz istəyindən asılı olaraq özəl ali məktəbdə də işləyə bilər və bu hallar son vaxtlar özünü daha açıq büruzə verir. Özəl ali məktəblərdə müəllimin səmərəli işləməsi üçün şəraitin dövlət ali məktəbindəkindən pis olmadığını, çox zaman isə xeyli yaxşı olduğuna görə bir sıra müəllimlər iş yeri olaraq müəyyən özəl ali məktəbi seçirlər. Odur ki, özəl ali məktəblərdə maaşın yüksək olması, müəllimlərə sərbəstliyin verilməsi (tədris proqramının yerinə yetirilməsi baxımından) və s. bağlı artıq bir çox özəl ali məktəblərin öz müəllim kontingenti formalaşmışdır. Bunlar əsasən yerli müəllimlərdən və xaricdən dəvət olunmuş mütəxəssislərdən ibarət olur. Məsələn, “Xəzər”, “Qərb” universitetlərində, demək olar ki, hər semestr 6-10 xarici müəllim çalışır. Burada özəl universitetlərin bir rolunu da vurğulamaq lazımdır.

Məlumdur ki, AEA-da uzun illər tədqiqatla məşğul olmuş, hazırda isə demək olar ki, işsiz qalmış çox savadlı, öz təcrübələrini tələbələrə verməklə tədrisə böyük xeyir verə biləcək kadrlar toplaşıb. Özəl ali məktəblər belə kadrları cəlb edir, onlardan bəziləri dərs prosesində fəal iştirak edir, bəziləri isə universitetlərin nəzdində olan elmi-tədqiqat institutlarında, müxtəlif tədqiqat mərkəzlərində, elmi jurnalların nəşrində öz xidmətlərini göstərirlər. Belə kadrların potensialından özəl universitetlərin istifadə etməsi bunların özləri üçün də, universitet üçün də, ümumilikdə təhsil üçün də yalnız bəhrə verə bilər və bu cəhəti yalnız alqışlamaq lazımdır.

Tədris prosesinin səviyyəsinə gəldikdə isə qeyd etməliyik ki, qabaqcıl özəl ali məktəblərdə tədrisin səviyyəsinin aşağı olmasından danışmağın heç bir əsası yoxdur. Bu təhsil ocaqlarının bir çoxunda tədris prosesi həm forma, həm də məzmun baxımından Sovetlər Birliyinin təhsil sisteminə söykənən və bu gün də ali məktəblərimizin əksəriyyətində (dövlət və ya özəl) məcburi həyata keçirilən ənənəvi tədris prosesindən, demək olar ki, tamamilə fərqlidir.

Bir sıra özəl universitetlərdə əksəriyyət ixtisaslar üzrə dünyada məşhur, qabaqcıl universitetlərin təcrübəsi nəzərə alınaraq yeni tədris proqramları işlənib hazırlanmışdır. Yerli müəllimlərin və müxtəlif ölkələrdən dəvət olunmuş (bunların bəziləri ali məktəblərin özləri tərəfindən dəvət edilir, bəziləri isə müxtəlif qrant-müsabiqələrin qalibi kimi gəlirlər) tanınmış mütəxəssislərin işə cəlb olunması ilə bu yeniləşmiş tədris proqramları çox müvəffəqiyyətlə həyata keçirilir.

Əlbəttəб, müxtəlif insanlar arasında (o cümlədən, təhsili idarəetmə orqanlarında olan) bu halı, yəni tədris plan-proqramlarında dəyişiklik edilməsi halını bəzən çatış-mazlıq kimi qəbul edənlər də tapılır.

Bu haqda Azərbaycan Universitetinin rektoru professor Səlahəddin Xəlilov yazır: “Ölkəmizin müstəqilliyi bir siyasi akt olaraq həyata keçsə də biz hələ əsasən sovet dövründə hazırlanmış təlimatları rəhbər tuturuq. Təhsil sahəsində ciddi dəyişikliklər edilməsinə hələ ehtiyatla yanaşırıq. İş o dərəcəyə çatır ki, Təhsil Nazirliyinin ali məktəbləri yoxlayan komissiyası tədris planlarında ilbəil dəyişiklik edilməsini böyük nöqsan hesab edir. Guya sovet dövründə olduğu kimi yenə də tə-ləbə qəbul olarkən hansı tədris planı təsdiqlənibsə axıradək həmin plan üzrə oxumalıdır və bura heç bir dəyişiklik edilə bilməz.

Əlbəttə, bu həm cəmiyyətin, həm də şüurların hər il deyil, hər gün yeniləşdiyi vaxtda “beşillik toxunulmaz plan” əsasında işləmək tələbi keçmiş qayda-qanunların bizim təhsil məmurlarının beynində çox dərin iz saldığından və onu silməyin asan olmayacağından xəbər verir” (75).

Ümumiyyətlə, keçmiş Sovetlər Birliyinin tərkibindən ayrılaraq müstəqilləşmiş

ölkələrin əksəriyyətində, o cümlədən Azərbaycanda da “Sovet irsi bir sıra köklü dəyişikliklərin yolunda psixoloji maneədir” və “hələ də bir çox təhsil islahatçılarının beynində keçmiş nümunələr ilişib qalıbdır”(86,s.136).

Ümumiyyətlə, tədrisin səviyyəsi, tədrisin necə həyata keçirilməsilə yanaşı tələbənin biliyinin necə qiymətləndirilməsi prosesindən də çox asılıdır. Bu baxımdan məsələn, Xəzər Universitetində tətbiq olunan və kredit sisteminə söykənən qiymətləndirmə sistemi dövlət ali məktəblərində tətbiq olunan qiymətləndirmə sisteminə nisbətən tələbənin biliyini daha ciddi və obyektiv qiymətləndirməyə imkan verir və tələbələr çox ciddi surətdə seçmə prosesi keçərək məzunluğa gəlib çıxırlar. Təsadüfi deyil ki, qabaqcıl özəl ali məktəblərin tələbələrinin böyük hissəsi hələ oxuduğu müddətdə yüksək maaşlı işlərdə çalışır və çox hallarda onlar ailələrinin əsas qazanc gətirənləridir. Bütün bunlar bu ali məktəblərdə tədris prosesinin aşağı səviyyədə olmasını deyil, əksinə çox yüksək səviyyədə qurulmasını sübut edir.

Özəl ali məktəblərin sayının çox olması fikrini də təhlil etməyə ehtiyac duyulur.

Bu gün Azərbaycanda 15 özəl, 26 dövlət ali məktəbi var. Əgər 8 milyona yaxın əhalisi olan bir ölkədə 15 rəqəmi böyük hesab olunursa, 26 rəqəmi daha böyük rəqəm kimi narahatlıq doğurmalıdır. İqtisadi durumu çox da yüksək olmayan ölkəmizdə təhsilə büdcədən kifayət qədər vəsait ayrıla bilmir. Belə bir şəraitdə özəl ali məktəblərin dövlətə xüsusi köməyi dəyir. Belə ki, özəl ali məktəblər geniş qeyri-büdcə vəsaitlərini cəlb edir və bu da dövlətə özəl bölmə vasitəsilə büdcə xərclərini tənzimləməyə imkan verir və beləliklə, dövlətin təhsillə bağlı büdcə çətinlikləri yüngülləşir.

Əgər nəzərə alsaq ki, əksəriyyət ölkələrdə dövlət öz büdcəsindən özəl təhsilə də vəsait ayırır, onda özəl təhsilin bugünkü formada varlığının Azərbaycan üçün nə qədər sərfəli olduğunu görərik. Belə olan halda dövlət özəl universitetlərin fəaliyyətini təqdir etməlidir.

Gəlin bir anlığa belə bir halı təsəvvür edək ki, ölkəmizdə dövlət ali məktəbləri yoxdur. Fəaliyyət göstərən bütün ali məktəblər özəldir və bunlar dövlətdən heç bir

vəsait almırlar. Beləliklə, dövlət büdcədən heç bir vəsait vermədən vətəndaşlarının bütün təhsil məsələlərini həll edir. Əlbəttə, bu məsələyə burada yazılan qədər sadə yanaşmaq olmaz. Lakin bu fikir özəl təhsilin rolunu düzgün qiymətləndirmək üçün bir istiqamətverici fikir kimi söylənilir. Öz uşaqlarını özəl ali məktəblərdə oxudan əksəriyyət ailələrin vəziyyətini gözümüz önünə gətirsək, bunun zəif cəhətləri də əlbəttə açıq görünür.

O ki qaldı özəl universitetlərin sayının tənzimlənməsinə, burada əsas məsələ zorla deyil, qanunla həll olunmalıdır. Təbii ki, özəl ali məktəbin yaranma, ləğv olunma, dövlətdən yardım alma və bu yardımın dayandırılma mexanizmi yoxdursa, tənzimləmə prosesi çox çətin olacaq.

Ona görə də bu gün özəl universitetlərin sayını necə azaltmaq haqqında deyil, yuxarıda göstərilən mexanizmin hazırlanması haqqında düşünmək lazımdır. Belə olan halda yeni, zəif özəl ali məktəblər yaranmayacaq və mövcud zəiflər isə təbii yolla aradan çıxarılar. Güclü özəl universitetlərin mövcudluğu isə müxtəlif fikirlərə baxmayaraq, dövlətin yalnız xeyrinədir və dövlət tərəfindən dəstəklənməlidir. Sivil dövlət "statusu" almaq istəyən hər bir dövlət bu yolla getməlidir.

Ümumiyyətlə, özəl universitetlərin sayının azaldılması məsələsinin qarşıya qoyulması özü düzgün deyil. Bu proses yalnız təbii yolla həyata keçməlidir.

Əgər ali məktəblərin ümumi sayının azaldılmasından söhbət gedirsə, bu zaman yalnız özəl universitetlər deyil, dövlət ali məktəbləri də təhlil olunmalıdır. "...hamı bir ağızdan deyir ki, bizə bu qədər ali məktəb lazım deyil. Bu fikri söyləyənlər əsasən özəl ali məktəblərin çoxluğuna işarə edirlər. Amma bizə elə gəlir ki, dövlət ilk növbədə özünə məxsus olan ali məktəblərin sayını azaltmalıdır"(71).

Dövlət ali məktəblərinin sayının tənzimlənməsi, idarəetmədə forma dəyişikliyi təcrübəsinə hələ Sovet təhsil sistemində də rast gəlinirdi. Məsələn, 1987-ci ildə SSRİ Təhsil Nazirinin 30.10.87-ci il tarixli 767 saylı əmrilə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun fəaliyyəti institut kimi dayandırıldı və onun əvəzində Leninqrad Maliyyə-İqtisad İnstitutunun filialı yaradıldı (81). O zaman bu addım institutun

fəaliyyətinin səmərələşdirilməsi baxımından atılmış addım kimi qiymətləndirildi. Məsələ o vaxt bu addımın düzgün olub-olmamağında deyil, sadəcə dövlət ali məktəblərinin tənzimlənməsi məsələsinin diqqət mərkəzində olmasındadır.

Özəl ali məktəblərin qazanc əldə etmək məsələsinə gəldikdə isə qeyd etmək lazımdır ki, ümumiyyətlə qazanc əldə etmək üçün hər hansı bir düzgün işin qurulması heç də qəbahət və ya cinayət sayılmamalıdır. Lakin konkret olaraq özəl təhsil ocaqlarından danışsaq qeyd etməliyik ki, yuxarıda göstərildiyi kimi, özəl təhsil müəssisələri əsasən, normal və xüsusi hallarda yüksək səviyyəli müəllim kontingenti yığa bilmişdirsə, yüksək səviyyəli tədris prosesi həyata keçirirsə, normal maddi-texniki baza yarada bilmişdirsə, yüksək səviyyəli mütəxəssis hazırlanması yolunda dəvlət ali məktəblərindən nəinki geri qalmırsa, xüsusi halda bu işi daha yüksək səviyyədə yerinə yetirirsə, hətta ən zəif özəl ali məktəb belə ən yaxşı dövlət ali məktəbinə nisbətən daha geniş və faydalı beynəlxalq əlaqələr qura bilmişsə, demək olar ki, bütün özəl ali məktəblər qaçqın, köçkün, şəhid ailələrindən olan övladlarımıza güzəştli və çox hallarda pulsuz ali təhsil verirsə, bu ali məktəbləri şəxsi qazanc əldə etmək məqsədilə yaranmaqda günahlandırmaq hansı məntiqə uyğun gəlir?! Əlbəttə, özəl universitetlərdən danışanda mütləq onları da bir-birindən fərqləndirmək lazımdır. İstər yaxşı mənada, istərsə də pis mənada bütün mövcud özəl ali məktəblər haqqında (elə dövlət ali məktəbləri haqqında da) ümumi fikir söyləməklə heç vaxt bu sahədə mövcud vəziyyəti tam obyektiv şərh etmək olmaz. Belə məsələlərdə ümumiləşdirmə ən pis metoddur.

“Müstəqillikdən sonra Azərbaycanda sürətlə yayılan özəl ali təhsil müəssisələrinin də böyük bir qismi, təəssüf ki, pul qarşılığında “diplom üyüdən dəyirman” vəziyyətinə gəlmişdir. Ancaq bunlarla yanaşı bir çox böyük universitetlərdən görkəmli elm adamlarını özünə cəlb edən və çox məhsuldar akademik proqramlar yaratmağa müyəssər olan bir sıra özəl universitetlər də mövcuddur. Onların başçıları isə yüksək ideyalara bağlı olan və ölkənin parlaq gələcəyinə inanan insanlardır”(101). Məncə, amerikalı tədqiqatçının bu fikri Azərbaycanda özəl bölməyə obyektiv bir

baxışdır.

Özəl universitetlərin bir çoxu (“Xəzər”, “Qərb”, “Qafqaz”, “Azərbaycan”, “Odlar yurdu”, “Təfəkkür”) geniş beynəlxalq əlaqələr yaratmışlar. Bu beynəlxalq əlaqələrin nəticəsi olaraq, göstərilən ali məktəblərdən yüzlərlə tələbələr ABŞ, İngiltərə, Fransa, Hollandiya, Türkiyə, İtaliya, Avstraliya və s. kimi xarici ölkələrin ən qabaqcıl ali məktəblərində təhsil almış və ya təhsillərini davam etdirməkdədirlər. Bu tələbələr müəyyən müddətdən sonra Azərbaycana dönür və müxtəlif sahələrdə çalışaraq ölkəmizin dünyaya qovuşması prosesinə öz müsbət təsirlərini göstərirlər. Bu sadə misal özəl universitetlərin qazanc məqsədilə yox, məhz onların Azərbaycan üçün dünya standartları səviyyəsinə cavab verə bilən (burada ingilis dilinin rolu xüsusi vurğulanmalıdır) mütəxəssislər hazırlanmasında rolunu vurğulayan cəhətlərdən yalnız biridir.

Özəl universitetlərin əksəriyyətində nəşriyyat və mətbəə fəaliyyət göstərir. Burada universitetin dərs prosesində lazım olan materiallar, dərsliklərlə bərabər tanınmış şair və yazıçıların, elm adamlarının əsərləri işıq üzü görür. Əksəriyyət hallarda bunlar müəlliflərə yardım xarakteri daşıyır. Bir sıra universitetlərdə qəzet və elmi jurnallar nəşr olunur. Bir elmi jurnala isə nə qədər əmək və vəsait sərf olunduğunu söyləməyə ehtiyac yoxdur. Məsələn, Xəzər Universitetində “Xəzər Riyaziyyat jurnalı”, “Azərbaycanşünaslıq” jurnalı, “Azərbaycan arxeologiyası” jurnalı, Qərb Universitetində “Təkamül” jurnalı, Azərbaycan Universitetində “İpək yolu” jurnalının çap olunması və s. onu göstərir ki, qabaqcıl özəl universitetlər yalnız kadr hazırlanması yolu ilə deyil, müxtəlif sahələrdə tədqiqata təkan verməklə də cəmiyyətə öz xidmətini göstərir. Bu mənada göstərilən universitetlər artıq ciddi tədqiqatla məşğul olan araşdırma yönümlü universitet olmaq istəklərini aydın təzahür etdirirlər. Aydındır ki, ciddi elmi tədqiqatla məşğul olmayan bir universitet yüksək zirvələr fəth edə bilməz. Bu baxımdan bizim qabaqcıl özəl universitetlərimizin tutduğu tədqiqat yönümlü yol təqdirəlayiqdir. Bu tədqiqatların bir qolunu - qabaqcıl xarici təcrübəni öyrənmək, Azərbaycan özəl təhsil sistemində onu tətbiq etməkdir.

Özəl universitetlər indiyə qədər 100-dən çox konfrans, simpozium və görüşlərin təşkilatçısı olmuşlar.

Belə geniş miqyaslı, bir çox hallarda beynəlxalq tədbirlərin keçirilməsinin nə qədər böyük vəsait hesabına başa gəldiyi yəqin ki, heç kimdə şübhə doğurmur. Bütün bunlar ümumilikdə ölkəmizdə elmin, mədəniyyətin inkişafına xidmət edir və bu yolda özəl ali məktəblər dövlət ali məktəblərinə nisbətən xeyli fəal iştirak edirlər.

Bu sadalanan işlər özəl universitetlərin gördüyü işlərin yalnız kiçicik bir hissəsidir. Odur ki, elmin, mədəniyyətin, bütövlükdə müxtəlif sahələrdə cəmiyyətin inkişafına öz töhfəsini verən və bu yolda böyük vəsait qoyan özəl universitetləri qazanc məqsədilə yaranmaqda günahlandırmaq haqsızlıq olardı. Bu heç də o demək deyil ki, özəl ali məktəblərin təsisçiləri təmənnasız fəaliyyət göstərirlər. Onlar öz bilik və bacarığını, elmi-pedaqoji və praktiki təcrübəsini kadr hazırlığına həsr etməklə, şübhəsiz, özləri üçün bir iş yeri açmışlar. Burada maraq elementi vardır və qeyri-təbii bir şey yoxdur.

Bütün bunları nəzərə alaraq, özəl universitetlərə normal münasibət bəslənməsi, onların daima yaxşı mənada nəzarətdə saxlanması Azərbaycan təhsilinin yalnız xeyrinədir və daima dövlətin diqqət və qayğısı ilə əhatə olunmalıdır.

Ölkədə iqtisadi vəziyyətin qaneedici olmadığı bir vaxtda özəl ali məktəblər texniki və çoxsaylı elmi-pedaqoji işçilərin fəaliyyət yeri olmuşdur. Belə ki, mövcud özəl ali məktəblərdə 3000-dən çox işçi çalışır və bu artıq 3000 ailənin özünü təmin etməsi deməkdir. Bu ölkədə sosial sabitlik üçün qiymətli töhfədir və buna görə də özəl sektorun dövlət tərəfindən dəstəklənməsinin və rəğbətləndirilməsinin mühüm siyasi və mənəvi-psixoloji əhəmiyyəti vardır.

Burada bir məsələyə də toxunmaq istərdik. Özəl ali məktəblərə ögey münasibətin bəslənməsində bir sıra dövlət orqanları, dövlət məmurları ilə yanaşı özəl ali məktəb rəhbərlərinin də xeyli günahı vardır. Əsas məsələlərdən biri əhalidə, gənc nəsildə özəl ali məktəblər haqqında, onların dövlət ali məktəblərdən geri qalmazlığı, əksinə müəyyən məsələlərdə xeyli irəlidə olmaları, ən vacibi isə özəl ali məktəbin

dövlət ali məktəblərinə nisbətən böyük və geniş perspektivləri olması haqqında məlumatların olmamasıdır. Üstəlik müəyyən dövlət məmurunun kütləvi informasiya vasitələrində özəl ali təhsilin ünvanına bir-iki qeyri-obyektiv işarəsi bu sahədə olan ögeyliyi müəyyən mənada “qanuniləşdirir”. Özəl ali məktəblərin məzunlarının dövlət orqanlarında (hüquq mühafizə orqanları, səhiyyə və s.) işə qəbul olmayacaqları haqda bəzən rəsmi, bəzən də qeyri-rəsmi olaraq fikirlər söylənilir və bunlar əhali arasında özəl ali məktəblərin reytinqinin xeyli aşağı düşməsinə səbəb olur. Odur ki, özəl ali məktəb rəhbərləri, sahibləri bu məsələni daim diqqət mərkəzində saxlamalı və buna qarşı mübarizə etməlidirlər. Belə hesab edirik ki, özəl ali məktəblərin ziyanına olan kifayət qədər informasiya bolluğuna qarşı əks mənalı informasiya bolluğu yaratmaq, onlar haqqında geniş müsbət rəy formalaşdırmaq lazımdır. Azərbaycanda özəl ali təhsilin artıq 10-12 yaşı olmasına baxmayaraq hələ də bu məsələ əsas problem kimi qalır, əhali arasında hələ də çoxları özəl ali təhsilə ikinci dərəcəli baxırlar.

Özəl ali təhsili geniş mənada təbliğ edən informasiya bolluğunun yaradılmaması günahı məhz özəl ali məktəb rəhbərlərinin üzərindədir. Bunun üçün özəl ali məktəb rəhbərləri, həmin ali məktəbin idarəçiləri dövri mətbuatda, radio və televiziyada daima çıxışlar etməli, özəl ali məktəbə qarşı söylənilən fikirlərin elmi cəhətdən əsassızlığını göstərməli, özəl ali təhsilin əhali arasında reytinqini yüksəltməlidirlər. Bu məqsədlə yaxşı olardı ki, özəl ali məktəblərin rektorlarının daimi fəaliyyət göstərən şurası yaradılsın və teleefirdə vaxtaşırı çıxışlar etsin. Əgər bu missiyanı ali məktəb rəhbərləri etməsə, heç bir dövlət məmuru onların əvəzinə bunu etməyəcək. Yalnız özəl təhsili inkişaf etdirmək və əhalini bu nailiyyətlər haqqında həmişə məlumatlandırmaq yolu ilə özəl təhsilə doğma münasibət aşılamaq və dövlət orqanları və məmurlarının özəl təhsilə qarşı münasibətinin nəinki dəyişməsinə, hətta onların bu prosesə kömək etmələrinə nail olmaq mümkündür.

Bəs dövlət özəl təhsilə necə kömək edə bilər?!

Devid Breneman və b.(85), Robert Berdahe (105), Con Minter və Hovard Bouen (108) dövlətlə özəl təhsil arasında münasibətdən söhbət açır, özəl təhsilin inkişafında

dövlət siyasətinin rolunu vurğulayır, dövlətin özəl təhsilə kömək vasitələrini araşdırırlar.

Antonio İsidro və Maksimo Ramos (83), Filippində özəl ali məktəblərin sürətlə inkişaf etdiyini və hər vaxt dövlət tərəfindən özəl təhsilə diqqətin artdığını və bunun Filippində özəl təhsilin inkişafına güclü təkan verdiyini qeyd edir.

"Ümumiyyətlə, dövlət özəl ali məktəblərə müxtəlif şəkildə kömək edə bilər. Bir sıra ölkələrdə (Çili, Braziliya, Cənubi Koreya...) özəl universitetlər təhsilin keyfiyyətini yüksəltmək və səmərəliliyini artırmaq məqsədilə dövlətdən maddi kömək almaq üçün müsabiqədə iştirak edirlər. Braziliya və Meksikada özəl məktəblərə onların vergidən azad olunması, ABŞ, Yaponiya, Çin və Hindistan kimi ölkələrdə birbaşa maliyyələşdirmə (ABŞ-da özəl universitet büdcəsinin ən azı 25 faizini dövlət ödəyir). İran, Keniya və Uqandada torpaq sahələri verilməklə və ya tikinti ilə kömək göstərilir"" (40).

Təbii ki, bu yolların hər birini Azərbaycanda da tətbiq etmək olar. Lakin, bu gün özəl ali məktəblərdə təhsilin keyfiyyətinin yüksəldilməsi hər an diqqət mərkəzində olduğu bir zamanda, məhz yuxarıda qeyd olunan müsabiqə metoduna üstünlük verilməsi daha məqsədəuyğundur. Bunan aşağıdakı müsbət cəhətləri var.

1. Dövlət özünün seçdiyi, ali təhsilin inkişafında müsbət roluna şübhəsi qalmadığı bir ali məktəbə kömək edir.

2. Bundan sonra heç kim dövləti özəl ali məktəblərə ögey münasibətdə qınaya bilməz.

3. Bu hal özəl ali məktəblərdə təhsilin keyfiyyətinin yüksəldilməsinin dövlət əhəmiyyətli məsələ olduğunu vurğulamaqla, ictimaiyyətdə özəl ali təhsilin nüfuzunun qalxmağına kömək edər.

4. Dövlət ayırdığı yardımın hara və necə istifadə olunmasına nəzarət edir və beləliklə həmin yardımın doğrudan da ali təhsilin inkişafına, təhsildə keyfiyyətin və səmərəliliyin artırılmasına sərf olunduğuna əmin olur.

5. Ən əsası isə, bu hal özəl ali məktəblər arasında yarış və rəqabətin

güclənməsinə səbəb olacaq ki, bu da ,əlbəttə, təhsilin keyfiyyətinin yüksəlməsinə gətirib çıxaracaq.

Lakin bu gün yuxarıda sadaladığımız kömək yollarının heç birinin olmadığı reallığında Azərbaycanda özəl universitetlərə ən yaxşı kömək onlara tələbə qəbulunda sərbəstlik verilməsidir. Tələbəyə nəzərdə tutulan tədris proqramları üzrə yüksək bilik vermək üçün qəbul vaxtı tələbələrin seçilmə prinsipi çox vacibdir. Onu da qeyd etmək lazımdır ki, özləri qəbul apardığı vaxt özəl universitetlər heç də tələbə kontingentinin sayca çoxaldılmasını qarşıya əsas məqsəd kimi qoymurlar. Praktika göstərir ki, universitetlərin özləri qəbul apardığı vaxt seçilən tələbələr TQDK tərəfindən qəbul olan tələbələrdən səviyyəcə xeyli yüksək olurlar. “Azərbaycan”, “Təfəkkür”, “Qərb”, “Asiya”, “Qafqaz”, “Xəzər” universitetlərindən alınan məlumata görə TQDK tərəfindən göndərilən tələbələrin 70-75%-i uyğun tədris proqramlarını mənimsəmə səviyyəsindən xeyli aşağı olur və bu fakt tədris prosesində ciddi çətinliklər törədir. Odur ki, həmin tələbələr bir sıra hallarda hazırlıq kursunun tələbələrilə birlikdə oxumalı olurlar və bu da öz növbəsində yeni çətinliklərin yaranmasına gətirib çıxarır. Qeyd edək ki, Dünya Bankının bir araşdırmasında tələbə qəbulu prosesində özəl universitetlərə sərbəstlik verilməsi dövlətin özəl universitetlərə göstərə biləcəyi 2 kömək yolundan biri kimi qiymətləndirilir: “Dövlət özəl universitetlərə 2 yolla kömək edə bilər. Birincisi, tələbə qəbulunda və tədris plan-proqramlarında tam sərbəstliyin təmin edilməsi. Digər tərəfdən isə dövlət özəl ali məktəbdə oxuyan tələbələrə maddi kömək və borc verə bilər” (89).

Yuxarıda apardığımız müqayisələr, təhlillər, çıxardığımız əqli nəticələr göstərir ki, Azərbaycanda özəl ali təhsilin 10-12 illik təşəkkül dövründə müəyyən nailiyyətlər qazanmasına baxmayaraq onun olduqca ciddi həll olunmamış problemləri vardır. Bu problemlərin həlli özəl ali məktəblərin yalnız bu günkü fəaliyyətində müəyyən irəliləyişlərə nail olmaq üçün deyil, özəl ali təhsilin gələcək inkişaf yollarının müəyyənləşdirilməsində, ümumiyyətlə, özəl ali təhsilin cəmiyyətdə öz yerinin möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Dünya özəl təhsil təcrübəsinin

məhək daşlarından biri olan tələbə qəbulunda sərbəstliyin Azərbaycan özəl təhsil praktikasında tətbiq edilməməsi taleyüklü problem olaraq qalır. Ümumiyyətlə özəl ali məktəblərə tələbə qəbulunun hər hansı dövlət orqanı tərəfindən aparılması onların özəl hüquqlarının tam pozulması kimi qiymətləndirilməlidir. Əgər nəzərə alsaq ki, həmin dövlət orqanları özəl ali təhsilin inkişafında o qədər də maraqlı deyillər, onda bu məsələnin nə qədər ciddi məsələ olduğu heç kimdə şübhə doğurmamalıdır. Odur ki, Azərbaycanda fəaliyyət göstərən özəl ali məktəblər qanunun gücündən istifadə edərək onların yaşamasının və fəaliyyətinin qarantı ola biləcək bu səlahiyyəti özlərinə qaytarmalıdılar.

## 1.3. Özəl ali məktəblərin maliyyə və idarəolunma məsələləri

Özəl təhsil ilə dövlət təhsili arasında müqayisələri apararkən onların maliyyə və idarəolunma məsələləri kənarda qala bilməz, çünki bu iki sistem arasında fərqlərin bütünlüklə müəyyənləşdirilməsi üçün belə müqayisə vacibdir. Həm də nəzərə almaq lazımdır ki, hər hansı bir tədqiqat işi tənqidi və sərbəst təfəkkürə söykənəndə onun səviyyəsi yüksək olur. Rocer Ceycer (87; 88) bu müqayisədən bəhs edərək dövlət və özəl təhsil arasında 3 tip bölgü göstərir: kütləvi özəl və məhdud dövlət təhsili, paralel dövlət və özəl təhsili, kütləvi dövlət və məhdud özəl təhsil.

Birinci növ bölgüdə tarixi və iqtisadi səbəblərdən özəl təhsil dövlət təhsilindən tez yaranıb və inkişaf etməyə başlayıb. Ağıllı siyasət yeridən dövlət isə artıq inkişaf etməkdə olan özəl təhsilin inkişafına nəinki mane olmamış, əksinə belə təhsil müəssisələrinin inkişafını maliyyələşdirməyi öz öhdəsinə götürüb. Axı artıq öz inkişaf ənənəsinə malik olan, özəl təhsilin inkişafının qarşısının alınması müəyyən mənada ölkənin mədəni inkişafını ləngitməyə cəhd etmək olardı. Odur ki, dövlət nəinki buna mane olmur, hətta müəyyən andan başlayaraq özəl təhsilin inkişafına kömək etməyi qərara alır və onu maliyyələşdirir. Belə təhsil müəssisələrinə geniş sərbəstlik verilir və beləliklə də ölkədə təhsilə olan tələbat əsasən özəl təhsil müəs-

sisələrinin hesabına ödənilir.Belə bölgü növünə misal olaraq Yaponiyanın ali təhsil təcrübəsini göstərmək olar.

İkinci növ bölgüdə, yəni paralel dövlət və özəl təhsilində dövlət özünəməxsus təhsil müəssisələrinə qoyduğu sərmayəni özəl təhsilə də qoyur və bu zaman dövlətin hər iki tip təhsilin paralel inkişafında eyni dərəcədə marağı olur. Buna ABŞ-ın təcrübəsi əyani misaldır.

Geniş dövlət və məhdud özəl təhsil bölgülərdən söhbət açarkən qeyd etməliyik ki, bu zaman ali təhsilə olan tələbat əsas etibarilə dövlət təhsil ocaqlarının hesabına ödənilir və ölkənin təhsil siyasəti əsasən dövlətə məxsus təhsil müəssisələrinə üstünlük verir; lakin bu yolla təhsil problemləri tam həll etmək müəyyən çətinliklər törədir və bir sıra səbəblərdən o cümlədən, maliyyə məsələlərilə bağlı dövlət müəssisələrində müəyyən böhran yaranır və bu böhrandan çıxış yolunu asanlaşdırmaq məqsədilə özəl bölmənin yaranması zərurəti meydana çıxır və bu bölmə inkişaf edib genişlənir. Azərbaycanda özəl təhsil bölməsinin yaranması prosesinə nəzər salsaq görərik ki, bu proses məhz yuxarıda deyilənlərlə izah olunur və beləliklə Azərbaycanın təcrübəsi geniş dövlət və məhdud özəl təhsil bölgüyə gözəl misaldır.

Aydındır ki, istənilən iki növ varlığın hər biri (bizim halda təhsildə özəl və dövlət sektoru), qarşılıqlı müqayisədə daha yaxşı dərk olunur. Odur ki, hansı ölkədə hansı növə, yəni özəl, yoxsa dövlət təhsilinə üstünlük verilməsinə baxmayaraq, təhsilin inkişafı məhz bu iki sektorun obyektiv müqayisəsindən və bu müqayisənin təsirindən təkan götürür. Ceyms Estella (96) özəl və dövlət ali təhsilindən bəhs edərək göstərir ki, dövlət və özəl sektorların müqayisəsi və bu mövzuda doğan mübahisələr son məqamda işin səmərəliliyə doğru inkişafına yalnız müsbət təsir göstərir.

Məlumdur ki, özəl-dövlət müzakirəsi hər iki sektorun mövcud olduğu yerdə başlayır. Bu baxımdan Azərbaycan artıq hər iki sektorun var olduğu bir məkandır və təhsilimizin gələcək inkişafını düzgün istiqamətləndirmək, bu yolda cəmiyyət tərəfindən hər iki sektora düzgün qiymət verilməsini təmin etmək üçün belə bir təhlilə xüsusi ehtiyac duyulur.

Dövlət-özəl münasibətlərini təhlil edərkən terminlərin yerli-yerində işlənilməsinə diqqət vermək lazımdır. Diqqətsizlik ucbatından müqayisə zamanı müəyyən qarışıqlığa yol verilə bilər və bu bizi məqsədimizin əsas yolundan çıxara bilər. Məsələ burasındadır ki, dövlət və dövlət sektoru anlayışları müxtəlif şeylərdir, bunları qarışdırmaq lazım deyil. Dövlət- dövlət sektoru, dövlət - özəl sektor, dövlət sektoru- özəl sektor münasibətlərinin hər biri ayrıca tədqiqatların mövzularıdır.

Bizim məqsədimiz isə, konkret olaraq, ali təhsildə dövlət sektoru ilə özəl sektoru müqayisəli araşdırmaqdır.

Ümumiyyətlə dünya təcrübəsində ali təhsildə dövlət və özəl bölmənin müqayisəli öyrənilməsi bir sıra tədqiqatçıların yazılarında öz əksini tapmışdır. Rocer Ceycer (87; 88), Rey Maqki (102), xüsusən də Levi Daniel (98; 99) öz tədqiqatlarında bu məsələləri geniş təhlil etmişdir. Tədqiqatçının fikrincə özəl və ya dövlət adlanan müəssisələr (bu ali təhsildə də belədir) fəaliyyətlərinə görə heç də həmişə "özəl" və ya "dövlət" olmurlar. Belə ki, özəl təhsil müəssisələri dövlət tərəfindən yardım ala bilər, dövlət təhsil müəssisələri isə müəyyən biznes yardımı ala bilərlər. Əlbəttə, Levi Danielin bu fikri ilə razılaşmamaq olmaz. Odur ki, bu mənada özəl təhsil müəssisələri müəyyən qədər "dövlətinkiləşir", dövlət təhsil müəssisələri isə müəyyən qədər "özəl" sahəyə nüfuz edir. Ona görə də dövlət və özəl sektor arasında dəqiq bir təcrübəyə əsaslanan fəaliyyət ardıcıllığı yoxdur və bu ikimənalılıq həmişə dövlət və özəl sektorun müqayisəli öyrənilməsində problem kimi meydana çıxır. Ümumiyyətlə, həmişə dövlətin özəl təşkilatlara, özəl təşkilatların isə dövlət aparatına nüfuz etməsi müşahidə olunur. Ona görə də bu münasibəti qarşılıqlı araşdırmaqla yanaşı, onları konkret kriteriyalar üzrə qarşı-qarşıya qoymaq lazımdır.

Uzunmüddətli araşdırmanın nəticəsi olaraq Levi Daniel belə qərara gəlir ki, bu iki bölməni müqayisə edərkən 3 əsas kriteriyaya diqqət vermək lazımdır. Daha doğrusu bu cür müqayisə məhz 3 kriteriya üzərində cəmləşməlidir: maliyyə, idarəetmə, funksiya. Fikrimizcə bu 3 kriteriya ali təhsil müəssisənin "özəlliyi" və ya "dövlətliliyini" xarakterizə edən əsas amillərdir.

Burada biz göstərilən bu amillərə görə Azərbaycanda dövlət və özəl ali təhsil müəssisələrinin fəaliyyətini təhlil etməyə və beləliklə də, onlar arasında oxşar və fərqli cəhətləri göstərməyə çalışacağıq.

Azərbaycanda aлali təhsilin başlanğıcı əsrin əvvəlinə gedir. 1919-cu ildə ilk universitetin yaradılması ölkənin həyatında irəliyə atılmış nəhəng bir addım idi. Həmin vaxt Parlamentdə universitetin yaradılması ilə bağlı müzakirələr keçirilərkən söylənilən aşağıdakı fikir Azərbaycan üçün ilk ali məktəbin böyük rolunu vurğulayır.

"Azərbaycan parlamentində universitetin yaradılması haqqında qanunun qəbul edilməsi uzunömürlü tarixi əhəmiyyətə malikdir" (77). Təxminən 1917-ci ildən sonra Azərbaycanda xalqın savadlanması yolunda xeyli planlı işlər görülmüşdür və bunun kulminasiyası olaraq məhz ali məktəblər yaradılmağa başlamışdır. Bu prosesin necə başlanması, onun gedişində meydana çıxan maneə və böyük çətinliklər barədə və bunlara baxmayaraq təhsilin inkişafında, o cümlədən ali təhsilin inkişafında görülən işlər barədə T.A.Musayeva (80) öz əsərində geniş söhbət açmış və təhlil vermişdir. Obyektiv səbəblərə görə bütün bu fikirlərin kommunist ruhu altında aparılmasına baxmayaraq, bu əsər Azərbaycanda təhsilin, eləcə də ali təhsilin inkişaf yolunu dəqiq statistika ilə əks etdirən bir əsərdir.

Ali məktəbin yaradılması prosesində onun məqsəd və funksiyalarının müəyyən-ləşdirilməsi, strukturu, idarə olunması və iş üslubunun aydınlaşdırılması əsas məsələ-lərdir.

1991-ci ildə Azərbaycan müstəqil dövlət çevrildikdən sonra təhsilin inkişafı, o cümlədən ali təhsilin inkişafı özünün yeni mərhələsinə qədəm qoydu. Belə ki, ölkədə mövcud olan və dövlət tərəfindən maliyyələşdirilən dövlət ali məktəblərilə yanaşı, özəl təhsil müəssisələri yaradılmağa başladı.

Bu gün Azərbaycanda 15 özəl və 26 dövlət ali məktəbləri mövcuddur.

İndi bu iki sektorun fəaliyyətini yuxarıda göstərilən 3 kriteriya üzrə təhlil etməyə çalışaq.

Ali təhsilin hansı maliyyə hesabına genişlənib inkişaf etməsi məsələsi bir sıra

tədqiqatçıların əsərlərində araşdırılmışdır. Vilyam Bouen (109), Riçard Akst (104) öz araşdırmalarında bu məsələyə geniş yer ayırmış və göstərmişlər ki, dövlət ali məktəblərilə yanaşı özəl ali məktəblərin də dövlət tərəfindən maliyyələşdirilməsi və ya maliyyə məsələsində dövlət tərəfindən kömək göstərilməsi ölkədə ali təhsilin inkişafı üçün əsas şərtlərdəndir. Vilyam Bouen (109) göstərir ki, bu yolda özəl ali məktəblər dövlətdən görmək istədikləri konkret işlərə maliyyə ayrılmasını xahiş edə bilərlər. Dövlət isə belə xahişlərə kifayət qədər diqqətlə yanaşmalıdır. Məlum olduğu kimi, Azərbaycanda dövlət ali məktəbləri dövlət büdcəsindən maliyyələşdirilir. Maliyyələşdirmə maaşların verilməsi, lazımi avadanlıqların alınması ilə yanaşı, ali məktəbin inkişafına da ayrılır. Büdcə vəsaitindən başqa dövlət ali məktəbləri aşağıdakı mənblərdən də maliyyələşdirilə bilər:

- təhsil müəssisəsinin tədris, elm, istehsal və digər xidmətlər müqabilində əldə etdiyi gəlir;

- hüquqi və fiziki şəxslərin müqavilə əsasında mütəxəssisin hazırlığı, ixtisasartırma və kadrların yenidən hazırlanması üçün ayırdıqları vəsait;

- hüquqi şəxslərin könüllü ayırmaları, fiziki şəxslərin yardımı; [16; maddə 55].

Lakin sadalanan bütün bu mənbələr formal xarakter daşıyır və əsas maliyyə mənbəyi olaraq dövlət büdcəsi qalır və beləliklə dövlət ali məktəbləri dövlət hesabına yaşayır, genişlənir, inkişaf edir.

1994-cü ildən etibarən respublikanın dövlət ali məktəblərinə ödənişsiz əsaslarla bərabər ödənişli əsaslarla da tələbə qəbulu aparılır. Bu fakt dövlət təhsil təsisatlarının özəl ali məktəblərə təzyiqinin güclənməsinə səbəb olmuşdur.

Son tədris illərində dövlət ali məktəblərinə ayrılan plan yerinin yarısından çoxu ödənişli əsaslarla olmuşdur və bu yolla dövlət ali məktəbləri mövcud maliyyə mənbələrindən başqa, yeni bir maliyyə mənbəyi əldə etmişdir. Bu ödənişli əsaslarla dövlət ali məktəblərində oxuyan tələbələrin ödədikləri təhsil haqqıdır. Beləliklə, dövlət ali məktəbləri dövlət büdcəsi ilə yanaşı tələbələrin ödədikləri təhsil haqları hesabına yaşayır. Daha doğrusu, dövlət ali məktəbləri dövlət büdcəsindən

maliyyələşmənin çətinləşdiyi bir dövrdə tələbələrdən alınan vəsait hesabına öz varlığını saxlayır.

“Özəl ali məktəblərin maliyyələşdirmə mənbələri büdcə vəsaitləri istisna olmaqla dövlət təhsil müəssisəsinin maliyyələşdirmə mənbələrilə eynidir” [16; maddə 55].

Kəsinliklə qeyd etmək olar ki, bu gün özəl ali məktəblərin əsas maliyyə mənbəyi tələbələrin ödədiyi təhsil haqqıdır. Doğrudur bəzi özəl ali məktəblər müxtəlif beynəlxalq müsabiqlərdə iştirak etməklə qrantlar alır (Xəzər Universiteti, Qərb Universiteti, Təfəkkür Universiteti, Amerika Universiteti, Odlar yurdu Universiteti və s.) və alınan vəsaiti universitetin maddi-texniki bazasının və beynəlxalq əlaqələrinin gücləndirilməsinə xərcləyir. Lakin sözsüz ki, bu vəsaitlər ali məktəbin yalnız çox kiçik konkret tələblərini ödəyir. Ona görə də bu mənbəyə universitetin “qolundan qaldıran” böyük bir mənbə kimi baxılması çətindir.

Beləliklə, əsas gəlir mənbəyi tələbələrin ödədiyi təhsil haqqı olan, dövlətdən bir manat belə yardım almayan özəl ali məktəblərin hansı maliyyə çətinliklərilə qarşılaşmağını təsəvvür etmək böyük ustalıq tələb etmir. Üstəlik hələ özəl təhsil müəssisələrindən vergi, ödənc və rüsumların tutulması da maliyyə problemlərini kifayət qədər dərinləşdirir. Təhsil qanununun 55-ci maddəsində oxuyuruq: “Təhsil müəssisəsinin əldə etdiyi əlavə vəsait və təhsilin inkişafı və maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilən vəsaitlər vergi, rüsum və ödənclərdən azaddır”. Üstəlik, demək olar ki, bütün özəl ali məktəblərin öz nizamnamələrində də buna uyğun maddə mövcuddur.(Bu nizamnamələr Azərbaycan Respublikası Təhsil Nazirliyi və Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata götürülmüşdür). Lakin ölkədə mövcud olan və hazırda qüvvədə olan müxtəlif qanunlar arasında (bizim halda təhsil və vergi qanunları) ziddiyyətli məqamların varlığı üzündən bu problem hələ də problem olaraq qalır.

Özəl ali məktəblərdə maliyyə məsələlərini təhlil edərkən bəzi başqa məqamlara da toxunmaq lazımdır. Ölkənin iqtisadi vəziyyətinin çox da yüksək olmadığı bir

şəraitdə, 1.000.000 -dan çox insanların qaçqın, köçkün kimi çadırlarda yaşadığı bir dövrdə özəl ali məktəblərin qayğıları da bir az artmış olur. Demək olar ki, hər bir özəl ali məktəbdə böyük sayda qaçqın, köçkün, şəhid ailələrindən, uşaq evlərindən olan tələbələr təhsil alırlar və sözsüz ki, onların çoxu təhsil haqqından azad olunur, qalanları isə çox simvolik təhsil haqqı ödəyirlər. Üstəlik cəmiyyətdə özəl ali məktəblərdən kömək umanların sayı gündən-günə artır. Özəl ali məktəblər, sadəcə müraciət edən imkansız ailələrə kömək əlini uzadır, müxtəlif təşkilatlara, kitabların, əsərlərin nəşr olunmasına və s. işlərə maddi yardımlar göstərirlər.

Həyat səviyyəsinin xeyli aşağı olduğu bir dövrdə, təbii ki, ali təhsil almaq istəyənlərin sayı çox, bu istəyini həyata keçirmək imkanı olanların sayı isə kifayət qədər azdır. Belə bir halda ali təhsil almaq istəyənlərə dövlət tərəfindən müəyyən yardım proqramlarının olması lazımdır. Bu barədə hazırda qüvvədə olan Təhsil Qanununun 3-cü maddəsinin 5-ci bəndində deyilir: "Pullu təhsil müəssisələrində təhsil alan aztəminatlı vətəndaşlara eyni növdən və tipdən olan dövlət təhsil müəssisələrinin normativləri əsasında dövlət tərəfindən ödənc verilir". Həmin maddənin 7-ci bəndində deyilir: "Dövlət ali məktəb tələbələrinə təhsilini başa vurduqdan sonra 5 il müddətində ödəmək şərtilə kredit verə bilər". Bu müddəalar Təhsil Qanunun yeni layihəsinin 4-cü maddəsinin 4-cü bəndində bu şəkildə verilmişdir. "Təhsil aldıqları müddətdə maddi ehtiyaclarını ödəmək üçün ali təhsil müəssisələrində təhsil alanlara təhsilini başa vurduqdan sonra qaytarmaq şərtilə kredit verilə bilər".

Təbii ki, Təhsil Qanununda yer almış bu müddəaların həyata keçirilməsi maddi vəziyyəti aşağı səviyyədə olanlara ali təhsil almaqda böyük dayaq olmaqla yanaşı, həmin insanların təhsil alacaqları ali məktəblərin də maliyyə durumuna kifayət qədər müsbət təsir göstərərdi. Lakin çox təəssüf ki, bu müddəaların həyata keçirilmə mexanizmi işlənib hazırlanmadığından onlar kağız üzərində bir vəd olaraq qalmaqdadır.

Qeyd edək ki, dünyanın qabaqcıl ölkələrində bu metodlarla ali təhsil alanlara və ali məktəblərə köməklik göstərilməsi həmişə diqqət mərkəzindədir.

ABŞ-ın bu sahədə təcrübəsinə nəzər salaq.ABŞ-da federal hökumət tələbələrə geniş təqaüd, sudalar verməklə onların ali təhsil almaq imkanlarını artırır. Bu məqsədlə federal hökumət tərəfindən tələbəyə kömək proqramları hazırlanmışdır.

"Tələbələrə bir başa-əvəzsiz kredit ayırma proqramı", "Tələbələri təhsil aldığı müddətdə işlə təmin etmə proqramı", "Tələbələrə qarantlı kredit vermə proqramı", yuxarı kurs tələbələrinin valideynlərinə kredit vermə proqramı", və s. proqramlar hər cür yolla gənclərə ali təhsil almaq üçün geniş imkanlar yaradır. Bu barədə X.Sinkotta, R.Xolden, D.Qivenz (82) geniş söhbət açır, yuxarıda adı çəkilən yardım proqramlarının hansı şərtlər daxilində götürülmə mümkünlüyünü aydın göstərirlər.

Qeyd edək ki, dünyada təhsil sahəsi bir sıra sahələrlə bərabər (sağlamlıq, ictimai xidmətlər, xeyriyyəçilik, dini fəaliyyət və s.) mənfəətsiz sahə hesab olunur. Bu fikir təhsil qanunun 17-ci maddəsində də öz əksini tapmışdır: "Özəl təhsil müəssisələri maarifçilik - xeyriyyəçilik niyyəti ilə yaradılır və şəxsi qazanc məqsədi güdmür".

Beləliklə, cəmiyyətdə təhsilin və elmin inkişafına öz töhvəsini verməklə yanaşı, xeyriyyəçilik və maarifçilik missiyasını da öz üzərinə götürən özəl ali məktəblərin dövlət ali məktəblərinə nisbətən daha böyük maliyyə problemlərilə üzləşmələri göz qabağındadır.

İdarəetmə-müxtəlif təbiətli mütəşəkkil sistemin funksiyasının elementi olmaqla, onun müəyyən strukturlarının qorunmasını, fəaliyyət rejiminin, proqram və məqsəd-lərinin uğurla reallaşdırılmasını təmin edir.

R.Ağamalıyev (8) idarəetmənin müxtəlif aspektlərinə toxunmuş, Təhsil Nazirliyinin idarəetmədə missiyasına geniş şərh vermişdir.

O həmçinin ali təhsil müəssisələrinin idarə olunmasında xarici faktorun rolundan söhbət açmış, burada birbaşa təsir (Dövlət icra hakimiyyəti, hökumət orqanları, qanunlar, regionda iqtisadi vəziyyət, digər tədris müəssisələri, ictimai təşkilatlar, işə götürənlər) və dolayı təsir (rəqabət, elmi-texniki tərəqqi, beynəlxalq mühit, ictimai-siyasi faktorlar, özəl sektor) komponentlərini göstərmiş, idarəetmədə daxili mühit faktorunun da əsas təşkil etdiyini vurğulamışdır.

Azərbaycanda təhsilin idarə edilməsi təhsil haqqında qanuna, müvafiq qanunvericilik aktlarına, eləcə də təhsil müəssisələrinin öz nizamnamələrinə əsaslanır.

Dövlət ali məktəbləri müəyyən olunmuş qaydada seçilən və ya təyin olunan şəxs tərəfindən idarə olunur. Dövlət ali təhsil müəssisəsinə ən böyük xarici təsir dövlət icra hakimiyyəti və hökumət orqanlarının təsiridir. Dövlət ali məktəbinin rektoru birbaşa Respublika Prezidentinin fərmanı ilə təyin olunur. Bütün tədris planları və proqramları, qəbul planları və s. yuxarı təşkilatda - Təhsil Nazirliyində təsdiq olunur. Doğrudur, bütün bu səlahiyyətlərin ali məktəbin özünə verilməsi, daha doğrusu elm, təhsil, mədəniyyət sahələrində xüsusi rolu olan, kadr potensialı və maddi-texniki bazası imkan verən bəzi ali məktəblərə muxtariyyət verilməsi məsələsi təhsil qanununda (27-ci maddə) qeyd olunur. Hazırda Prezidentin 13 iyun 2000-ci il fərmanı ilə muxtariyyat almış bir neçə ali məktəb hələ də Təhsil Nazirliyinin qəyyumluğundan yaxa qurtara bilmir. Bu sübut edir ki, Təhsil Nazirliyi öz mövqelərini rahatlıqla əldən verməyəcəkdir.

Bu məsələ ilə bağlı Zahid Qaralov "Azərbaycan təhsilini necə görmək istərdim?" (30) məqaləsində geniş təhlil vermiş, idarəetmədə (o cümlədən ali təhsilin idarəolunmasında) mövcud problemlərdən danışmış və bu problemlərin həlli üçün öz təkliflərini vermişdir. O universitetlərə və institutlara geniş muxtariyyət verilməsi, tələbə seçimi, professor-müəllim heyətinin seçimi, ştatların sayının müəyyənləş-dirilməsi, daxildə kadr dəyişikliyi və s. məsələlərin onların müstəqil hüquqlarına daxil edilməsini təklif edir.

Müəllif Azərbaycanda təhsilin idarə olunmasında çoxpilləlikdən, başqa sözlə təhsilə, o cümlədən ali təhsil müəssisələrinin fəaliyyətinə nüfuz etmək səlahiyyəti olan dövlət orqanlarının çoxluğundan narahat olaraq göstərir ki, belə idarəetmə forma və metodları aztəsirli olur, çoxlu mənfi hallarla müşahidə edilir, işin son nəticəsinə - məzunların bilik, bacarıqlarının və həyata hazırlanmalarının keyfiyyətinə, dəyərinə isə konkret olaraq heç kəs cavabdehlik daşımır (30,s.17).

Əlbəttə əgər ölkədəki özəl ali məktəblərin özəlliyi əsl mənada saxlanılarsa, dövlət ali məktəblərinə yuxarıda göstərilən və təhsil qanununda da yer almış muxtariyyətin, müstəqilliyin verilməsi ali məktəblərin idarəolunmasında irəliyə atılmış addım olardı.

Amma özəl ali məktəblərin bu günkü vəziyyətində, başqa sözlə özəl ali məktəblərin özəlliyi məhdudlaşdırıldığı halda, dövlət ali məktəblərinə belə müstəqilliyin (...tələbə qəbul planını müəyyənləşdirmək, müstəqil qəbul aparmaq, öz elmi adlarını təsis etmək və s.) verilməsi ölkədə özəl ali məktəblərdə olan real müstəqillikdən qat-qat çoxdur və bu da təbii ki, məntiqə və təhsildə dünya təcrübəsinə yad bir haldır.

Özəl ali məktəblərin idarə olunmasına gəldikdə isə qeyd etməliyik ki, bu ali məktəblər ali məktəbin təsisçisi tərəfindən idarə olunur (təsisçi başqa bir şəxsi rektor təyin edə bilər) və ali məktəbin idarə olunma qaydaları öz nizamnaməsilə tənzimlənir. Təbii ki, yuxarıda idarəetmədən bəhs edərkən göstərilən xarici və daxili mühit təsiri özəl ali məktəblərə də aiddir. Lakin burada həmin təsiredici amillərin təsir ardıcılıqları və təsir səviyyəsi dövlət ali məktəblərində olduğundan fəqlənir. Dövlət ali məktəblərində rektor dövlət başçısı tərəfindən və ya dövlətin yuxarı təşkilatlarının razılığı alındıqdan sonra formal olaraq Təhsil Nazirinin əmri ilə təyin olunduğu halda, burada rektoru təsisçi təyin edir və ali məktəbin sonrakı idarəetmə mexanizminə rektor nəzarət edir. Qeyd edək ki, özəl ali məktəblərin bir sıra vacib məsələlərinə dövlət orqanlarının nüfuz etməsi halları artıq “qanuni” xarakter almışdır.

Özəl universitetlərin əsas özəlliyi tələbə qəbulunun sərbəst aparılmasındadır. Lakin bu gün Azərbaycanda tələbə qəbulu dövlət ali məktəblərilə yanaşı özəl ali məktəblərə də mərkəzi bir orqan- Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) tərəfindən aparılır, qəbul planları isə ali məktəblərin özləri tərəfindən verilsə də, son anda dövlət orqanları öz sözünü deyir.

Yuxarıda qeyd etdiyimiz kimi, məsələni hansı isə dövlət kabinetində oturan bir məmur ağlı kəsdiyi kimi həll edir. Ali məktəblərin özünün verdiyi qəbul planları

həmin dövlət məmurunun öz kabinetindən çıxmadan və heç bir meyara əsaslanmadan apardığı redaktədən sonra qüvvəyə minir və icra üçün TQDK-ya göndərilir (75). Qəbul aparmaq hüququndan məhrum olunmuş özəl ali məktəbin taleyi TQDK-dan asılıdır. Özəl ali məktəbin rektoru TQDK-dan xahişçi vəziyyətində qalır və ondan kontingent istəyir. Təsəvvür edək ki, səlahiyyətli dövlət orqanı TQDK-ya göstəriş verir ki, abituriyent öz ərizəsində özəl ali məktəblərdə oxumaq üçün uyğun kodları göstərməyibsə, heç bir halda o özəl ali məktəblərə daxil ola bilməz. Belə olan halda çox katostrofik bir vəziyyət yarana bilər. Belə şərait yaranarsa özəl ali məktəblər seçim qarşısında qalır.

1. TQDK-ya itaət etmək, kontingentsiz qalmaq və yavaş yavaş tədris müəssisəsinin fəaliyyətini dayandırmaq.

2.TQDK-ya itaət etməmək, özəl təsisat kimi öz hüquqlarına müvafiq olaraq tələbə qəbulunu həyata keçirmək.

Əlbəttə ikinci variant mübarizə yoludur və müəyyən dövlət orqanları ilə konfrontasiyaya gətirib çıxara bilər. Əgər özəl ali məktəblər birlikdə belə mübarizə yolunu seçsələr, ehtimal etmək olar ki, onlar Qəbul kompaniyasını keçirməkdə sərbəstliyə nail ola bilərlər. Bu isə onların mövcudluğunun və fəaliyyətinin qarantıdır.

Özəl ali məktəblərin tədris proqramlarının dövlət ali məktəblərində olduğu kimi Təhsil Nazirliyində təsdiq olunması tələb olunur.

Tədris planlarında və ümumiyyətlə tədris prosesində yeniləşdirmə aparmadan və qəbul olunmuş standartlardan kənara çıxmadan köhnə qayda-qanun ilə razılaşaraq və demək olar ki, bu iş prinsipini doğru sayan bəzi özəl ali məktəblərini işin bu gedişi qane edir və bununla onlar gələcək müvəffəqiyyətsizliklərini Təhsil Nazirliyinin üzərinə atmış olurlar. Lakin bir sıra özəl ali məktəblər isə geniş dünya təcrübəsini nəzərə alaraq yeni tədris proqramları hazırlayır, bu tədris proqramının həyata keçirilməsi prosesinə ölkəmizin yüksək səviyyəli kadrları ilə bərabər xarici ölkə mütəxəssislərini də dəvət edir və beləliklə şablonlaşmış tədris proqramlarının həyata keçirilməsinə müəyyən alternativ yaradırlar.

Bir sıra məsələlərdə (tədris proqramlarının təsdiqi və s.) dövlət orqanları çox prinsipial mövqe tutmasa da, bəzi məsələlərdə (tələbə qəbulu, qəbul planları və s.) bu orqanlar özəl ali məktəblərə güzəştə getmək fikrində deyillər.

Özəl ali məktəblər arasında yekdilliyin, fikir birliyinin olmaması bu hüquqları bərpa etməyin yolunda duran ən böyük maneələrdən biridir.

Funksiya kriteriyasından danışarkən qeyd etməliyik ki, bu o birilərə nisbətən ən qeyri-müəyyən və çətin kriteriyadır. Çünki özəl və dövlət ali məktəblərinin idarəetmə və maliyyə prinsiplərini göstərmək daha asandır, nəinki onların funksiya-missiya-fəaliyyət spektrlərini bir-birindən ayırmaq. Məhz bu məsələdə dövlət və özəl ali məktəblərin bir-birinə qovuşması daha qapalıdır. Ali təhsil müəssisələrinin funksiyaları barədə bir sıra tədqiqatçılar, müəyyən mülahizələr aparmışlar.

Levi Daniel (99) göstərir ki, funksiya sosial sinfi təbəqələrə xidmətlə, dəyərlər və ümumiyyətlə ideologiyalarla əlaqədardır. Müəllif qeyd edir ki, əgər funksiyalara tərif vermək olsaydı belə, yenə də hər hansı funksiyanın konkret olaraq dövlət və ya özəl funksiya olduğunu ayırd etmək çətin məsələdir.

P.Karstane, U.Uşakova (79) ali təhsildə ümumi idarəetmənin problemlərini araşdırır, fəaliyyət prinpislərindən və müxtəlif problemlərə mövcud yanaşmalardan söhbət açır. Müəlliflər belə qənaətə gəlirlər ki, ali təhsil müəssisələrinin fəaliyyət prosesi əsaslı şəkildə planlaşdırılmalı və eyni zamanda bu prosesin həyata keçirilməsində keyfiyyət məsələsi həmişə önə çəkilməlidir.

Rəhim Ağamalıyev (8) bu fikri daha da inkişaf etdirərək hər hansı bir funksiyanın həyata keçirilməsi prosesində 4 şərti vurğulayır. Müəllifə görə bu proses əvvəlcə planlaşdırılmalı, təşkil olunmalı, əsaslandırılmalı və nəhayət bu prosesə nəzarət olunmalıdır.

Sonra müəllif sadalanan bu 4 mərhələnin hər birini ayrılıqda izah edir və onları bir-biri ilə əlaqələndirir və göstərir ki, bu məsələdə keyfiyyət faktoru həmişə diqqət mərkəzində olmalıdır.

Aydındır ki, ali təhsil müəssisəsinin (istər dövlət, istərsə də özəl) əsas məqsədi

ölkənin inkişafını təmin etmək üçün dövrün tələblərinə uyğun kadrların hazırlanmasıdır.

Təbii ki, bu ali təhsil müəssisələrinin qarşısında duran əsas məqsəddir, lakin aydındır ki, bu məqsədə gedən yol xeyli uzundur. Ona görə də dövlət və özəl ali məktəblər son bu məqsəd baxımdan bir-birindən fərqlənməsələr də, bu məqsədə çatmaq üçün onlar xeyli fərqli bir marşrut - yol seçirlər və bu yolda dövlət orqanlarının onlara müsbət və mənfi təsirləri özünü biruzə verir. Məhz bu məsələdə ali məktəbin fəaliyyətinin əvvəlki 2 kriteriya (maliyyə və idarəetmə) ilə vəhdəti özünü göstərir. Belə ki, qarşıya qoyulan məqsədə çatmaq üçün maliyyə vəziyyətinin və idarəetmədə sərbəstliyin rolu çox mühümdür. Bu məsələ ilə bağlı özəl ali məktəblərə nisbətən dövlət ali məktəblərinin vəziyyəti daha aydındır. Dövlətin tam himayəsində olan dövlət ali məktəblərinin maliyyə problemləri dövlət büdcəsi və ödənişli təhsil hesabına həll olunur və müvafiq dövlət orqanları tərəfindən bunlara nəzarət olunur. Tədris proqramları da eynilə müvafiq dövlət orqanlarında hazırlanıb təqdim olunur. Xarici əlaqələrin qurulması, xaricə tələbə göndərilməsi, xaricdən tələbələrin qəbul olunması və s. məsələlər bir başa Təhsil Nazirliyi vasitəsilə həyata keçirilir və ali məktəb özü artıq həll olunmuş məsələlərin sadəcə icraçısına çevrilir.

Bu məsələlərlə bağlı vəziyyət özəl ali məktəblərdə başqa cürdür.

Qeyd olunduğu kimi özəl ali məktəblərin sərbəstliyinin əsas əlaməti sərbəst tələbə qəbulunun aparılmasıdır. Lakin bu məsələdə dövlət orqanlarının birbaşa iştirakı (Nazirlər Kabinetinin elm və təhsil şöbəsi, Təhsil Nazirliyi və nəhayət TQDK) özəl ali məktəblərin də qarşısında konkret məsələ qoyur, yəni özəl ali məktəblər məhz dövlət tərəfindən göndərilmiş abituriyentləri yüksək səviyyəli kadr kimi yetişdirmək proqramını həyata keçirməli olurlar. Əlbəttə abituriyentin dövlət tərəfindən göndərilməsi, yoxsa ali məktəbin özü tərəfindən götürülməsi formaca əhəmiyyət kəsb etmir. Əsas məsələ onların seçilmə prinsipindədir. Keçmiş təcrübə göstərir ki, ali məktəblərin özləri qəbul apardıqları vaxt qəbul olan tələbələrin səviyyəsi TQDK tərəfindən göndərilənlərdən xeyli yüksək olurdu və bu da məhz

yüksək səviyyəli kadrların hazırlanması prosesində müsbət başlanğıc kimi qiymətləndirilə bilər.

Beləliklə, dövlət özəl ali məktəblərin fəaliyyətinə həmişə nüfuz edir və bu nüfuzetmə yüksək səviyyəli kadr hazırlanması prosesinə, yəni ali məktəbin baş məqsədinə öz təsirini göstərir.

Məsələ bu təsirin mənfi və ya müsbət olmasındadır. Fikrimizcə, qabaqcıl özəl ali məktəblərin işlərinə belə nüfuzetmə yüksək səviyyəli kadr hazırlanması prosesinə mənfi təsir göstərirsə, hələ öz dəsti-xəttini tapa bilməmiş, ali məktəblər arasında özünü sübut edə bilməmiş, səviyyəli tədris plan-proqramları baxımından adilikdən çıxa bilməyən özəl ali məktəblərə belə nüfuzetmə məsələnin müəyyən mənada xeyrinə ola bilər.

Özəl və dövlət ali məktəblərinin fəaliyyətinin müxtəlif sahələri, o cümlədən maliyyə və idarəetmə məsələləri ilə bağlı konkret faktlar və hüquqi normativ sənədlər əsasında apardığımız müqayisəli təhlil işi ikincinin, yəni dövlət ali məktəblərinin daha əlverişli sosial-hüquqi, mənəvi-psixoloji vəziyyətdə olduğunu göstərir. Dövlət ali məktəblərinin sosial və hüquqi bazası möhkəm olduğu halda (dövlətə söykənir), özəl ali məktəblər buna malik deyillər. Əgər nəzərə alsaq ki, özəl ali məktəblər arasında mövcud şəraiti düzgün hesab edənlər də var, bu hal onların ümumi vəziyyətinin xeyli ürəkaçan olmadığını göstərir. Bu disbalansı aradan qaldırmaq özəl ali məktəblərin ən ümdə vəzifələrindəndir.

# II FƏSİL
# AZƏRBAYCANIN TƏHSİL SİSTEMİNDƏ ÖZƏL ALİ MƏKTƏBLƏR ŞƏBƏKƏSİ: UĞURLAR, PROBLEMLƏR, PERSPEKTİVLƏR

## 2.1. Özəl ali təhsil sistemində tələbə kontingentinin formalaşdırılmasının müasir vəziyyəti və onu təkmilləşdirmək problemləri

Ali təhsilli kadr hazırlığı prosesi abituriyentlərin ali məktəblərə qəbul olunmasından, başqa sözlə desək, tələbə qəbulundan başlayır. Azərbaycan ali məktəblərinə tələbə qəbulu 1994/95-ci tədris ilindən etibarən mərkəzləşdirilmiş bir dövlət təşkilatı-Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) tərəfindən aparılır.

“Bu gün tam yəqinliyi ilə demək olar ki, tələbə qəbulu işini mərkəzləşdirilmiş qaydada həyata keçirməyə məsul bir dövlət orqanı olan TQDK öz fəaliyyətinin bütün istiqamətlərini elmi əsaslar üzərində qurur və müstəqil dövlətimizin təhsil sahəsindəki siyasətini ardıcıl surətdə həyata keçirir” (1).

Sözsüz ki, fəaliyyətdə olduğu müddətdə TQDK öz işində xeyli irəliləyişlərə nail olmuşdur və öz işini ilbəil daha da yüksək səviyyədə qurmağa çalışır.

Məlumdur ki, tələbə qəbulu həm dövlət, həm də özəl ali məktəblərə TQDK tərəfindən aparılır. Əgər dövlət ali məktəblərinə qəbulun dövlət orqanı olan TQDK tərəfindən aparılması müəyyən mənada başa düşülürsə, qəbulun özəl ali məktəblərə belə şəkildə aparılması müsbət hal kimi qəbul oluna bilməz. Çünki özəl ali məktəbin özəlliyinin ən əsas əlaməti məhz tələbə qəbulunun sərbəst aparılmasıdır. Qeyd edək ki, Azərbaycan Respublikasının hazırda qüvvədə olan Təhsil Qanununda da bu məsələ öz həllini tapmışdır. Təhsil Qanununun 21-ci maddəsində yazılır: “Qeyri-dövlət ali məktəblərinə tələbə qəbulu onların nizamnamələri əsasında aparılır”. Doğrudur hazırda yeni təhsil qanunu hazırlanmaqdadır və bu qanun layihəsində göstərilən məsələyə bir az başqa cür yanaşılmışdır: “Mülkiyyət formasından asılı olmayaraq bütün təhsil müəssisələrinə qəbul müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada

və öz nizamnamələrinə uyğun həyata keçirilir" (63).

Göründüyü kimi burada da özəl ali məktəblərin öz nizamnamələri əsasında qəbul aparmalarının mümkünlüyü qeyd olunur. Əslində bu maddə "ikili standart"ın mahiyyətini özündə saxlayan çox uğursuz bir maddədir. Bu maddə iki hissədən ibarətdir: 1. Mülkiyyət formasından asılı olmayaraq bütün təhsil müəssisələrinə qəbul icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada həyata keçirilir; 2. ... Bütün təhsil müəssisələrinə qəbul onların öz nizamnamələri əsasında aparılır.

Belə "ikili standart" icra hakimiyyəti orqanına imkan verəcək ki, özəl ali məktəblərin öz nizamnamələrindəki qəbul ilə bağlı maddəsini icra hakimiyyətinin həmin məsələ ilə bağlı maddəsinə müvafiq hala salsın.

Beləliklə, özəl ali məktəblərə tələbə qəbulunun TQDK tərəfindən aparılması (2-7,76) bu ali məktəblərin özəlliyinin pozulmasını sübut edən ən əsas amillərdəndir. Təhsil haqqında qanunun yeni layihəsi də bu məsələni ciddi şəkildə həll etmir və gələcəkdə də müvafiq icra hakimiyyətinə özəl ali məktəblərin fəaliyyətinə müdaxilə etmək imkanı verir.

İndi özəl ali məktəblərdə bakalavr və magistratura pillələrində kadr hazırlığı aparılan ixtisaslar spektrinə nəzər salaq. Mə"lumat "Abituriyent" jurnalının may 2001-2002-ci il tarixli, 5-ci sayları (Azərbaycan və rus dillərində), Təhsil Nazirinin 19.06.1997-ci il tarixli 420 saylı əmrilə təqdim olunmuş "Ali məktəblər üzrə magistr hazırlığına icazə verilmiş magistr proqramlarının (ixtisaslaşmaların) siyahısı", Təhsil Nazirinin Azərbaycan Beynəlxalq Universitetində 03 dekabr 1998-ci il tarixli 830 saylı, Ali Pedaqoji Qızlar Seminariyasında (21 iyul 1999-cu il tarixli 607 saylı), Ali İctimai-Siyasi Kollecdə (21 iyul 1999-cu il tarixli 608 saylı), Qafqaz Universitetində (14 may 1999-cu il tarixli 11/347 saylı), Ali Diplomatiya Kollecində (11 may 1999-cu il tarixli 11/346 saylı), Odlar yurdu Universitetində (29 aprel 1999-cu il tarixli 293 saylı), Təfəkkür Universitetində (30 aprel 1999-cu il tarixli 295 saylı) magistr hazırlığına icazə verilməsi haqqında əmrləri əsasında hazırlanmışdır.

B - bakalavr pilləsində kadr hazırlığı aparılan ixtisaslar

M - magistratura pilləsində kadr hazırlığı aparılan ixtisaslar

B, M - hər iki pillədə kadr hazırlığı aparılan ixtisaslar.

| № | İxtisaslar / Özəl ali məktəblər | Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı | Mexanotronika | Tətbiqi riyaziyyat | Yol hərəkətinin təşkili | Lokomotiv və vaqon təsərrüfatı | Dəmir yolu tikintisi və təsərrüfatı | Ekologiya |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Azərbaycan Universiteti | | | | | | | |
| 2 | Asiya Universiteti | | | | | | | |
| 3 | Ali İctimai-Siyasi Kollec | | | | | | | |
| 4 | Azərbaycan Beynəlxalq Universiteti | | | | | | | B |
| 5 | Ali Diplomatiya Kolleci | | | | | | | B |
| 6 | Bakı Biznes Universiteti | | | | | | | |
| 7 | Bakı Ali Pedaqoji Qızlar Seminariyası | | | | | | | |
| 8 | Xəzər Universiteti | | | | | | | |
| 9 | Qərb Universiteti | B | | | | | | |
| 10 | Qafqaz Universiteti | B, M | | B | | | | |
| 11 | Müstəqil Azərbaycan Universiteti | | | | B | | | |
| 12 | Odlar Yurdu Universiteti | | B | | B, M | | | |
| 13 | Təfəkkür Universiteti | | | | B, M | B | B | |
| 14 | Naxçıvan Özəl Universiteti | | | | B | | | |
| 15 | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | | | | | |

Qeyd: Bu ali məktəblərdən dördünə - Asiya, Ali Diplomatiya Kolleci, Bakı Biznes və Müstəqil Azərbaycan Universitetlərinə 2002-2003-cü tədris ilində tələbə qəbulu aparılmadı.

| | İxtisaslar / Özəl ali məktəblər | İnformasiya işlənməsinin və idarəetmənin avtomatlaşdırılmış sistemləri | Nəqliyyat daşımaları və idarəetmənin təşkili | Riyaziyyat və informatika | Neft və qaz yataqlarının işlənməsi və istismarı | Kompyuter riyaziyyatı |
|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Universiteti | | | | | |
| 2. | Asiya Universiteti | | | | | |
| 3. | Ali İctimai-Siyasi Kollec | | | | | |
| 4. | Azərbaycan Beynəlxalq Universiteti | | B | B | B | |
| 5. | Ali Diplomatiya Kolleci | | | | | |
| 6. | Bakı Biznes Universiteti | | | | | |
| 7. | Bakı Ali Pedaqoji Qızlar Seminariy | | | B | | |
| 8. | Xəzər Universiteti | | | | B, M | B |
| 9. | Qərb Universiteti | | | | | |
| 10. | Qafqaz Universiteti | | | | | |
| 11. | Müstəqil Azərbaycan Universiteti | | | | | |
| 12. | Odlar Yurdu Universiteti | B, M | | | | B |
| 13 | Təfəkkür Universiteti | | | | | |
| 14 | Naxçıvan Özəl Universiteti | | | B | | |
| 15. | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | | | |

| | İxtisaslar / Özəl ali məktəblər | Məlumatların mühafizəsinin texnologiyası və təşkili | Riyaziyyat | Təbiətdən istifadənin iqtisadiyyatı | İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarəedilməsi | Marketinq |
|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Universiteti | | | | | |
| 2. | Asiya Universiteti | | | | | |
| 3. | Ali İctimai-Siyasi Kollec | | | | | |
| 4. | Azərbaycan Beynəlxalq Universiteti | | | | | |
| 5. | Ali Diplomatiya Kolleci | | | | | |
| 6. | Bakı Biznes Universiteti | | | | | B |
| 7. | Bakı Ali Pedaqoji Qızlar Seminariy | | | | | |
| 8. | Xəzər Universiteti | | B | | | |
| 9. | Qərb Universiteti | B | | B | | |
| 10. | Qafqaz Universiteti | | | | B, M | |
| 11. | Müstəqil Azərbaycan Universiteti | | | | | |
| 12. | Odlar Yurdu Universiteti | | | | | |
| 13 | Təfəkkür Universiteti | | | | | |
| 14 | Naxçıvan Özəl Universiteti | | | | | |
| 15. | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | | | |

| № | İxtisaslar / Özəl ali məktəblər | İnformasiya sistemləri | Hesablama maşınları kompleksləri, sistemləri və şəbəkələri | Kompüter qrafikası və multimediya sistemləri | Hesablama şəbəkələrinin proqram təminatı | Vergi işinin təşkili və idarə edilməsi | Gqtisadi kibernetika |
|---|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Universiteti | | | | | | |
| 2. | Asiya Universiteti | | | | | | |
| 3. | Ali İctimai-Siyasi Kollec | | | | | | |
| 4. | Azərbaycan Beynəlxalq Univer. | | | | | B | |
| 5. | Ali Diplomatiya Kolleci | | | | | | |
| 6. | Bakı Biznes Universiteti | | | | | | |
| 7. | Bakı Ali Pedaqoji Qızlar Semin. | | | | | | |
| 8. | Xəzər Universiteti | | | M | M | | |
| 9. | Qərb Universiteti | B | B | | | | B |
| 10. | Qafqaz Universiteti | | | | | | |
| 11. | Müstəqil Azərbaycan Univers. | | | | | | |
| 12. | Odlar Yurdu Universiteti | | | | | | |
| 13. | Təfəkkür Universiteti | | | | | | |
| 14. | Naxçıvan Özəl Universiteti | | | | | | |
| 15. | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | | | | |

| | İxtisaslar / Özəl ali məktəblər | Beynəlxalq biznes | Marketinq (sahələr üzrə) | Əməyin iqtisadiyyatı və sosiologiyası | Mehmanxana və turizm biznesi | Təhsilin təşkili və idarə olunması | İqtisadi biliklər |
|---|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Universiteti | | | | | | |
| 2. | Asiya Universiteti | | | | | | |
| 3 | Ali İctimai-Siyasi Kollec | | | | | | |
| 4. | Azərbaycan Beynəlxalq Univer. | | | | | | |
| 5. | Ali Diplomatiya Kolleci | | | | | | |
| 6. | Bakı Biznes Universiteti | | B | | | | |
| 7. | Bakı Ali Pedaqoji Qızlar Semin. | | | | | | B |
| 8. | Xəzər Universiteti | M | | | M | M, B | |
| 9. | Qərb Universiteti | M | | | | | |
| 10. | Qafqaz Universiteti | | | | | | |
| 11. | Müstəqil Azərbaycan Univers. | | | | | | |
| 12 | Odlar Yurdu Universiteti | | | | | | |
| 13. | Təfəkkür Universiteti | | | | | | |
| 14. | Naxçıvan Özəl Universiteti | | | | | | |
| 15. | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | B | | | |

| № | İxtisaslar / Özəl ali məktəblər | Beynəlxalq iqtisadi münasibətlər | Maliyyə və kredit | İqtisadiyyatın hüquqi tənzimlənməsi | Biznesin təşkili və idarə edilməsi | Mühasibat uçotu və audit | Bank menecmenti |
|---|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Universiteti | B, M | B | B | | | |
| 2. | Asiya Universiteti | B, M | B | B | | | |
| 3 | Ali İctimai-Siyasi Kollec | B, M | | | | | |
| 4. | Azərbaycan Beynəlxalq Univer. | B, M | B, M | B | | | |
| 5. | Ali Diplomatiya Kolleci | B | | | | | |
| 6. | Bakı Biznes Universiteti | B | B | B | B | B | |
| 7. | Bakı Ali Pedaqoji Qızlar Semin. | | | | | | |
| 8. | Xəzər Universiteti | B, M | B, M | | B, M | M | M |
| 9. | Qərb Universiteti | B, M | B | B, M | M | | M |
| 10. | Qafqaz Universiteti | | | | B, M | | |
| 11. | Müstəqil Azərbaycan Univers. | B | B | | | | |
| 12 | Odlar Yurdu Universiteti | B, M | B, M | | | | |
| 13. | Təfəkkür Universiteti | B | B | B, M | B | | |
| 14. | Naxçıvan Özəl Universiteti | | B | B | | | |
| 15. | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | B | | | B | |

| № | İxtisaslar / Özəl ali məktəblər | Beynəlxalq hüquq | Hüquqşünaslıq | Beynəlxalq münasibətlər- | Tərcümə (ingilis dili) | Xarici dil və ədəbiyyat (Şərq ölkələri) | İngilis dili |
|---|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Universiteti | B, M | B | B, M | B | | |
| 2. | Asiya Universiteti | | | B | | B, M | B |
| 3 | Ali İctimai-Siyasi Kollec | M | | B | | | |
| 4. | Azərbaycan Beynəlxalq Univer. | B, M | B | | | | B |
| 5. | Ali Diplomatiya Kolleci | M | | B, M | | | M |
| 6. | Bakı Biznes Universiteti | | | | B | | |
| 7. | Bakı Ali Pedaqoji Qızlar Semin. | | | | | | B |
| 8. | Xəzər Universiteti | B, M | | M, B | B | | M |
| 9. | Qərb Universiteti | B | | | B | | |
| 10. | Qafqaz Universiteti | B, M | | | | | |
| 11. | Müstəqil Azərbaycan Univers. | | | | | | B |
| 12 | Odlar Yurdu Universiteti | | B | | B | | |
| 13. | Təfəkkür Universiteti | | | | | | B, M |
| 14. | Naxçıvan Özəl Universiteti | | | | B | | |
| 15. | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | | | | |

| № | İxtisaslar / Özəl ali məktəblər | Jurnalistika | Regionşünaslıq | Sinxron tərcümə (ingilis dili) | Sinxron tərcümə (alman dili) | Sinxron tərcümə (fransız dili) | Sinxron tərcümə (ərəb dili) |
|---|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Universiteti | | | | | | |
| 2. | Asiya Universiteti | B | | | | | |
| 3 | Ali İctimai-Siyasi Kollec | B | B | | | | |
| 4. | Azərbaycan Beynəlxalq Univer. | B | B | | | | |
| 5. | Ali Diplomatiya Kolleci | B | B | B, M | B, M | B | M |
| 6. | Bakı Biznes Universiteti | | | | | | |
| 7. | Bakı Ali Pedaqoji Qızlar Semin. | B | | | | | |
| 8. | Xəzər Universiteti | B | M, B | | | | |
| 9. | Qərb Universiteti | B | B | | | | |
| 10. | Qafqaz Universiteti | | | | | | |
| 11. | Müstəqil Azərbaycan Univers. | B | | B | | | |
| 12 | Odlar Yurdu Universiteti | | | | | | |
| 13. | Təfəkkür Universiteti | B | | | | | |
| 14. | Naxçıvan Özəl Universiteti | B | | | | | |
| 15. | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | | | | |

| № | İxtisaslar / Özəl ali məktəblər | Azərbaycan dili və ədəbiyyatı | Ərəb dili və ədəbiyyatı | Fransız dili və ədəbiyyatı | Diplomatiya |
|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Universiteti | | | | |
| 2. | Asiya Universiteti | B | B | | |
| 3. | Ali İctimai-Siyasi Kollec | B | B | | |
| 4. | Azərbaycan Beynəlxalq Univer. | | | | |
| 5. | Ali Diplomatiya Kolleci | | | | M |
| 6. | Bakı Biznes Universiteti | | | | |
| 7. | Bakı Ali Pedaqoji Qızlar Semin. | B | | | |
| 8. | Xəzər Universiteti | | | M | |
| 9. | Qərb Universiteti | | | B | |
| 10. | Qafqaz Universiteti | | B | | |
| 11. | Müstəqil Azərbaycan Univers. | | | | |
| 12. | Odlar Yurdu Universiteti | | | | |
| 13. | Təfəkkür Universiteti | B | | | |
| 14. | Naxçıvan Özəl Universiteti | B | | | |
| 15 | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | | |

| | İxtisaslar / Özəl ali məktəblər | Tarix və ictimaiyyət | Ərəb dili | Fars dili | Tərcümə (alman dili) | Tərcümə (fransız dili) |
|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Universiteti | | | | | |
| 2. | Asiya Universiteti | | | | | |
| 3. | Ali İctimai-Siyasi Kollec | | | | | |
| 4. | Azərbaycan Beynəlxalq Univer. | B | | | | |
| 5. | Ali Diplomatiya Kolleci | | | | | |
| 6. | Bakı Biznes Universiteti | | | | | |
| 7. | Bakı Ali Pedaqoji Qızlar Semin. | B | | | | |
| 8. | Xəzər Universiteti | | M | M | | |
| 9. | Qərb Universiteti | | | | B | B |
| 10. | Qafqaz Universiteti | | | | | |
| 11. | Müstəqil Azərbaycan Univers. | | | | | |
| 12. | Odlar Yurdu Universiteti | | | | | |
| 13. | Təfəkkür Universiteti | | | | | |
| 14. | Naxçıvan Özəl Universiteti | | | | | |
| 15 | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | | | |

| № | İxtisaslar / Özəl ali məktəblər | Alman dili və ədəbiyyatı | İngilis dili və ədəbiyyatı | Beynəlxalq jurnalistika | Publisist jurnalistika | Tərcümə nəzəriyyəsi və dillərarası əlaqə | Dünya siyasi proses və beyn.əlaqələrin nəzəriyyəsi |
|---|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Universiteti | | | | | | |
| 2. | Asiya Universiteti | | M | | | | |
| 3. | Ali İctimai-Siyasi Kollec | | B | | | | |
| 4. | Azərbaycan Beynəlxalq Univer. | | | | M | | |
| 5. | Ali Diplomatiya Kolleci | | | M | | | |
| 6. | Bakı Biznes Universiteti | | | | | | |
| 7. | Bakı Ali Pedaqoji Qızlar Semin. | | | | | | |
| 8. | Xəzər Universiteti | M | B, M | M | | M | M |
| 9. | Qərb Universiteti | B | B | | | | M |
| 10. | Qafqaz Universiteti | | | | | | |
| 11. | Müstəqil Azərbaycan Univers. | | | | | | |
| 12. | Odlar Yurdu Universiteti | | | | | | |
| 13. | Təfəkkür Universiteti | | | | M | | |
| 14. | Naxçıvan Özəl Universiteti | | B | | | | |
| 15. | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | | | | |

| № | İxtisaslar / Özəl ali məktəblər | Dövlət hüququ | Təsərrüfat | Cinayət hüququ | Mülki hüquq | Dünya siyasətinin subyektləri | Dünya siyasətində proqnozlaşdırma |
|---|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Universiteti | M | | | | | |
| 2. | Asiya Universiteti | | | M | | | |
| 3. | Ali İctimai-Siyasi Kollec | | | M | | | |
| 4. | Azərbaycan Beynəlxalq Univer. | M | M | M | M | | |
| 5. | Ali Diplomatiya Kolleci | | | | | | |
| 6. | Bakı Biznes Universiteti | | | | | | |
| 7. | Bakı Ali Pedaqoji Qızlar Semin. | | | | | | |
| 8. | Xəzər Universiteti | | | | | | |
| 9. | Qərb Universiteti | | | | | M | M |
| 10. | Qafqaz Universiteti | | | | | | |
| 11. | Müstəqil Azərbaycan Univers. | | | | | | |
| 12. | Odlar Yurdu Universiteti | | | M | M | | |
| 13. | Təfəkkür Universiteti | | | M | | | |
| 14. | Naxçıvan Özəl Universiteti | | | | | | |
| 15. | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | | | | |

| № | İxtisaslar / Özəl ali məktəblər | Modelyer rəssam | Pedaqogika nəzəriyyəsi və tarixi | Ümumi psixologiya | Uşaq və yaş psixologiyası |
|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Universiteti | | | | |
| 2. | Asiya Universiteti | | | | |
| 3. | Ali İctimai-Siyasi Kollec | | | | |
| 4. | Azərbaycan Beynəlxalq Univer. | | | | |
| 5. | Ali Diplomatiya Kolleci | | | | |
| 6. | Bakı Biznes Universiteti | | | | |
| 7. | Bakı Ali Pedaqoji Qızlar Semin. | | M | M | M |
| 8. | Xəzər Universiteti | | | | |
| 9. | Qərb Universiteti | B | | | |
| 10. | Qafqaz Universiteti | | | | |
| 11. | Müstəqil Azərbaycan Univers. | | | | |
| 12. | Odlar Yurdu Universiteti | | | | |
| 13. | Təfəkkür Universiteti | | | | |
| 14. | Naxçıvan Özəl Universiteti | | | | |
| 15. | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | | |

| № | İxtisaslar / Özəl ali məktəblər | İbtidai təhsilin pedaqogika və metodikası | Pedaqogika və psixologiya | Sosial pedaqogika | Psixologiya | Menecment (sahələr üzrə) |
|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Universiteti | B | | | | |
| 2. | Asiya Universiteti | | | | | |
| 3. | Ali İctimai-Siyasi Kollec | | | | | |
| 4. | Azərbaycan Beynəlxalq Univer. | B, M | | | | |
| 5. | Ali Diplomatiya Kolleci | | | | | |
| 6. | Bakı Biznes Universiteti | | | | | B |
| 7. | Bakı Ali Pedaqoji Qızlar Semin. | B, M | B | B, M | B | |
| 8. | Xəzər Universiteti | | | | | B |
| 9. | Qərb Universiteti | | | | B | B |
| 10. | Qafqaz Universiteti | | | | | B |
| 11. | Müstəqil Azərbaycan Univers. | B | | | | |
| 12. | Odlar Yurdu Universiteti | B | | | | |
| 13. | Təfəkkür Universiteti | B | | | | |
| 14. | Naxçıvan Özəl Universiteti | B | | | | |
| 15. | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | | | |

| № | İxtisaslar / Özəl ali məktəblər | Dövlət və bələdiyyə idarəetməsi | Gömrük işinin təşkili | Turizm və sosial mədəni servis xidməti | Dizayn | Musiqi təhsili |
|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Universiteti | B | B | | | |
| 2. | Asiya Universiteti | | | | | |
| 3. | Ali İctimai-Siyasi Kollec | | | | | |
| 4. | Azərbaycan Beynəlxalq Univer. | B | B | B | | |
| 5. | Ali Diplomatiya Kolleci | | B | | | |
| 6. | Bakı Biznes Universiteti | B | B | | | |
| 7. | Bakı Ali Pedaqoji Qızlar Semin. | | | | | |
| 8. | Xəzər Universiteti | | | | B | |
| 9. | Qərb Universiteti | | | B | B | |
| 10. | Qafqaz Universiteti | B, M | | | | |
| 11. | Müstəqil Azərbaycan Univers. | | B | | B | |
| 12. | Odlar Yurdu Universiteti | | B | | | |
| 13. | Təfəkkür Universiteti | | B | | | |
| 14. | Naxçıvan Özəl Universiteti | | | | | B |
| 15. | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | | | |

| № | İxtisaslar / Özəl ali məktəblər | Müalicə işi | Stomatologiya | Pediatriya | Tibbi biologiya | Bədən tərbiyəçi və idman |
|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Universiteti | | | | | |
| 2. | Asiya Universiteti | | | | | |
| 3. | Ali İctimai-Siyasi Kollec | | | | | |
| 4. | Azərbaycan Beynəlxalq Univer. | B | B | B | B | B |
| 5. | Ali Diplomatiya Kolleci | | | | | |
| 6. | Bakı Biznes Universiteti | | | | | |
| 7. | Bakı Ali Pedaqoji Qızlar Semin. | | | | | |
| 8. | Xəzər Universiteti | | | | B | |
| 9. | Qərb Universiteti | | | | | |
| 10. | Qafqaz Universiteti | | | | | |
| 11. | Müstəqil Azərbaycan Univers. | | | | | |
| 12. | Odlar Yurdu Universiteti | B | B | | B | |
| 13. | Təfəkkür Universiteti | | | | | |
| 14. | Naxçıvan Özəl Universiteti | | | | | |
| 15. | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | | | | | |

Göründüyü kimi, bu gün mövcud olan 15 özəl ali məktəbdə müxtəlif istiqamətlərdə 89 ixtisas üzrə kadr hazırlığı aparılır (10, 16-28, 31-34, 50, 51, 55-58, 61, 62, 70, 72, 73). Bunlardan 41 ixtisas üzrə yalnız bakalavr pilləsində, 21 ixtisas üzrə yalnız magistratura pilləsində, qalan 27 ixtisas üzrə isə hər iki pillədə kadr hazırlığı aparılır. Beləliklə, bakalavr pilləsində cəmi 68 ixtisas üzrə, magistratura pilləsində isə cəmi 48 ixtisas üzrə kadr hazırlığı aparılır.

Kadr hazırlığı aparılan 89 ixtisasdan 22-si I qrup ixtisaslar (16 ixtisas yalnız bakalavr pilləsi, 2 ixtisas yalnız magistratura pilləsi, 4 ixtisas hər iki pillədə kadr hazırlığı), 13-ü II qrup ixtisaslar (3 ixtisas yalnız bakalavr pilləsi, 4 ixtisas yalnız magistratura pilləsi, 6 ixtisas üzrə hər iki pillədə kadr hazırlığı), 37-si III qrup ixtisaslar (12 ixtisas yalnız bakalavr pilləsi, 13 ixtisas yalnız magistratura pilləsi, 12 ixtisas üzrə hər iki pillədə kadr hazırlığı), 5-i IV qrup ixtisaslar (bu ixtisaslar üzrə yalnız bakalavr pilləsində kadr hazırlığı aparılır), 12-i V qrup ixtisaslardır. (6 ixtisas yalnız bakalavr pilləsi, 3 ixtisas yalnız magistratura pilləsi, 3 ixtisas üzrə hər iki pillədə kadr hazırlığı).

Göründüyü kimi, mövcud 8 ixtisas qrupundan 5-ində özəl ali məktəblərdə kadr hazırlığı aparılır.

Qeyd edək ki, özəl ali məktəblərin hamısında kadr hazırlığı aparılan ixtisas qrupları yoxdur. Mövcud 15 özəl ali məktəbdən sayca ən çox kadr hazırlığı aparılan ixtisas qrupu ikinci və üçüncü qruplardır. Hər iki ixtisas qrupunda 14 özəl ali məktəbdə kadr hazırlığı aparılır. Gkinci qrupda yalnız Bakı Ali Pedaqoжi Qızlar Seminariyasında, üçüncü qrupda isə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında kadr hazırlığı aparılmır. Beləliklə, birinci qrup ixtisaslar üzrə 10, ikinci qrup ixtisaslar üzrə 14, üçüncü qrup ixtisaslar üzrə 14, dördüncü qrup ixtisaslar üzrə 3 və beşinci qrup ixtisaslar üzrə 9 özəl ali məktəbdə kadr hazırlığı aparılır.

Əgər II və III qrup ixtisaslar üzrə 14 özəl ali məktəbdə kadr hazırlığı aparılmasını belə ixtisasların əsasən populyar (tələbə cəlb edən) olmaları ilə izah etmək olarsa, I və V qrup ixtisaslar üzrə kadr hazırlığı aparılan özəl ali məktəblərin çoxluğu başqa

səbəblərlə bağlıdır.

Belə ki, I qrup ixtisaslar, əsasən, kompüterlərin iqtisadiyyatın müxtəlif sahələrində-proqramlaşdırma, mühəndislik, menecment, neft sənayesində tətbiqi, neft-qaz sənayesi üzrə mühəndis-menecerlərin hazırlanması, ekologiya kimi çox vacib sahələri əhatə edir və bu sahələr üzrə yüksək səviyyəli kadrlar hazırlanması ölkəmizin marağı baxımından çox faydalıdır.

V qrup ixtisaslara gəldikdə isə, burada da ixtisasların bir çoxu konkret istiqamətdə ixtisaslaşmış ali məktəbə aiddir. (Bakı Ali Qızlar Seminariyasında pedaqogika və psixologiya ilə bağlı ixtisaslar).

Digər ixtisaslar isə əsasən dövlət və bələdiyyə idarəetməsi, gömrük işləri və turizmlə bağlı ixtisaslardır ki, ölkəmizin dünyaya inteqrasiya etdiyi bir dövrdə bu sahələrdə də yüksəksəviyyəli mütəxəssislərə böyük ehtiyac vardır.

IV qrup ixtisaslar üzrə kadr hazırlığı aparılan özəl ali məktəblərin sayının azlığı da təbii görünməlidir. Belə ki, bu sahədə özəl ali məktəblərin maddi-texniki bazasının kifayət qədər geniş olmaması, kadr potensialının yüksək səviyyədə olmaması və s. amillər bu sahədə özəl ali məktəblərdə kadr hazırlığı aparılması imkanlarını minimuma endirir. Lakin son illər bir neçə özəl ali məktəblərdə göstərilən bu amillərin inkişafında xeyli uğurlu addımlar atıldığını nəzərə alsaq, yaxın gələcəkdə IV qrup ixtisaslar üzrə kadr hazırlığı aparılan özəl ali məktəblərin sayının artacağı qənaətinə gəlmək olar.

Özəl ali məktəblərdə, ümumilikdə, hansı qrup ixtisasların daha çox tələbə cəlb etməsini hiss etmək üçün son 6 tədris ilində özəl ali məktəblərə qəbul olunmuş tələbələrin, ixtisas qrupları üzrə, sayına, bakalavr və magistratura pillələrində qruplar üzrə ixtisasların ali məktəblər arasında say baxımından necə paylanması prosesinə, eləcə də həmin illərdə ayrı-ayrı özəl ali məktəbələrə tələbə qəbulunun statistik göstəricilərinə nəzər salaq. (bax: cədvəl 1,2,3,4,5). Bunlarla yanaşı, ixtisas qrupları üzrə tələbə qəbulunun dinamikasını qrafik şəkildə verək. (bax:səh 99-105).

| İxtisas qrupları | 1997 -1998 | | | 1998-1999 | | | 1999 -2000 | | | 2000-2001 | | | 2001-2002 | | | 2002-2003 | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | qəbul planı | qəbul olub | faiz | qəbul planı | qəbul olub | faiz | qəbul planı | qəbul olub | faiz | qəbul planı | Qəbul olub | faiz | qəbul planı | qəbul olub | faiz | qəbul planı | Qəbul olub | faiz |
| I | 745 | 90 | 12 | 775 | 156 | 21 | 510 | 141 | 28 | 440 | 55 | 12 | 750 | 69 | 9 | 685 | 352 | 51 |
| II | 712 | 155 | 21 | 1163 | 891 | 77 | 1172 | 343 | 29 | 902 | 61 | 7 | 1090 | 897 | 82 | 1240 | 1065 | 85 |
| III | 1484 | 1066 | 71 | 2349 | 2089 | 89 | 1720 | 1474 | 86 | 1169 | 514 | 44 | 2393 | 2026 | 84 | 2270 | 2116 | 93 |
| IV | 70 | 42 | 60 | 310 | 171 | 55 | 254 | 244 | 96 | 270 | 105 | 39 | 260 | 185 | 71 | 140 | 140 | 100 |
| V | 1070 | 199 | 18 | 1076 | 540 | 50 | 325 | 177 | 54 | 338 | 58 | 17 | 1425 | 215 | 15 | 1205 | 857 | 71 |
| VI | 12 | 2 | 16 | - | - | - | - | - | - | - | - | - | 15 | 3 | 20 | 35 | 10 | 28 |
| VII | 60 | 21 | 35 | - | - | - | - | - | - | - | - | - | 40 | 14 | 35 | 45 | 15 | 33 |
| Cəmi | 4153 | 1575 | 38 | 5673 | 3847 | 68 | 3981 | 2379 | 60 | 3119 | 793 | 25 | 6373 | 3409 | 53 | 5620 | 4555 | 81 |

Cədvəl 1

| Özəl ali məktəblər | I qrup | | II qrup | | III qrup | | IV qrup | |
|---|---|---|---|---|---|---|---|---|
| | B | M | B | M | B | M | B | M |
| Azərbaycan Universiteti | - | - | 3 | 1 | 4 | 3 | - | - |
| Asiya Universiteti | - | - | 3 | 1 | 6 | 3 | - | - |
| Ali İctimai-siyasi Kollec | - | - | 1 | 1 | 6 | 2 | - | - |
| Azərb. Beynəlxalq Universiteti | 4 | - | 4 | 2 | 5 | 6 | 5 | - |
| Ali Diplomatiya Kolleci | 1 | - | 1 | - | 6 | 8 | - | - |
| Bakı Biznes Universiteti | - | - | 7 | - | 1 | - | - | - |
| Bakı Ali Pedaqoji Qızlar Semin. | 1 | - | 1 | - | 4 | - | - | - |
| Xəzər Universiteti | 3 | 3 | 3 | 8 | 8 | 12 | 1 | - |
| Qərb Universiteti | 5 | - | 3 | 5 | 8 | 3 | - | - |
| Qafqaz Universiteti | 1 | 1 | 2 | 2 | 2 | 2 | - | - |
| Müstəqil Azərbaycan Universiteti | 1 | - | 2 | - | 4 | - | - | - |
| Odlar yurdu Universiteti | 3 | 2 | 2 | 2 | 2 | 2 | 3 | - |
| Təfəkkür Universiteti | 3 | 1 | 4 | 1 | 4 | 3 | 1 | - |
| Naxçıvan Özəl Universiteti | 2 | - | 2 | - | 5 | - | - | - |
| Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | - | - | 3 | - | - | - | - | - |

Cədvəl 2

| Özəl ali məktəblər | V Qrup | | VI qrup | | VII Qrup | | VIII qrup | |
|---|---|---|---|---|---|---|---|---|
| | B | M | B | M | B | M | B | M |
| Azərbaycan Universiteti | 3 | - | - | - | - | - | - | - |
| Asiya Universiteti | - | - | - | - | - | - | - | - |
| Ali İctimai-siyasi Kollec | - | - | - | - | - | - | - | - |
| Azərb. Beynəlxalq Universiteti | 5 | 1 | - | - | - | - | - | - |
| Ali Diplomatiya Kolleci | 1 | - | - | - | - | - | - | - |
| Bakı Biznes Universiteti | 3 | - | - | - | - | - | - | - |
| Bakı Ali Pedaqoji Qızlar Semin. | 4 | 5 | - | - | - | - | - | - |
| Xəzər Universiteti | 1 | - | - | - | - | - | - | - |
| Qərb Universiteti | 2 | - | - | - | - | - | - | - |
| Qafqaz Universiteti | 2 | 1 | - | - | - | - | - | - |
| Müstəqil Azərbaycan Univers. | 2 | - | - | - | - | - | - | - |
| Odlar yurdu Universiteti | 2 | - | - | - | - | - | - | - |
| Təfəkkür Universiteti | 2 | - | - | - | - | - | - | - |
| Naxçıvan Özəl Universiteti | 1 | - | - | - | - | - | - | - |
| Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | - | - | - | - | - | - | - | - |

Cədvəl 3

| Özəl ali məktəblər | 1997/98 | | | 1998/99 | | | 1999/2000 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Qəbul planı | Qəbul olub | Faiz | Qəbul planı | Qəbul olub | Faiz | Qəbul planı | Qəbul olub | Faiz |
| Azərbaycan Universiteti | 335 | 156 | 47 | 335 | 273 | 81 | 335 | 249 | 74 |
| Asiya Universiteti | 230 | 103 | 45 | 435 | 217 | 50 | 385 | 370 | 96 |
| Ali İctimai-Siyasi Kollec | - | - | - | 355 | 201 | 60 | 200 | 159 | 79 |
| Azərb. Beynəlxalq Univers. | - | - | - | 495 | 273 | 55 | 380 | 365 | 96 |
| Ali Diplomatiya Kolleci | 318 | 116 | 36 | 438 | 212 | 48 | 320 | 269 | 84 |
| Bakı Biznes Universiteti | - | - | - | 400 | 218 | 56 | 330 | 330 | 100 |
| Bakı Ali Pedaqoji Qızlar Seminariyası | 240 | 123 | 51 | 365 | 211 | 58 | 365 | 318 | 87 |
| Xəzər Universiteti | 340 | 122 | 36 | 495 | 241 | 49 | 360 | 216 | 60 |
| Qərb Universiteti | 330 | 129 | 39 | 340 | 221 | 65 | 340 | 227 | 67 |
| Qafqaz Universiteti | 350 | 123 | 35 | 390 | 202 | 52 | 240 | 225 | 94 |
| Müstəqil Azərbaycan Univer. | - | - | - | - | - | - | 475 | 268 | 56 |
| Odlar yurdu Universiteti | 500 | 172 | 34 | 595 | 261 | 44 | 410 | 358 | 87 |
| Təfəkkür Universiteti | 385 | 133 | 35 | 425 | 246 | 58 | 415 | 341 | 82 |
| Naxçıvan Özəl Universiteti | - | - | - | - | - | - | - | - | - |
| Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | - | - | - | - | - | - | - | - | - |
| Cəmi | 3028 | 1178 | 39 | 5068 | 2776 | 55 | 4555 | 3695 | 81 |

Cədvəl 4

| Özəl ali məktəblər | 2000-2001 | | | 2001-2002 | | | 2002-2003 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Qəbul planı | Qəbul olub | Faiz | Qəbul planı | Qəbul olub | Faiz | Qəbul planı | Qəbul olub | Faiz |
| Azərbaycan Universiteti | 283 | 193 | 68 | 315 | 151 | 48 | 24 | 0 | 0 |
| Asiya Universiteti | 286 | 209 | 73 | 265 | 153 | 58 | - | - | - |
| Ali İctimai-Siyasi Kollec | 280 | 200 | 71 | 200 | 152 | 76 | 155 | 42 | 27 |
| Azərb. Beynəlxalq Univers. | 595 | 572 | 96 | 890 | 670 | 75 | 850 | 334 | 39 |
| Ali Diplomatiya Kolleci | 225 | 146 | 65 | 180 | 112 | 62 | - | - | - |
| Bakı Biznes Universiteti | 320 | 256 | 80 | 210 | 43 | 20 | - | - | - |
| Bakı Ali Pedaqoji Qızlar Seminariyası | 380 | 288 | 76 | 230 | 167 | 73 | 305 | 59 | 19 |
| Xəzər Universiteti | 375 | 245 | 65 | 245 | 143 | 58 | 300 | 24 | 8 |
| Qərb Universiteti | 294 | 223 | 76 | 325 | 176 | 54 | 305 | 56 | 18 |
| Qafqaz Universiteti | 180 | 111 | 62 | 235 | 137 | 58 | 200 | 96 | 48 |
| Müstəqil Azərbaycan Univer. | 235 | 81 | 34 | - | - | - | - | - | - |
| Odlar yurdu Universiteti | 395 | 230 | 58 | 336 | 195 | 58 | 305 | 64 | 21 |
| Təfəkkür Universiteti | 385 | 227 | 59 | 280 | 120 | 43 | 200 | 36 | 18 |
| Naxçıvan Özəl Universiteti | 275 | 125 | 45 | 270 | 160 | 59 | 220 | 78 | 35 |
| Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | - | - | - | - | - | - | 255 | 4 | 2 |
| Cəmi | 4508 | 3106 | 69 | 3981 | 2379 | 60 | 3119 | 793 | 25 |

Cədvəl 5

# I ixtisas qrupu




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 745 | 775 | 510 | 440 | 750 | 685 |
| Qəbul olunub | 90 | 156 | 141 | 55 | 69 | 352 |
| Faiz | 12 | 21 | 28 | 12 | 9 | 51 |

# II ixtisas qrupu




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 712 | 1163 | 1172 | 902 | 1090 | 1240 |
| Qəbul olunub | 155 | 891 | 343 | 61 | 897 | 1065 |
| Faiz | 21 | 77 | 29 | 7 | 82 | 85 |

# III ixtisas qrupu




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 1484 | 2349 | 1720 | 1169 | 2393 | 2270 |
| Qəbul olunub | 1066 | 2089 | 1474 | 514 | 2026 | 2116 |
| Faiz | 71 | 89 | 86 | 44 | 84 | 93 |

# IV ixtisas qrupu




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 70 | 310 | 254 | 270 | 260 | 140 |
| Qəbul olunub | 42 | 171 | 244 | 105 | 185 | 140 |
| Faiz | 60 | 55 | 96 | 39 | 71 | 0 |

# V ixtisas qrupu




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 1070 | 1076 | 325 | 338 | 1425 | 1205 |
| Qəbul olunub | 199 | 540 | 177 | 58 | 215 | 857 |
| Faiz | 18 | 50 | 54 | 17 | 15 | 71 |

# VI ixtisas qrupu




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 12 | 0 | 0 | 0 | 15 | 35 |
| Qəbul olunub | 2 | 0 | 0 | 0 | 3 | 10 |
| Faiz | 16 | 0 | 0 | 0 | 20 | 28 |

# VII ixtisas qrupu




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 60 | 0 | 0 | 0 | 40 | 45 |
| Qəbul olunub | 21 | 0 | 0 | 0 | 14 | 15 |
| Faiz | 35 | 0 | 0 | 0 | 35 | 33 |

1995-ci ildən dövlət qeydiyyatından keçmiş özəl ali məktəblərə tələbə qəbulu TQDK tərəfindən həyata keçirilir. Tələbə qəbulunun TQDK tərəfindən aparıldığı əvvəlki illərdə özəl ali məktəblərin özləri də əlavə tələbə qəbulu aparmışlar və qəbul olunanların bir hissəsi TQDK tərəfindən, digər hissəsi isə sərbəst qəbul olunanlardır. Yalnız 1997/-98-ci tədris ilindən başlayaraq özəl ali məktəblərə tələbə qəbulunun aparılmasına TQDK ciddi nəzarət etməyə başlamışdır və beləliklə də məhz həmin ildən etibarən özəl ali məktəblərə qəbul olunan tələbələr yalnız TQDK tərəfindən göndərilir. Bunu nəzərə alaraq məhz 1997-2002-ci illər aralığında qəbul planı, qəbul olanların sayı və qəbulolma faizi baxımından özəl ali məktəblərin müqayisəli dinamikasını, eləcə də həmin aralıq üçün özəl ali məktəblər şəbəkəsinin ümumi dinamikasını qrafik şəkildə verək. (bax:səh 107-122).

# Azərbaycan Universiteti




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 335 | 335 | 335 | 283 | 315 | 24 |
| Qəbul olunub | 156 | 273 | 249 | 193 | 151 | 0 |
| Faiz | 47 | 81 | 74 | 68 | 48 | 0 |

# Asiya Universiteti




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 230 | 435 | 385 | 286 | 265 | 0 |
| Qəbul olunub | 103 | 217 | 370 | 209 | 153 | 0 |
| Faiz | 45 | 50 | 96 | 73 | 58 | 0 |

# Ali İctimai Siyasi Kollec




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 0 | 355 | 200 | 280 | 200 | 155 |
| Qəbul olunub | 0 | 201 | 159 | 200 | 152 | 42 |
| Faiz | 0 | 60 | 79 | 71 | 76 | 27 |

# Azərbaycan Beynəlxalq Universiteti




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 0 | 495 | 380 | 595 | 890 | 850 |
| Qəbul olunub | 0 | 273 | 365 | 572 | 670 | 334 |
| Faiz | 0 | 55 | 96 | 96 | 75 | 39 |

# Ali Diplomatiya Kolleci




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 318 | 438 | 320 | 225 | 180 | 0 |
| Qəbul olunub | 116 | 212 | 269 | 146 | 112 | 0 |
| Faiz | 36 | 48 | 84 | 65 | 62 | 0 |

# Bakı Biznes Universiteti




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 0 | 400 | 330 | 320 | 210 | 0 |
| Qəbul olunub | 0 | 218 | 330 | 256 | 43 | 0 |
| Faiz | 0 | 56 | 100 | 80 | 20 | 0 |

# Bakı Ali  Pedaqoji Qızlar Seminariyası




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 240 | 365 | 365 | 380 | 230 | 305 |
| Qəbul olunub | 123 | 211 | 318 | 288 | 167 | 59 |
| Faiz | 51 | 58 | 87 | 76 | 73 | 19 |

# Xəzər Universiteti




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 340 | 495 | 360 | 375 | 245 | 300 |
| Qəbul olunub | 122 | 241 | 216 | 245 | 143 | 24 |
| Faiz | 36 | 49 | 60 | 65 | 58 | 8 |

# Qərb Universiteti




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 330 | 340 | 340 | 294 | 325 | 305 |
| Qəbul olunub | 129 | 221 | 227 | 223 | 176 | 56 |
| Faiz | 39 | 65 | 67 | 76 | 54 | 18 |

## Qafqaz Universiteti




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 350 | 390 | 240 | 180 | 235 | 200 |
| Qəbul olunub | 123 | 202 | 225 | 111 | 137 | 96 |
| Faiz | 35 | 52 | 94 | 62 | 58 | 48 |

# Műstəqil Azərbaycan Universiteti




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 0 | 0 | 475 | 235 | 0 | 0 |
| Qəbul olunub | 0 | 0 | 268 | 81 | 0 | 0 |
| Faiz | 0 | 0 | 56 | 34 | 0 | 0 |

# Odlar Yurdu Universiteti




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 500 | 595 | 410 | 395 | 336 | 305 |
| Qəbul olunub | 172 | 261 | 358 | 230 | 195 | 64 |
| Faiz | 34 | 44 | 87 | 58 | 58 | 21 |

# Təfəkkür Universiteti




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 385 | 425 | 415 | 385 | 280 | 200 |
| Qəbul olunub | 133 | 246 | 341 | 227 | 120 | 36 |
| Faiz | 35 | 58 | 82 | 59 | 43 | 18 |

# Naxçıvan Őzəl Universiteti




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 0 | 0 | 0 | 275 | 270 | 220 |
| Qəbul olunub | 0 | 0 | 0 | 125 | 160 | 78 |
| Faiz | 0 | 0 | 0 | 45 | 59 | 35 |

## Azərbaycan Əmək və Sosial Műnasibətlər Akademiyası




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 0 | 0 | 0 | 0 | 0 | 255 |
| Qəbul olunub | 0 | 0 | 0 | 0 | 0 | 4 |
| Faiz | 0 | 0 | 0 | 0 | 0 | 2 |

# Őzəl ali məktəblərdə qəbul planı, tələbə qəbulu və qəbul faizinin űmumi dinamikası (1997-2002-ci illər űzrə)




| | 1997-1998 | 1998-1999 | 1999-2000 | 2000-2001 | 2001-2002 | 2002-2003 |
|---|---|---|---|---|---|---|
| Qəbul planı | 3028 | 5068 | 4555 | 4508 | 3981 | 3119 |
| Qəbul olunub | 1178 | 2776 | 3695 | 3106 | 2379 | 793 |
| Faiz | 39 | 55 | 81 | 69 | 60 | 25 |

Yuxarıdakı cədvəllərdən, eləcə də özəl ali məktəblərin dinamika qrafiklərindən göründüyü kimi, son 3 tədris ilində özəl ali məktəblərə tələbə qəbulu planı və qəbul olan tələbələrin sayı tədricən azalmağa başlamışdır. Bunun müxtəlif səbəblərini göstərmək olar. O cümlədən:

1. 2002-2003-cü tədris ilində orta məktəb məzunlarının sayının əvvəlki illərə nisbətən xeyli az olması;
2. dövlət ali məktəblərində əvvəlki illərə nisbətən ödənişli təhsil üçün qəbul planının tədricən artması;
3. bu illər ərzində 4 özəl ali məktəbin fəaliyyətinin dayandırılması və 4 özəl ali məktəbə isə 2002-2003-cü tədris ilində tələbə qəbulunun aparılmaması;
4. özəl ali məktəblərin məzunlarının dövlət təşkilatlarında işə düzəlmə prosesində süni problemlərin yaradılması;

Bunlar, xüsusən də 3-cü və 4- cü amil, bir tərəfdən, rəqəmlər baxımından qəbul prosesinə mənfi təsir göstərmişdirsə, digər tərəfdən, fikrimizcə daha təhlükəli təsir, ictimaiyyətdə özəl ali məktəblərə qarşı qorxu və inamsızlıq hisslərinin yüksəlməsinə səbəb olmuşdur ki, bu da son məqamda özəl ali məktəblərdə təhsil almağa meylli olan abituriyentlərin sayının azalmasına gətirib çıxartmışdır.

Qeyd edək ki, bu barədə özəl ali məktəbəlrin rektorları ilə müzakirə zamanı onlar yuxarıda göstərilən səbəblərdən hər bir amilin özəl ali məktəblərdə tələbə qəbulu prosesinə müəyyən mənfi təsirini önə çəkdikləri halda, müxtəlif özəl ali məktəblərin (Odlar Yurdu Universiteti, Qafqaz Universiteti, Ali Gctimai-Siyasi Kollec, Xəzər Universiteti, Azərbaycan Universitetinin, təxminən, 60 tələbəsinin fikri öyrənilmişdir) tələbələri ilə müzakirə zamanı əsas səbəbin son iki amillə bağlılığı diqqət çəkir.

Bütün bu deyilənlər özəl ali məktəblərdə qəbul prosesinin statistik zəifləməsinə səbəb olur ki, bu da özəl ali məktəblərin fəaliyyətində ciddi çətinliklər yaradır və belə davam edərsə, yaxın gələcəkdə özəl ali məktəblərin tələbə çatışmamazlığı kimi ciddi problemlə üzləşməsi təhlükəsini doğurur.

Odur ki, fəaliyyətdə olan təhsil qanununun, eləcə də öz nizamnamələrinin uyğun maddələrinin gücündən istifadə edərək özəl ali məktəblər qəbul planı dolmadığı təqdirdə özləri əlavə qəbul keçirmək hüququnu bərpa etməlidirlər. Əgər icra orqanları buna etiraz edərlərsə, onların iştirakı ilə bu kompaniyanın keçirilməsinə nail olmaq lazımdır. Ancaq bu yolla özəl ali məktəblər tələbə kontingentinin formalaşdırılması işini stabilləşdirə bilər və öz fəaliyyətini inamla qura bilərlər.

Yuxarıda aparılan araşdırmalar və müqayisələr göstərir ki, hazırkı qəbul qaydası özəl ali məktəblərin ruhuna uyğun gəlmir. Odur ki, onun təkmilləşdirilməsi vacibdir. Bu, Azərbaycanda demokratik dövlət “statusu” qazanmaq istiqamətində islahatlar keçirilməsinin, “asiyalılıqdan” çıxıb “avropalaşmağa”, ictimai həyatın demokratikləşməsinə doğru hərəkətin təzahürlərindən biri olmaqla bərabər, özəl ali təhsillə bağlı Avropa, Qərb standartlarının Azərbaycana gətirilməsi üçün möhkəm zəmin yaradardı.

## 2.2. Özəl ali məktəblərin "professioqramması" və onun optimallaşdırılması məsələləri

90-cı illərin əvvəllərində Azərbaycanın ictimai-siyasi həyatında tarixi dönüş oldu. Sovet quruluşunun dağılması nəticəsində dövlət müstəqilliyi qazanan Azərbaycanda 1991-ci ildən etibarən yaranmağa başlayan özəl ali təhsil müəssisələri Azərbaycan ali təhsilində öz yerini tutur, respublika əhalisinin sosial psoxologiyasında ona münasibət ildən-ilə müsbət istiqamətdə dəyişir.

Qabaqcıl özəl universitetlər öz tədris proqramlarında ingilis dilinin tədrisinə xüsusi yer verməklə ingilis dilini yaxşı bilən və bugünün-sabahın tələblərinə cavab verə biləcək kadrların hazırlanmasına çalışırlar.

| Özəl ali məktəblər | İngilis dili üzrə tədris yükü | cəmi saat |
|---|---|---|
| Azərbaycan Universiteti | 4 semestr, həftədə 4 saat | 272 |
| Asiya Universiteti | 4 semestr, həftədə 4 saat | 272 |
| Ali İctimai-siyasi Kollec | 4 semestr, həftədə 4 saat | 272 |
| Azərbaycan Beynəlxalq Universiteti. | 4 semestr, həftədə 4 saat | 272 |
| Ali Diplomatiya Kolleci | 4 semestr, həftədə 4 saat | 272 |
| Bakı Biznes Universiteti | 4 semestr, həftədə 3 saat | 210 |
| Bakı Ali Pedaqoji Qızlar Seminariyası. | 2 semestr, həftədə 4 saat | 136 |
| Xəzər Universiteti | 3 semestr, həftədə 11 saat | 544 |
| Qərb Universiteti | 4 semestr, həftədə 6 saat | 408 |
| Qafqaz Universiteti | 4 semestr, həftədə 3 saat | 210 |
| Müstəqil Azərbaycan Universiteti. | 4 semestr, həftədə 3 saat | 210 |
| Odlar Yurdu Universiteti | 4 semestr, həftədə 3 saat | 210 |
| Təfəkkür Universiteti | 3 semestr, həftədə 4 saat | 210 |
| Naxçıvan Özəl Universiteti | 4 semestr, həftədə 3 saat | 210 |
| Azərbaycan Əmək və Sosial Münas. Akadem. | 2 semestr, həftədə 4 saat | 136 |

Bir sıra ali məktəblərdə ingilis dilinin tədrisdə əsas yer tutması dünyanın qabaqcıl ali məktəblərində sınaqdan çıxmış dərsliklərdən istifadə etməyə imkan yaradır. Lakin,

təbii ki, müxtəlif ali məktəblər bu imkandan müxtəlif cür istifadə edir. Bəziləri bunu reallığa çevirir (Xəzər Universiteti, Qərb Universiteti), qalanları isə yenə də sovet təhsil sistemində tətbiq olunmuş dərsliklərdən və tədris metodlarından istifadə olunmasına üstünlük verirlər. Qeyd edək ki, bir sıra özəl ali məktəblərdə xeyli sayda fənlər ingilis dilində tədris olunur. Məsələn, Xəzər Universitetində dərslərin 60-70%-i, Qərb universitetində isə təxminən 15%-i ingilis dilində tədris olunur. Bu hal ölkəmizdə müəyyən ixtisaslar üzrə ingilis dilli mütəxəssislərə olan ehtiyacı, qismən də olsa, ödəməyə imkan verir.

Bununla bərabər qeyd etmək lazımdır ki, bəzi özəl ali məktəblərdə ingilis dilində tədrisə o qədər aludə olmuşlar ki, ingiliscə danışıq dilini hələ kifayət qədər bilməyən qruplarda (məsələn: Müstəqil Azərbaycan Universitetinin hüquq fakültəsində) ingilis dilində mühazirələr oxunurdu. Təbii ki, belə qurulan tədris prosesinin səmərəsi və kadr hazırlığının səviyyəsi yüksək ola bilməz. Nəzəriyyə və praktika sübut edir ki, şəraitdən asılı olaraq mühazirənin məzmununun qavranılması 20-50 faiz təşkil edir. Buna əsaslanaraq ingilis dilini yaxşı bilməyən tələbə kontingentinə həmin dildə mühazirələr oxunmasını təşkil edən özəl ali məktəblərin kadr hazırlığı üzrə fəaliyyətini, heç şübhəsiz, səmərəli hesab etmək çox çətindir. Hətta ingilis dilini yaxşı bilən qruplarda mühazirələri həmin dildə oxuyan bəzi ali məktəblər tələbənin ingilis dilini yaxşı bilməsini kadr hazırlığının əsas meyarı hesab edirlər. Ancaq unutmaq lazım deyil ki, həmin tələbələr ingilis dili mütəxəssisi deyil, müxtəlif konkret ixtisaslar üzrə mütəxəssis kimi hazırlanır. Odur ki, əsas meyar konkret sahəyə aid ixtisas dərslərinin yüksək səviyyədə təşkil olunmasıdır. Əlbəttə, bununla yanaşı ingilis dilinin yaxşı öyrənilməsi yüksək səviyyəli kadr hazırlığı prosesinə ancaq müsbət təsir göstərir.

Özəl universitetlərin fəaliyyətində müxtəlif Qərb və Şərq dillərinin öyrənilməsi də diqqət mərkəzində durur.

| Özəl ali məktəblər | Tədris olunan Qərb dilləri | Tədris olunan Şərq dilləri |
|---|---|---|
| Azərbaycan universiteti | İngilis, fransız, alman | Ərəb |
| Asiya Universiteti | İngilis, fransız | Ərəb, fars, yapon |
| Ali İctimai-siyasi Kollec | İngilis, fransız | Ərəb, fars, türk |
| Azərbaycan Beynəlxalq Universit. | İngilis | Tədris olunmur |
| Ali Diplomatiya Kolleci | İngilis, fransız, alman, ispan | Ərəb |
| Bakı Biznes Universiteti | İngilis, fransız, | Ərəb |
| Bakı Ali Pedaqoji Qızlar Sem. | İngilis | Fars |
| Xəzər Universiteti | İngilis, alman, fransız, ispan | Ərəb, fars |
| Qərb Universiteti | İngilis, alman, fransız, ispan | Ərəb |
| Qafqaz Universiteti | İngilis | Türk, ərəb |
| Müstəqil Azərbaycan Univers. | İngilis | Tədris olunmur |
| Odlar Yurdu Universiteti | İngilis, fransız | Tədris olunmur |
| Təfəkkür Universiteti | İngilis, alman, fransız, ispan | Türk |
| Naxçıvan Özəl Universiteti | İngilis | Fars |
| Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | İngilis | Tədris olunmur |

Qeyd etmək lazımdır ki, bu dillər əsasən ikinci xarici dil kimi öyrənilir. Lakin Asiya Universitetində şərqşünaslıq ixtisasında yapon, Qafqaz Universitetində türk dili və ədəbiyyatı ixtisasında türk dili, Xəzər Universitetində ingilis/ərəb, ingilis/fars ixtisaslarında ərəb və fars dilləri II ixtisas dilləri kimi keçirilir.

Əgər özəl universitetlərin ixtisaslar spektrinə nəzər salsaq, görərik ki, burada bir çox istiqamətlərdə 89 ixtisas üzrə kadr hazırlığı aparılır. Bu ixtisasların təhlili göstərir ki, özəl universitetlərdə ən geniş yayılmış ixtisas beynəlxalq iqtisadi əlaqələr və maliyyə və kredit ixtisaslarıdır.

Ölkəmizdə fəaliyyət göstərən 15 özəl ali məktəbdən 11-də bu ixtisaslar üzrə kadr hazırlığı aparılır. Sonra geniş kadr hazırlığı aparılan ixtisaslar olaraq jurnalistika (10 ali məktəb), ibtidai təhsilin pedaqogikası və metodikası (9 ali məktəb), gömrük

işinin təşkili, ingilis dili, iqtisadiyyatın hüquqi tənzimlənməsi (7 ali məktəb) ixtisaslarını göstərmək olar.

Mövcud şəraitdə bu məlumatlar ümumilikdə özəl ali məktəblərin xeyrinə deyil. Belə ki, kadr hazırlığında olan bu paralellik dövlətə bu vəziyyətin qeyri-rasional olması fikrini söyləməyə əsas verir. Cəmiyyətdə formalaşan "iqtisadiyyat üzrə kadrlar Azərbaycan Dövlət İqtisad Universitetində, hüquq sahəsində kadrlar Bakı Dövlət Universitetində, müxtəlif xarici dillər üzrə kadrlar Azərbaycan Dillər Universitetində, tibb sahəsində kadrlar Azərbaycan Tibb Universitetində və s. hazırlanmalıdır" kimi fikirlərin qarşısına sanballı faktlar qoymaq üçün xeyli zaman tələb olunur. Bu yalnız müəyyən vaxtdan sonra, özəl ali məktəblərin məzunları bu sahələrdə dövlət ali məktəblərin məzunlardan zəif olmadıqlarını sübut edəndən sonra mümkün olacaq. Amma bu gün özəl ali məktəblərin məzunlarının dövlət təşkilatlarında işə düzəlmələrinə addımbaşı maneçiliklər törədilən bir şəraitdə bunu sübut etməyin nə qədər çətin olacağı göz qabağındadır. Bunun üçün özəl və dövlət ali məktəblərin məzunları arasında heç bir ayrıseçkilik olmamalı, məzunların işlə təmin olunmasında bütün maneçiliklər aradan qaldırılmalı, ümumiyyətlə mütəxəssisin özəl yoxsa dövlət ali məktəbini bitirməsi deyil, onun hansı bilik sahibi olması ön plana çəkilməlidir. Lakin bu gün reallıq bunun əksinədir. Məzunları işə düzəlmə prosesində maneçiliklərlə qarşılaşan özəl ali məktəblərin uyğun ixtisaslarına tələbə cəlb olunmasında böyük çətinliklər yaranır və bu da ümumiyyətlə özəl ali məktəbin fəaliyyətində təsirsiz ötüşmür. Odur ki, mümkün yollardan biri özəl ali məktəblərin öz imkanlarını nəzərə alıb özünün profilini, "professioqrammasını" müəyyən etməsi, yəni kadr hazırlığında paralelliyi aradan qaldırmaq üçün müəyyən istiqamətdə ixtisaslaşmasıdır. Qeyd edək ki, bu məsələyə müəyyən dövlət orqanları baxmalı olsalar, o zaman subyektivizm və amirlik elementləri ayrı-ayrı özəl ali məktəblərə münasibətdə özünü göstərə bilər ki, bu da öz növbəsində həmin ali məktəblərin həyatında digər neqativ proseslərin başlanğıcı ola bilər.

Azərbaycanın dünyaya inteqrasiya etdiyi bir dövrdə ingilis dili, beynəlxalq

iqtisadi münasibətlər, eləcə də bir sıra başqa ixtisaslar üzrə kadr hazırlanmasının vacibliyini geniş şərh etməyə heç ehtiyac da yoxdur. Bu sadəcə dövrün tələbidir.

Özəl universitetlərdə kadr hazırlığından danışarkən ən çox mübahisəyə səbəb olan ixtisaslardan biri hüquqşünaslıq ixtisasıdır. Həmişə müxtəlif elmi və qeyri-elmi dairələrdə, bu ixtisas üzrə kadr hazırlayan dövlət ali məktəblərində "bütün özəl universitetlər hüquqşünas hazırlayırlar, bu qədər hüquqşünas kimə lazımdır?" kimi fikirlər söylənilir. Elə bu fikirlərin nəticəsidir ki, 1999/2000-ci tədris ilində bir sıra özəl universitetlərə hüquqşünaslıq ixtisası üzrə tələbə qəbulu aparılmadı. Lakin bu qərarın nə dərəcədə düzgün olduğu və nə dərəcədə obyektivliyə söykəndiyi mübahisəli məsələdir. Heç olmazsa ona görə ki, elə həmin tədris ilində ali məktəblərə əlavə yerləşdirmə vaxtı həmin universitetlərdən bəzilərində (Azərbaycan Beynəlxalq Universiteti, Odlar yurdu Universiteti və Təfəkkür Universiteti) hüquqşünaslıq ixtisası üzrə yenidən qəbul aparıldı. Bu gün fəaliyyətdə olan özəl ali məktəblərdən yalnız üçündə – Azərbaycan, Odlar Yurdu və Azərbaycan Beynəlxalq Universitetlərində hüquqşünaslıq ixtisası üzrə kadr hazırlığı aparılır. Lakin artıq keyfiyyətli təhsili ilə ictimaiyyətdə kifayət qədər müsbət rəy qazanmış bir sıra özəl ali məktəblərimizdə də bu ixtisas üzrə kadr hazırlığının bərpa olunması işin xeyrinə olardı.

Ümumiyyətlə, özəl universitetlərdə ixtisaslardan danışanda aşağıdakı məsələlərə diqqət vermək lazımdır.

1. Özəl universitetlərdə istənilən ixtisas üzrə, o cümlədən, hüquqşünaslıq üzrə azsaylı tələbə qəbulu aparılır. Məsələn, 1998/99-cu tədris ilində hüquqşünas ixtisası üzrə 10 universitetə cəmi 225 tələbə (orta hesabla 1 ali məktəbə təxminən 23 tələbə), 1999/2000-ci tədris ilində isə 6 universitetə cəmi 175 tələbə (orta hesabla 1 ali məktəbə təxminən 29 tələbə) qəbul edilmişdir. Müqayisə üçün qeyd edək ki, 1999/2000-ci tədris ilində BDU-nun hüquqşünaslıq ixtisasına 225 tələbə qəbul edilmişdir. (Ümumilikdə özəl universitetlərə qəbul olunan tələbələrdən çox).

İnkişaf etməkdə olan ölkələrdə özəl universitetlərin inkişafını əsaslandıran şərtlərdən biri də bu universitetlərin, əsasən, kiçik ölçülü olmasıdır. Böyük

universitetlərdə bir ixtisas üzrə çoxsaylı kadr hızarlığı aparmaqdansa, həmin ixtisas üzrə müxtəlif universitetlərdə azsaylı kadr hazırlanması dünya təcrübəsində özünü sübut etmiş haldır. Bu baxımdan Azərbaycanda özəl universitetlərə bütün ixtisaslar üzrə azsaylı tələbə qəbulu aparılır və bu hal prosesə bir yarış xarakteri verir və sözsüz ki, kadr hazırlığında keyfiyyətin yüksəldilməsinə öz müsbət təsirini göstərə bilər.

2. Özəl universitetlərdə bir çox ixtisaslar üzrə, tədrisin ingilis dilində aparılmasına səy göstərilir. Doğrudur, bu məsələdə kadrla bağlı xeyli çətinliklər də mövcuddur. Lakin Xəzər Universitəsi, Qərb Universitetində yerli kadrların ciddi və obyektiv seçimi və eyni zamanda xaricdən dəvət olunan müəllimlər hesabına bu problem, demək olar ki, aradan qaldırılmışdır. “Təfəkkür”, “Odlar yurdu”, “Azərbaycan”, “Qafqaz” Universitetində və s. bu yolda xeyli irəliləyişlər vardır.

Tədris prosesinin effektliyinin mühüm şərtlərindən biri onun iştirakçılarının (həm mühazirə oxuyan müəllim, həm də tələbələrin) tədris dilini yaxşı bilməsidir. Azərbaycanın hazırkı durumunda bunu nəzərə almadan ingilis dilində tədrisə meyl göstərilməsi kadr hazırlığına mənfi təsir göstərir. Odur ki, ingilis dilində tədris aparan özəl ali məktəblər bu məsələni həmişə diqqət mərkəzində saxlamalıdırlar.

3. İlk dəfə məhz özəl universitetlərdə bir sıra yeni ixtisaslar üzrə kadr hazırlığına başlanmışdır. Bəzi lazımsız ixtisaslar və ixtisaslar içində lazımsız fənlər aradan götürülür və yerinə bu gün daha vacib olan fənlər tədris olunur.

Beləliklə, özəl universitetlər (bəziləri tamamilə, bəziləri qismən) müxtəlif ixtisaslar üzrə ingilisdilli kadrların hazırlanması kimi çox vacib bir yükü öz çiyinlərinə götürərək cəmiyyətə öz xidmətlərini göstərirlər.

Özəl ali məktəblərdə kadr hazırlığının ən mübahisəli sahələrindən biri də tibbi ixtisaslar üzrə kadr hazırlığı problemidir. Azərbaycan ictimaiyyətində bu sahədə geniş yayılmış belə bir fikir formalaşmışdır. 70 il müddətində yaradılan maddi-texniki bazaya və kadr potensialına malik olan Azərbaycan Dövlət Tibb Universiteti yüksək ixtisaslı həkimlər yetişdirə bilmirsə, bu göstəricilərə malik olmayan özəl ali məktəblərin bu sahədə fəaliyyətinə necə icazə vermək olar?

Hələ özəl ali məktəblər yenicə yaradılan vaxtlarda iqtisadiyyat, mühəndislik, hüquq və s. sahələrlə yanaşı tibbi sahədə də kadr hazırlığı aparılmasına münasibət, demək olar ki, eyni idi. Belə ki, o zamanlar fəaliyyət göstərən cəmi 3 özəl ali məktəbdən (Azərbaycan Universiteti, Qərb Universiteti, Xəzər Universiteti) birində - Xəzər Universitetində tibbi sahədə "ümumi müalicə işi" ixtisası üzrə kadr hazırlığı aparılırdı.

Lakin bu fakültənin fəaliyyəti yüksəksəviyyəli tibbi kadrlar hazırlanması üçün maddi-texniki bazanın kifayət qədər olmaması səbəbi ilə 1995-ci ildə DAEK tərəfindən akkreditədən keçmədi və Nazirlər Kabinetinin 28 dekabr 1995-ci il tarixli, 230s saylı sərəncamı ilə bu fakültənin tələbələrinin Azərbaycan Tibb Universitetinə keçirilməsi məqsədəuyğun hesab edildi.

Təbii ki, bundan sonra tibb fakültəsinin fəaliyyətində və ümumiyyətlə, yeni tələbələrin fakültəyə qəbulunda ciddi çətinliklər meydana çıxdı. Odur ki, rektorun 04 aprel 1996-cı il tarixli T/60 saylı əmri ilə tibb fakültəsinin fəaliyyəti dayandırıldı və beləliklə də, Azərbaycanda böyük ehtiyac duyulan yüksək səviyyəli ingilisdilli həkimlərin hazırlanması prosesinə müvəqqəti olaraq son qoyulmuş oldu. Bundan sonra xeyli müddət heç bir özəl ali məktəbdə tibbi kadr hazırlığı aparılmasına icazə verilmədi. Yalnız 1997/98-ci tədris ilində bir neçə özəl ali məktəbdə (Təfəkkür Universiteti, Odlar yurdu Universiteti, Xəzər Universiteti) "tibbi biologiya" ixtisası üzrə kadr hazırlanmasına rəsmi icazə verildi. Təbii ki, bu ixtisas üzrə kadr hazırlanması bu sahədə xeyli təcrübə əldə edilməsi və bazaların kifayət qədər genişləndirilməsinə təkan verdi və bəzi özəl ali məktəblər başqa tibbi sahələrdə də kadr hazırlığına başladılar.

Bu gün 3 özəl ali məktəbdə - "Azərbaycan Beynəlxalq" Universitetində müalicə işi, pediatriya, stomotologiya, tibbi biologiya, "Odlar yurdu" Universitetində müalicə işi, stomatologiya, , tibbi biologiya ,"Xəzər" Universitetində tibbi biologiya, ixtisasları üzrə kadr hazırlığı aparılır.

Qeyd edək ki, bu Universitetlərin müxtəlif klinika, xəstəxana, poliklinikalardan

tibbi baza kimi istifadə etməsi haqqında Səhiyyə Nazirliyilə uyğun müqavilələri var. Məsələnin bu cür gedişi bir neçə il bundan əvvəl rəsmi və qeyri-rəsmi dairələrdə "özəl ali məktəblərdə tibb fakültəsinin fəaliyyətinə yol verməк olmaz" kimi fikirlərin xeyli yumşalmasına və yaxın gələcəkdə bu problemin tamamilə aradan qalxacağına (çox asanlıqla olmasa da) ümid bəsləməyə əsas verir.

Beləliklə, özəl ali məktəblərin çoxprofilliyi onların fəaliyyətində çətinliklər yaradan səbəblərdən biridir. Bu, bir daha ixtisaslaşdırmanı optimallaşdırmaq zərurəti yaradır. Burada bütün özəl ali məktəblər üçün vahid layihə təklif etmək mümkün deyil, amma hamı üçün çoxprofillikdən azprofilliyə keçmək təklifi irəli sürülür. Hansı sahələri fəaliyyət dairəsinə daxil etmək üçün özəl ali məktəblər öz imkanlarını diqqətlə araşdırmalıdırlar.

## 2.3. Azərbaycan ali təhsilində “süzgəc” prosesi və özəl ali təhsilin perspektivləri

Bu gün ölkəmizdə 26 dövlət və 15 özəl ali məktəb fəaliyyət göstərir. Kiçik bir ölkədə mütəxəssis hazırlığının hansı səviyyədə getməsi, o cümlədən, təhsildə “süzgəc” prosesinin gedişi həmişə ön planda dayanmalıdır ki, bu qədər ali məktəbdən həyata keyfiyyətsiz kadr axını baş verməsin. Süzgəc prosesi nədir və ona təhsildə belə diqqətin vacibliyi nə ilə bağlıdır?

***Süzgəc*** dedikdə ali məktəbin tətbiq etdiyi təhsil modelinin seçmə prinsipləri-xüsusiyyətləri (imtahan keçirilmə mexanizmi, imtahan yoxlama-qiymətləndirmə prinsipləri, kursdan-kursa keçmə mexanizmi və s.) və bu prinsiplərin tədris prosesində nə qədər ciddi və obyektiv olaraq həyata keçirilməsi, beləliklə də, tələbələrin qəbul olunduqları vaxtdan ali məktəbi bitirərək hər hansı təşkilatda işə düzəlmələrinə qədər ciddi və düzgün seçmə sistemi keçmələri nəzərdə tutulur.

Ali təhsil gənclərin əmək fəaliyyətinə başlamasının birbaşa hazırlıq hissəsi kimi xeyli zaman aparır. Gənc mütəxəssis axtarışında olan təşkilatlar həmişə əmin olmaq istəyirlər ki, ali məktəblərdə tələbələr (müəyyən zamandan sonra həmin təşkilatların işçiləri olacaq gələcək məzunlar) ciddi seçmə prosesi keçirlər. Ümumiyyətlə, ali məktəblərin ölkədə mövcud iri təşkilat və şirkətlərlə əlaqəli işi həmişə təhsilə yalnız müsbət təsir göstərir.

Çünki işə götürən şirkət və təşkilatların ali məktəb məzunlarından və ümumiyyətlə, ali məktəbdən “tələb və istəkləri” təhsilin quruluşunun nizamlanmasında əsas amillərdən biri olmalıdır. Belə ki, şirkət və təşkilatlar işə düzəlmək üçün onlara müraciət edənlərdən hansının müəyyən edilmiş işə daha çox yararlı olduğunu (uyğun gəldiyini) araşdırmalıdır. Bu seçmə prosesi həmin şirkətlərə müəyyən xərc hesabına başa gəlir. Odur ki, bu əlavə xərclərdən azad olmaq üçün həmin təşkilatlar seçmə prosesinin ali məktəblərdə aparıldığına əmin olmaq istəyir. Ona görə də tələbənin ali məktəbdə hansı proqramla oxuması, lazım gələn bilik və vərdişlərə necə yiyələnməsi

həmişə işə qəbul edən təşkilatın diqqət mərkəzində olur. Bu baxımdan ali məktəblərdə süzgəc prosesinin necə getməsi həmin ali məktəbin gələcək məzunlarının işlə təmin olunmasına birbaşa təsir edir. Bir az da dərinə getsək, süzgəc prosesinin son məqamda ali məktəbin özü üçün "Olum ya ölüm" sualına çevrildiyinə əmin olarıq (Məzunları özünə iş tapa bilməyən ali məktəb kimə lazımdır?).

Qeyd edək ki, bu məsələ yalnız nəzəriyyə olaraq qalmır və artıq ölkəmizdə bir sıra qabaqcıl özəl ali məktəblərin (Xəzər Universiteti, Qərb Universiteti, Qafqaz Universiteti) fəaliyyətində özünü aydın biruzə verir. Belə ki, bu sahədə ölkəmizdə fəaliyyət göstərən bir çox xarici və yerli şirkətlərlə sıx əlaqələr yaradılmışdır. Gələcəkdə özlərinə yaxşı, savadlı işçilər seçmək məqsədilə müxtəlif şirkətlər bu Universitetlərdə görüşlər keçirir, özlərinin şərtlərini, tələblərini qoyurlar, gələcək işçilərə yaradılacaq şəraitləri açıqlayırlar və beləliklə də bugünün tələbələri arasında özlərinin potensial işçilərini tapmış olurlar. Qeyd edək ki, belə görüşlərin keçirilməsi, təşkilatlarla belə səmərəli əlaqələrin yaradılması tədris prosesinə də öz müsbət təsirini göstərir və əhali arasında adı çəkilən ali məktəblərin reytinqinin qalxmasına gətirib çıxarır. Belə ki, belə görüşlərdən ruhlanan, gələcəkdə özlərinə yaxşı və yüksəkmaaşlı iş tapacaqlarına bir növ qarant almış tələbələr tədrisdə yüksək nəticə göstərməyin vacibliyini bir daha anlayırlar, onlar və onların valideynləri bu ali məktəblərin məzunlarının "diplomlu işsizlər" olmayacaqlarını bir daha əyani olaraq görürlər. Bu nəticələr artıq bu universitetlərin fəaliyyətində öz bəhrəsini verir. Belə ki, Xəzər və Qərb və Qafqaz Universitetlərinin  məzunları arasında işlə təmin olunma faizi çox yüksəkdir (təxminən 90-95%). Universitetlərdən alınan məlumatlara görə tələbələrin xeyli hissəsi hələ ali təhsil aldıqları müddətdə yaxşı işlərdə çalışırlar. Qeyd edək ki, bu iki ali məktəbdə bu işlə xüsusi qurumlar məşğul olur. (Xəzər Universitetində Məşğulluq Mərkəzi, Qərb Universitetində isə məzunların işlə təminat mərkəzi).

Odlar Yurdu Universiteti və Təfəkkür Universitetinin tədris şöbəsindən alınan məlumatlara görə bu ali məktəblərdə də belə mərkəzlərin yaradılması planlaşdırılır.

Qeyd edək ki, bu istiqamətdə görülmüş işlərin nəticəsi olaraq Xəzər Universite-

tinə əvvəlcədən müəyyən təşkilatlardan sifarişlər də daxil olur. Belə ki, bir sıra təşkilatlar, o cümlədən "BM" hüquq firması, "Price Waterhouse" (Prays Voterhauz) şirkəti Xəzər Universitetinə, uyğun olaraq, beynəlxalq hüquq və beynəlxalq iqtisadi münasibətlər ixtisasları üzrə yüksək səviyyəli kadrlar hazırlamaq üçün (onların şərtləri ödəniləcəyi halda işə qəbul edəcəklərinə təminat verməklə) sifarişlər vermişlər. Bütün bunlar təhsildə seçmə prosesinin vacibliyinə ciddi sübutlardır.

Kennets Ərrou (103) təhsil sistemində seçmə prosesinin əhəmiyyəti haqqında belə yazır: "Əgər təhsil sistemi gənclərə əlavə bilik vermədən yalnız seçmə vəzifəsini yerinə yetirsəydi belə, cəmiyyət üçün böyük iqtisadi fayda vermiş olardı". Yüksək səviyyəli kadrların hazırlanması və onların sonrakı inkişaf mərhələlərini əhatə edən məsələlər üzrə bir ümumavropa metodologiyası da mövcuddur. Məhz təhsildə seçmə prosesi bu metodologiyanın əsas prinsiplərindən biridir (100).

Ümumiyyətlə, təhsildə süzgəc prosesini aşağıdakı müxtəlif amillərə görə izləmək olar:

1.Qəbul imtahanlarının keçirilmə mexanizmi; 2.Semestr imtahan yoxlama və qiymətləndirmə prinsipi; 3.Kursdan-kursa keçmə prosesi; 4.Qəbul olunmuş tələbələrin məzun olma prinsipləri.

Sadalanan bu əlamətlərin hamısı tələbələrin məzun olma mexanizminə bu və ya digər mənada xidmət etdiyindən əsas diqqətimizi bu prosesə yönəldəcəyik.

Azərbaycanda ali məktəblərə tələbə qəbulu mərkəzləşdirilmiş bir təşkilat - TQDK (Tələbə Qəbulu üzrə Dövlət Komissiyası) tərəfindən aparılır.

Mərkəzləşmə haqqında Amerika tədqiqatçısı Verner Hörç yazır: "Mərkəzləşmədə gözlənilən nəticəni hiss etmək üçün qərar qəbul edən hakimiyyətə kənar təsirlər olub-olmadığı haqqında düşünülməlidir" (90).

Bunun isə ən aydın yolu qərar qəbul edən hakimiyyətin tam müstəqil və ya özəl olmasıdır. Bu mənada TQDK müstəqil təşkilat deyil, onun fəaliyyəti onu yaradan yüksək dövlət təsisatlarından asılıdır. Odur ki, onun fəaliyyətində subyektivizm təzahürləri ola bilər.

Bəs təhsildə mərkəzləşmə nədir, onun müsbət və mənfi cəhətləri hansılarıdır? Mərkəzləşdirilmiş təhsildə birmodelli proqram həyata keçirilməsilə tələbələrə sınaqdan çıxmış geniş biliklər verilir. Digər tərəfdən isə məhz mərkəzləşmiş idarəyə görə hər cür dəyişkənlik, yenilik və xüsusən də fərdilik heçə enir.

Qeyd etmək lazımdır ki, Azərbaycan müstəqillik əldə edəndən sonra təhsildə mərkəzləşmə xeyli zəiflədi və ya yumşaldı. Bu, çox təbii səbəblərlə izah edilir. Əsas səbəb isə dərin iqtisadi böhran və bunun nəticəsində maaş, dərslik, maddi bazanın təmin olunmasının çətinləşməsi və bu səbəbdən də əmretmənin öz effektini itirməsidir (41,s.1). Belə bir dövrdə dövlət ali təhsil müəssisələri təşəbbüs göstərərək proqram və tədris məsələlərində dəyişmələr etmək əvəzinə, yeniliyi yenə də mərkəzdən umur və elə bu da dövlət ali məktəblərində dərin böhranın özəyidir. Məsələ burasındadır ki, proqram və tədris məsələlərində mərkəzə nisbətən daha praktik imkanları və təcrübəsi olan ali təhsil müəssisələri özləri təhsildə, tədrisdə lazımi dəyişikliklər və yeniləşmələr etməli və mərkəzin bu yeniləşmələri qəbul etməsinə çalışmalıdır.

Tələbə qəbulunun TQDK tərəfindən mərkəzləşdirilmiş qaydada aparılması, ən azı, dövlət ali məktəbləri üçün süzgəc prosesinə müsbət təsir göstərir.

Belə ki, qəbul imtahanlarının ali məktəblərin özləri tərəfindən keçirilməsi prosesində bir çox kənar amillərin (ali məktəbdə işləyənlərin uşaqlarına kifayət qədər güzəştlər, yüksək vəzifəli şəxslər tərəfindən təsirlər, xahişlər, tapşırıqlar və hətta korrupsiya və s.) təsiri danılmazdır.

Təbii ki, bu amillərin bəziləri, nəzəri olaraq, mərkəzləşmiş qəbul prosesində də mümkündür, amma bunun praktik çətinliyi də aydındır (İmtahanların testlə keçirilməsi, mərkəzləşdirilmiş kompüter sistemilə tənzimlənməsi, müvafiq dövlət orqanları tərəfindən nəzarət və s.).

Beləliklə, dövlət ali məktəblərinə tələbələr TQDK tərəfindən qəbul olunur (süzgəcin ilkin pilləsi) və süzgəcin sonrakı taleyi ali məktəbin tətbiq etdiyi təhsil modeli və tədris prosesində buna necə ciddi və düzgün əməl edilməsindən asılı olur.

Məlum olduğu kimi, dövlət ali məktəblərində tədris planları və proqramları konkret müddətə (4 il) nəzərdə tutulur. İndi qəbul olunma vaxtından məzunluq diplomuna gedən yolun əsas xüsusiyyətlərinə nəzər salaq (kursdan-kursa keçmə, semestr imtahan yoxlama və qiymətləndirmə prinsipləri və s.).

Qəbul olunmuş tələbələr ildə iki dəfə semestr imtahanları (hər semestr müəyyən fənlər üzrə imtahan, bəzi fənlər üzrə isə məqbullar) verirlər. İl boyu verdikləri imtahanların hamısından məqbul qiymətlər toplayan tələbələr növbəti kursa keçir. Hər hansı imtahandan qeyri-məqbul qiymət alan tələbə iki dəfə, bəzi hallarda isə üç dəfə təkrar imtahan vermək hüququna malikdir. Bu imkanlardan da istifadə edə bilməyənlər kursda qalır və həmin il oxuduqları fənləri (hətta imtahanlarda məqbul qiymət aldıqları?!) yenidən oxumalı olurlar. Qeyd etmək lazımdır ki, belə hallara (təkrar kursda qalma hadisələrinə) çox az-az rast gəlmək olur. Səbəb isə aydındır. Hər hansı imtahandan kəsilmiş tələbənin qısa müddət ərzində 2-3 dəfə təkrar imtahan vermək imkanı var. (Elə bu imkanların yaradılması kəsilmiş tələbəyə, nəyin bahasına olursa - olsun qiymət yazılmasına xidmət etmirmi?!).

Təbii ki, iki il dalbadal kursda qalan tələbənin ali məktəbdən xaric olunması təhlükəsi də kəsiri vaxtında ləğv etməni gücləndirən amillərdən biridir. Artıq kəsilmiş tələbə, necə olursa olsun, kəsirini ləğv etmək məcburiyyətində qalır və bunun üçün, lazım gələrsə, müxtəlif üsullara da (tapşırıq, xahiş və s.) əl atmalı olur və nəhayət, kəsirini ləğv edir. Beləliklə, 4 il başa çatdıqdan sonra məzunluq diplomu alan tələbələr arasında məzunluq diplomuna layiq olmayan, mütəxəssis kimi çalışmağa tamamilə hazır olmayan çoxsaylı məzunlara da rast gəlinir.

Belələrinin 4 illik təhsil müddəti başa çatdıqdan sonra məzun olmalarına səbəb dövlət təhsil sistemində süzgəc prosesinin zəif işləməsidir.

Qəbul imtahanlarının TQDK tərəfindən testlə aparılmasından sonra süzgəc prosesinə əsas etibarilə kursdan-kursa keçmə məsələsində diqqət yetirilməlidir. Məhz bu mərhələyə zəif diqqət yetirildiyi üçün dövlət təhsilində süzgəc demək olar ki, işləmir və qəbul olunmuş tələbələrin hamısı (bəzi kiçik istisnaları nəzərə almaqla)

“süzgəcin iri gözlərindən” süzülərək məzunluq təntənəsinə gəlib çatırlar. Uzun illər formalaşan bu sistemin dərin kökləri var. Sovet İttifaqının iqtisadi tənəzzülə uğramasının səbəblərindən biri də respublikalar arasında sosializm yarışı olmuşdur. Nəyin bahasına olursa-olsun yarışın qalibi olmaq üçün hər cür üsullara əl atılması “xəstəliyi” ali təhsildən də yan keçmirdi. Belə ki, ali məktəblərin fəaliyyətini qiymətləndirərkən yetirmə faizi uğurun əsas meyarı kimi götürülürdü. Bu ənənə indi də davam etməkdədir. Tələbənin bilik səviyyəsi yox, yetirmə faizinin yüksək rəqəmlə ifadə olunması yenə də yaxşı fəaliyyətin göstəricisidir. Son 15-20 ildə dövlət buraxılış imtahanlarının da formal keçirilməsi təhsildə keyfiyyətin yüksəldilməsi, başqa sözlə, süzgəc prosesinin təkmilləşdirilməsini zəruri edir.

İndi isə artıq müəyyən sayda məzunları olmuş ali məktəblərin timsalında özəl ali məktəblərdə süzgəc prosesinin gedişinə nəzər salaq.

Bu özəl ali məktəbləri tətbiq etdikləri təhsil modeli və tədris proqramlarından istifadə baxımından 3(üç) tipə ayırmaq olar.

1. Əsas etibarilə dövlət təhsilində tətbiq olunan təhsil modeli ilə işləyən, lakin uyğun tədris planlarından və proqramlarından daha çevik istifadə edən (tədris plan və proqramlarında lazımi dəyişiklər olunmasına yer saxlayan, bir çox fənlərin ingilis dilində tədrisinə çalışan) özəl ali məktəblər. (Qərb, Azərbaycan, Qafqaz)

2. Təhsil modeli dövlət ali təhsilində tətbiq olunan təhsil modelilə tam üst-üstə düşən özəl ali məktəblər. (Bakı Asiya Universiteti, Bakı Ali Pedaqoji Qızlar Seminariyası, Ali Diplomatiya Kolleci, Təfəkkür Universiteti, Odlar Yurdu Universiteti, Azərbaycan Beynəlxalq Universiteti, Bakı Biznes Universiteti, Ali-İctimai Siyasi Kollec, Müstəqil Azərbaycan Universiteti, Naxçıvan Özəl Universiteti, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası).

3. Dövlət ali məktəblərindən fərqli, əsas etibarilə dünya təhsilində təcrübədən keçmiş təhsil modeli ilə işləyən özəl ali məktəblər (Xəzər Universiteti).

Özəl ali məktəbləri tiplərə bölməkdə məqsəd onların təhsildə süzgəc prosesini müxtəlif cür tətbiq etmələrini izləməkdən ibarətdir.

Təhsilin təşkilində əsas prinsip olaraq milli zəmində beynəlxalq standartlara uyğun kadr hazırlığını götürən və məzunluq diplomlarının geniş keçərliyinə çalışan birinci tip özəl ali məktəblərdə tətbiq olunan təhsil modelinin dövlət təhsil modelinə yaxın olması ilə yanaşı, bu ali məktəblərin tədris proqramlarının həyata keçirilməsində dövlət təhsilində olduğundan aşağıdakı iki fərqli cəhəti qeyd etmək lazımdır: 1.Mütəxəssislərin təklifinə uyğun olaraq tədris proqramlarında çevik surətdə müəyyən dəyişikliklər etmək mümkündür (lazım olmayan fənlərin əvəzinə daha vacib fənlərin salınması). 2.Tədris planları elə tərtib olunur ki, xarici mütəxəssislərin gəlməsilə əlaqədar həmişə xüsusi əhəmiyyət kəsb edən vacib kursların proqrama salınma imkanı olur.

Bu ali məktəblərdə imtahan sessiyalarının keçirilməsi prinsiplərində, kursdan-kursa keçmə məsələlərində isə dövlət ali məktəblərində olduğundan ciddi fərqlər görünmür. (Qərb və Qafqaz Universitetində 100 ballı qiymətləndirmə sistemi təcrübədən keçirilir). Məzunlara verilən diplomlar da dərəcə etibarilə (adi və fərqlənmə) dövlət təhsilində olduğu kimidir. Lakin yarandıqları vaxtdan bəri hər bir ali məktəbdə gündən-günə maddi-texniki bazanın genişləndirilməsi (adı çəkilən hər bir ali məktəbin özünün ayrıca tədris korpusu, müasir kompüterlərlə təchiz olunmuş kompüter zalı, tədrisin ilkin tələblərinə cavab verməyə çalışan kitabxanası və s. var), beynəlxalq əlaqələr sahəsində atılan addımlar, kadr potensialından get-gedə daha yaxşı istifadə olunması, tədris proqramlarında daima axtarışda olmaları və s. bu kimi əlamətlər bu ali məktəblərdə süzgəc prosesinə öz müsbət təsirini göstərir. Odur ki, vaxtında məzun olan tələbələrin say faizi burada dövlət ali məktəblərində olduğundan az da olsa fərqlənir.

İkinci tip özəl ali məktəblərdə tətbiq olunan təhsil modeli dövlət ali məktəblərində olduğundan heç nə ilə fərqlənmir, imtahan-qiymətləndirmə sistemi, tədris planları və proqramlarının həyata keçirilməsi də dövlət ali məktəblərində olduğu kimidir.

Bunlarla yanaşı bu ali məktəblərin bir neçəsində (Odlar Yurdu Universiteti, Azərbaycan Beynəlxalq Universiteti, Asiya Universiteti) beynəlxalq əlaqələrin xeyli

yaxşı təşkil olunması və getdikcə genişləndirilməsi, bu ali məktəblərdə də müəyyən özünəməxsusluqların yaranacağına ümid etməyə əsas verir.

Yuxarıda apardığımız təsnifata görə, 3-cü tip özəl ali məktəblərin təmsilçisi Xəzər Universitetidir. Burada dövlət ali məktəblərində olduğundan tam fərqli bir təhsil modeli həyata keçirilir.

Xəzər Universitetində tədris proqramları aşağıdakı prinsiplər üzrə təşkil olunmuşdur: 1.Universitet tələbləri; 2.Ümumtəhsil tələbləri; 3.İxtisas fənləri; 4.Seçmə kurslar (müəyyən sayda fənlərin tələbə tərəfindən seçilməsi imkanı).

Bu bölümlər üzrə fənlərin adı, sayı və hər bir fənnin çəki vahidi (krediti) müəyyən olunur və tələbə hər hansı fakültəni bitirmək üçün müəyyən olunmuş sayda kredit yığmalıdır. İmtahan yoxlama və qiymətləndirmə sistemi də tamamilə fərqlidir.

Tələbənin bütün semestr boyu fəaliyyəti diqqətlə və sənədləşdirilmiş surətdə izlənir və son imtahan vaxtı nəzərə alınır. Başqa sözlə, tələbələr semestr boyu uyğun departamentlərdə qəbul olunmuş prinsiplərlə (müxtəlif departamentlərdə bu prinsiplər fərqlənə bilər) müxtəlif formalı imtahanlar verir və son imtahan zamanı bu nəticələr nəzərə alınır.

İmtahanlar yazılı surətdə, xüsusi halda testlə keçirilir (xüsusi spesifikaya malik fənlər üzrə imtahanda şifahi sorğu da istisna edilmir) və 100 ballıq qiymətləndirmə sistemi tətbiq olunur.

Qeyd edək ki, belə qiymətləndirmə sistemi artıq Təhsil Nazirliyinin diqqətini cəlb etmişdir və bir sıra ali məktəbin bəzi fakültələrində bu qiymətləndirmə sistemi sınaqdan keçirilir.

İmtahanda 60 və daha çox bal toplayan tələbələr imtahanı müvəffəqiyyətlə vermiş hesab olunur, əks halda həmin fənni növbəti semestr və ya sonra yenidən oxumalıdır (başqa sözlə kəsirlərin ləğvi yoxdur).

Universiteti bitirmək üçün müəyyən olunmuş sayda kredit toplamış tələbənin orta qiyməti (tələbənin müvəffəqiyyət əmsalı, TMƏ) eləcə də ayrıca ixtisas fənləri üzrə orta qiyməti 70-dən az olmamalıdır. Əks halda tələbə bir neçə fənni (əsasən ixtisas

fənləri) yenidən oxumalıdır (orta qiymətini lazımi səviyyəyə çatdırmaq üçün). Beləliklə, orta qiymətin 70-dən yuxarı olma tələbi məzunluğa gedən yolda daha bir ciddi süzgəcin qoyulduğunu göstərir.

Müəyyən olunmuş sayda kredit toplamış, (əvvəlki səhifədə göstərilən 4 tələbin hər biri üçün də konkret kredit sayı ödənməlidir), ümumi orta qiyməti və ixtisas fənləri üzrə orta qiyməti 70-dən az olmayan tələbələr Universiteti bitirmiş hesab edilir.

Məhz süzgəc şərtlərinin belə ciddi qoyulması səbəbindən Xəzər Universitetində tələbələr tədris proqramlarını yerinə yetirmə səviyyələrindən asılı olaraq müxtəlif müddətlərdə məzun olurlar. Belə ki, tədris proqramının yerinə yetirilməsində problemi olmayan tələbələr vaxtında məzun olur, başqa tələbələr isə təhsillərini davam etdirir və səviyyələrindən asılı olaraq xeyli gec (5, bəzən də hətta 6-8 ilə) məzun olurlar. Məhz bu məsələdə Xəzər Universitetində tətbiq olunan təhsil modeli dövlət ali məktəblərində və başqa özəl ali məktəblərdə olduğundan ciddi surətdə fərqlənir. Qeyd etmək lazımdır ki, bu məsələ heç də hamı tərəfindən birqiymətli müsbət qəbul olunmur. Hətta bəzi ali məktəb rəhbərləri, təhsildə dövlət məmurları bunu qanun pozuntusu kimi qiymətləndirirlər və qeyd edirlər ki, ali təhsil almaq üçün müddət 4 il müəyyənləşdirilmişdir və tələbə bu müddət ərzində məzun olmalıdır. Onda haqlı olaraq qarşıya belə bir sual çıxır. Ali təhsildə məqsədimiz yüksək səviyyəli kadrlar hazırlamaqdır, yoxsa bütün tələbələrə oxuma səviyyəsindən asılı olmayaraq 4 ildən sonra diplom vermək? Məqsədimizin məhz yüksəksəviyyəli mütəxəssislər hazırlamaq olduğu şübhə doğurmur və ona görə də bu təhsil modelinin məhz bu amala və məqsədə qulluq etməsi də heç kimdə şübhə doğurmamalıdır. Sadəcə müsbət yeniliyi vacib reallıq kimi qəbul etməyi bacarmaq lazımdır.

Məzunlara hansı dərəcə diplom verilməsi də ciddi süzgəcdən keçir. Diplomun dərəcəsi tələbənin müvəffəqiyyət əmsalının (TMƏ) aşağıda göstərilmiş hansı aralığa düşməsindən asılıdır:

60 ≤ TMƏ ≤ 79,5 — Adi diplom

80 ≤ TMƏ ≤ 86,5 — Fəxri diplom

87 ≤ TMƏ ≤ 93,5 — Yüksək fəxri diplom

94 ≤ TMƏ ≤ 100 — Ən yüksək fəxri diplom (97).

Beləliklə, qarşıya qoyulan bu əlavə şərtlər süzgəc prosesinin daha ciddi getməsinə və beləliklə də kadr hazırlığında keyfiyyətin yüksəlməsinə xidmət edir.

İndi özəl ali məktəblərdə müxtəlif tədris illərində qəbul edilmiş tələbələrin vaxtında məzun olma göstəricilərinə diqqət yetirək.

| *Ali məktəbin adı* | *Tələbələrin qəbul olunduqları tədris ili* | *Qəbul olunan tələbələrin sayı* | *Vaxtında məzun olanların sayı* | *Faiz* |
|---|---|---|---|---|
| Azərbaycan Universiteti | 1994/95<br>1995/96 | 124<br>114 | 110<br>112 | 89<br>98 |
| Asiya Universiteti | 1995/96 | 128 | 117 | 91 |
| Ali Diplomatiya Kolleci | 1995/96 | 96 | 79 | 82 |
| Ali Pedaqoji Qızlar Sem. | 1995/96 | 144 | 141 | 98 |
| Xəzər Universiteti | 1994/95<br>1995/96 | 147<br>175 | 50<br>44 | 34<br>25 |
| Qərb Universiteti | 1994/95<br>1995/96 | 129<br>241 | 123<br>220 | 95<br>91 |
| Qafqaz Universiteti | 1995/96 | 295 | 145 | 49 |
| Odlar Yurdu Universiteti | 1995/96 | 198 | 193 | 97 |
| Təfəkkür Universiteti | 1995/96 | 315 | 301 | 95 |

Qeyd: Burada 1994-1996-cı tədris ilində artıq dövlət qeydiyyatından keçmiş özəl ali məktəblər götürülmüşdür.

Dünya təhsilində lider sayılan ABŞ-ın məşhur universitələrində vaxtında məzun olan tələbələrin say faizi, əsas etibarilə, 25%-60% arasında olur (müəyyən istisnalar-la).

Onu da qeyd edək ki, ABŞ-da tələbələr pillə-pillə çox ciddi süzgəcdən keçərək məzunluq təntənəsinə gəlib çıxırlar. Bəzi ixtisaslar üzrə isə (tibb, hüquq) hətta məzunluq diplomu da gənclərin işə düzəlmələrinə təminat vermir. Həmin ixtisaslar üzrə ali təhsili olan gənclər xüsusi assosiyasiyalarda imtahan verməli (süzgəcin yeni bir pilləsi) və öz işləmək hüquq və bacarıqlarını yenidən təsdiq etməlidirlər.

Beləliklə, süzgəc prosesinin cəmiyyət üçün yüksək səviyyəli kadrların hazırlanmasında rolu göz qabağındadır və elə buna görə də bütün ali məktəblərdə (istər dövlət, istərsə də özəl) təhsil siyasəti və tədris proqramlarının yerinə yetirilməsində süzgəc prosesini gücləndirən amillərə xüsusi diqqət yetirilməlidir.

Aparılan müqayisələr göstərir ki, dövlət və özəl ali məktəblərində tədris prosesinin təşkili və tələbələrin bilik səviyyələrinin qiymətləndirilməsi, kursdan-kursa keçirilməsi və ali məktəbi qurtarma müddəti arasında xeyli fərqlər var. Faktik həyata keçirilən ənənəvi süzgəc prosedurаları arasında mənəvi-psixoloji və intellektual göstəriciləri nəzərə alsaq üstünlüyün Xəzər Universitetinin tətbiq etdiyi süzgəc prosesinin tərəfində olduğunu görərik. Odur ki, yüksək ixtisaslı kadrlar hazırlamaq sahəsində dövlətin sosial sifarişini yerinə yetirmək, ölkədə fəaliyyətdə olan şirkətlərin, eləcə də başqa sosial-iqtisadi birliklərin yüksək səviyyəli mütəxəssislərə olan ehtiyacını ödəmək baxımından yeni süzgəc prosesi optimaldır. Bu baxımdan dövlət və özəl ali məktəblərin hamısında onun tətbiqi faydalı olardı. Bu yenilik özəl təhsil müəssisələrinin dövlət ali məktəblərinə nisbətən daha yenilikçi olduğunu, təhsilin ənənəvi təşkil forma və metodlarından cəsarətlə imtina edərək təhsil sisteminə keyfiyyətcə yeni forma və metodlar gətirdiyini və onları uğurla tətbiq etdiyini göstərir. Bütün bunlar Azərbaycanda özəl təhsili perspektivli edir, onun Qərb və Avropa təhsil təcrübəsindən yaxşı mənada bəhrələndiyinə dəlalət edir.

# N Ə T İ C Ə

Müstəqil Azərbaycan dövlətinin siyasətinin əsas istiqamətlərindən biri ölkə təhsilində beynəlxalq təhsil standartları çərçivəsində islahatların aparılmasıdır. Azərbaycanın sivil, demokratik dövlət kimi dünya birliyində yeri və mövqeyi bir çox amillərlə yanaşı, təhsilimizi necə quracağımızdan, bu sahədə dünya təcrübəsindən necə bəhrələnəcəyimizdən və təhsil sistemimizi hansı prinsiplər əsasında idarə edəcəyimizdən çox asılıdır. Bu məsələdə aydın proqram və konsepsiyanın, müvafiq dövlət təminatının olması vacibdir. Bunlar olmadan təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası, beynəlxalq standartlara uyğunlaşdırılması mümkün deyil. Bu prosesdə özəl ali təhsilin öz yeri var. Təqdim olunan dissertasiyada saysız-hesabsız problemlərlə üzləşən özəl ali təhsilin gələcək inkişafı üçün beynəlxalq təcrübəyə əsaslanaraq aydın strateji xətt və inkişaf konsepsiyası müəyyənləşdirilmişdir. Bununla bağlı əsas müddəaları aşağıdakı kimi ümumiləşdirmək olar.

1. Azərbaycanda özəl ali məktəblərin meydana gəlməsi və onların səmərəli fəaliyyəti respublikanın ictimai-siyasi və mədəni həyatında mühüm hadisədir, Azərbaycanın müstəqil ölkə kimi inkişafının, Avropa və Qərb dəyərlərini mənimsəmək istiqamətində irəliləməsinin əsas göstəricilərindən biridir.
2. Müstəqillik şəraitində özəl təhsil üçün yaradılan hüquqi və mənəvi-psixoloji baza qənaətbəxş olmaqla bərabər, özəl təhsilin nəzəriyyə və praktikasının əsas prinsiplərinə cavab vermir, onun fəaliyyətini məhdudlaşdırır.
3. Dövlət icra orqanlarının daimi müdaxiləsi (tez-tez yoxlamaların keçirilməsi, müxtəlif arayışların tələb olunması, tələbə qəbulu ilə bağlı nizamnamə pozuntuları və s.) özəl ali məktəblərin normal fəaliyyətlərinə mane olur.
4. Ölkədə fəaliyyətdə olan dövlət ali məktəbləri kimi özəl ali təhsilin də inkişafına dövlət əhəmiyyətli məsələ kimi baxılması, onun dövlətdən yardım alma mexanizminin müəyyənləşdirilməsi və bir sıra başqa məsələlərdə mövcud

məhdudiyyətlərin aradan qaldırılması üçün hüquqi və normativ baza təkmilləşdiriməlidir.

5. Azərbaycan hökuməti özəl ali məktəblərin daha səmərəli fəaliyyətinə kömək məqsədilə onlara uzunmüddətli azfaizli kreditlərin verilməsini (tikinti və başqa yollarla maddi-texniki bazanın möhkəmləndirilməsi və genişləndirilməsi üçün), özəl ali məktəblərin tələbələrinə isə (əgər tələbənin ehtiyacı varsa) təhsil haqqını ödəmək üçün müəyyən kreditlər ayrılmasının (konkret müddət ərzində qaytarmaq şərtilə) hüquqi və praktik məsələlərini həll etməlidir.
6. Hökumət orqanları tədris plan və proqramlarının hazırlanmasında, tədris prosesinin həyata keçirilməsində, eləcə də tələbə qəbulu işində özəl ali məktəblərə sərbəstlik verilməsi ilə bağlı bu ali məktəblərin nizamnamələrinin hərfinə və ruhuna riayət etməlidir.
7. Ali təhsilin idarə olunmasında mövcud çoxpillələlik aradan qaldırılmalı, ali məktəblərə geniş müstəqillik verilməli, təhsilin keyfiyyətinə nəzarət isə yalnız konkret bir dövlət orqanı (məsələn, Təhsil Nazirliyi) tərəfindən həyata keçirilməlidir. Müxtəlif dövlət orqanlarının özəl ali məktəblərin fəaliyyətinə müdaxiləsinin məhdudlaşdırılması və qarşısının alınması özəl ali məktəblərin normal və səmərəli fəaliyyəti üçün mühüm şərtlərdən biridir.
8. Özəl ali məktəblərdə müxtəlif ixtisaslar üzrə kadr hazırlığı məsələsinə bir stabillik və sistemlilik gətirilməsi vacibdir. Bununla belə müəyyən bir ixtisas üzrə kadr hazırlanması üçün maddi-texniki bazaya, kadr potensialına malik olan özəl ali məktəbə bu ixtisas üzrə qəbul aparılmasına imkan verilməlidir.
9. Ali məktəblərdə (istər dövlət, istərsə də özəl) mütəxəssis hazırlığında yüksək keyfiyyətə nail olmaq məqsədilə tələbələrin ali məktəblərə qəbul olunduqdan sonra kursdan-kursa keçməsi və məzunluq zirvəsinə çatması prosesinin, eləcə də onların bilik səviyyələrinin yoxlanılmasının və qiymətləndirilməsinin yeni daha əlverişli və müasir forma və metodları tətbiq edilməlidir.
10. Özəl ali məktəblərin məzunlarına dövlət nümunəli diplomların verilməsi

məcburiyyəti respublikanın hazırkı siyasi və sosial-iqtisadi vəziyyətində məqbul sayıla bilər. Amma dünyada ali məktəblərin (istər özəl, istərsə də dövlət) məzunlarına onların özünəməxsus diplomların verilməsi təcrübəsinin varlığı yaddan çıxarılmamalıdır.

11. Məzunların yalnız adi və fərqlənmə diplomları ilə fərqləndirilməsi onların hazırlıq səviyyəsini tam əks etdirmədiyindən daha dəqiq və müasir fərqləndirmə prinsipləri işlənib hazırlanmalıdır.
12. Özəl ali məktəblərin məzunlarının dövlət orqanlarında işlə təmin olunma məsələlərində dövlət ali məktəblərin məzunları ilə bərabər hüquqa malik olması yalnız nəzəri deyil, praktiki cəhətdən təmin olunmalıdır. Özəl ali məktəblərin məzunlarının müəyyən dövlət orqanlarında (hüquq mühafizə orqanları, tibb sahəsində) işə qəbul olunmaması ilə bağlı yaradılan çətinliklər özəl ali məktəblərdə həmin ixtisaslar üzrə kadr hazırlığına mane olan əsas amillərdəndir. Demokratik, sivil dövlətin fəaliyyətinin prinsip və metodlarına yad olan bu "iş üslubunun" aradan qaldırılması özəl təhsilin nüfuzunun qalxmasının mühüm şərtlərindən biridir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. Abbaszadə M.M., Bədəlov T.A. və b. *“Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili məktəblərinə 1998/99-cu tədris ili üçün tələbə qəbulunun nəticələri.* “Abituriyent” jurnalı, № 10, noyabr 1998, s.1.
2. *“Abituriyent” jurnalı № 12.* 1999/2000-ci tədris ili üçün tələbə qəbulu nəticələrinin elmi-statistik təhlili. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, dekabr 1999.
3. “*Abituriyent” jurnalı, № 10.* 1998/99-cu tədris ili üçün tələbə qəbulu nəticələrinin elmi-statistik təhlili. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, noyabr, 1998.
4. “*Abituriyent” jurnalı, № 11.* Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, noyabr 1999.
5. “*Abituriyent” jurnalı, № 5.* Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, may 2001.
6. *“Abituriyent” jurnalı, № 5.* Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, may 2002.
7. “*Abituriyent” jurnalı, № 10.* 1997/98-cu tədris ili üçün tələbə qəbulunun elmi-statistik təhlili. Tələb Qəbulu üzrə Dövlət Komissiyası, dekabr 1997.
8. Ağamalıyev R.A. *Azərbaycan təhsili XXI əsrə doğru. İdarəetmə, prioritetlər, islahatlar.* “Təhsil” nəşriyyatı, Bakı -1998.
9. “Azərbaycan müəllimi” qəzeti, 16-22 mart 2000-ci il.
10. Azərbaycan Beynəlxalq Universitetinin 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 29.11.99-cu il tarixli statistik hesabat.
11. Azərbaycan Respublikasının Konstitusiyası. B., “Azərbaycan”, 1996.
12. Azərbaycan Respublikasının Təhsil Qanunu. B., “Öyrətmən”, 1993.

13. Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. “Azərbaycan” qəzeti, 14 iyun 2000.

14. Azərbaycan Respublikası Prezidentinin 4 oktyabr 1997-ci il tarixli 637 saylı fərmanı (“Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısının təqdim edilməsi haqqında”).

15. Azərbaycan Respublikası Prezidentinin 24 sentyabr 1994-cü il tarixli 212 saylı fərmanı (Nazirlər Kabineti yanında DAEK-in yaradılması haqqında).

16. Azərbaycan Universitetinin 1998/99-cu tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 22.01.99-cu il tarixli statistik hesabat.

17. Azərbaycan Universitetinin 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 04.10.99-cu il tarixli statistik hesabat.

18. *“Ali təhsil ocaqlarımız*”. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, “Abituriyent” jurnalının xüsusi buraxılışı, 1999.

19. Ali Diplomatiya Kollecinin 1998/99-cu tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 01.10.98-ci il tarixli statistik hesabat.

20. Ali Diplomatiya Kollecinin 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 01.10.99-cu il tarixli statistik hesabat.

21. Ali İctimai Siyasi Kollecin 1998/99-cu tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 22.01.99-cu il tarixli statistik hesabat.

22. Ali İctimai Siyasi Kollecin 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 04.10.99-cu il tarixli statistik hesabat.

23. Bakı Ali Pedaqoji Qızlar Seminariyasının 1998/99-cu tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 21.01.1999-cu il tarixli statistik hesabat.

24. Bakı Ali Pedaqoji Qızlar Seminariyasının 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 05.10.99-cu il tarixli statistik hesabat.

25. Bakı Asiya Universitetinin 1998/99-cu tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi statistik hesabat.(tarixi yoxdur).

26. Bakı Asiya Universitetinin 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi statistik hesabat. (tarixi yoxdur).

27. Bakı Biznes Universitetinin 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 10.10.99-cu il tarixli statistik hesabat.

28. Bakıda Amerika Universitetinin 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 05.10.99-cu il tarixli statistik hesabat.

29. Bağırov H.S. *Qərb Universiteti*, Azərbaycan məktəbi, 1996,№1 s.21-24.

30. Qaralov Z. *“Azərbaycan təhsilini necə görmək istərdim?”.* “Azərbaycan məktəbi” (jurnal) № 6, Bakı 1997, s.16-20.

31.Qafqaz Universitetinin 1998/99-cu tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 22.01.99-cu il tarixli statistik hesabat.

32.Qafqaz Universitetinin 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 16.12.99-cu il tarixli statistik hesabat.

33.Qərb Universitetinin 1998/99-cu tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi statistik hesabat. (tarixi yoxdur).

34.Qərb Universitetinin 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 26.10.1999-cu il tarixli statistik hesabat.

35.DAEK-in (Dövlət Ali Ekspert Komissiyası) Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 24 sentyabr tarixli 212 saylı fərmanı ilə təsdiq edilmiş əsasnaməsi.

36. Əyyubov Ə.Ə. *San-Marino Beynəlxalq Elmlər Akademiyası Akademik Mərkəzinin Azərbaycan filialı.“*Azərbaycan məktəbi*”*, 1996, №5-6.

37.İbrahim Canan. *Birliyimizin rəmzi “Qafqaz Universiteti”.* “Azərbaycan məktəbi*”*, 1997, №3.

38. İsaxanlı H.A.*”Azad insan və azad cəmiyyət”. (Azərbaycan Respublikası yeni təhsil qanununa aid bəzi qeydlər), “*Xalq qəzeti*”* 22-24 aprel 1998.

39. İsaxanlı H.A. *“Xəzərin sorağında”* . “Khazar View*”* qəzeti №10-12, 14, 19-27, 1997.

40. İsaxanlı H.A. *“Təhsildə dünya təcrübəsi və onun gerçək oxunuşu”.* “Azərbaycan” qəzeti, 13 iyul 1995.

41. İsaxanlı H.A. *“Təhsilimiz yol ayrıcında”.* Azərbaycan Respublikasında təhsil islahatı, konfransın materialları, 27-28 yanvar, 1995.

42.İsayev İ.A. *“Dövlətlə özəl təhsil arasında münasibətdə DAEK-in rolu”.* Aspirantların və gənc tədqiqatçıların respublika elmi konfransının materialları, II cild. Azərbaycan Respublikası Təhsil Nazirliyi, 11-12 fevral 1998, s.59-61

43.İsayev İ.A. *“Təhsilin seçmə prinsipləri”.* Qafqaz: tarix müasirlik və geosiyasi perspektivlər konfransının materialları, Bakı Dövlət Universiteti, 15 aprel 1998, s.230-232

44.İsayev İ.A. *“Azərbaycan ali təhsilində süzgəc prosesi”.* Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, ali məktəblərarası tematik məcmuə, 4-cü buraxılış, Təhsil Nazirliyi və M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutu. Bakı, Mütərcim, 1998, s.70-77

45.İsayev İ.A. *“Azərbaycanda özəl təhsilin yaranma zəruriliyi haqqında”.* Aspirantların və gənc tədqiqatçıların respublika elmi konfransının materialları, II cild, 23-24 fevral 1999-cu il. Azərbaycan Respublikası Təhsil Nazirliyi, s.101-102

46.İsayev İ.A. *“Azərbaycanda özəl ali təhsilin bəzi xüsusiyyətləri”.* Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, ali məktəblərarası tematik məcmuə, 2-ci buraxılış, Azərbaycan respublikası Təhsil Nazirliyi və M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutu. Bakı, Mütərcim, 2000, s.173-181.

47. İsayev İ.A. *“Özəl ali məktəblərdə məzunluq diplomunun verilməsinə dair”* Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, ali məktəblərarası tematik məcmuə, 2-ci buraxılış, Azərbaycan Respublikası Təhsil Nazirliyi və M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutu. Bakı, Mütərcim, 2000, s.182-184
48. İsayev İ.A. *“Özəl ali məktəblərdə kadr hazırlığının bəzi xüsusiyyətləri”* Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, ali məktəblərarası elmi konfransın materilları, 1-2 mart 2000-ci il. Azərbaycan Respublikası Təhsil Nazirliyi və M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutu. Bakı, 2000, s.37-39
49. Mərdanov M.C. *Ali təhsil sistemində islahatlar və bu islahatlarda Avropa proqramlarının rolu*. “Azərbaycan müəllimi” qəzeti, 16-22 mart 2000-ci il.
50. Mərdanov M.C. *Azərbaycan təhsili islahat yollarında: uğurlar, problemlər, vəzifələr...* Bakı - 2001
51. Müstəqil Azərbaycan Universitetinin 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 15.10.99-cu il tarixli statistik hesabat.
52. Nazirlər Kabinetinin 29 iyul 1993-cü il tarixli 413 saylı qərarı (Nazirlər Kabineti nəzdində DAEK-in yaradılmasının məqsədəuyğunluğu haqqında).
53. Nazirlər Kabinetinin 01.02.93-cü il tarixli 60 saylı qərarı (Təhsil Nazirliyi nəzdində DAEK-in yaradılması haqqında).
54. Nazirlər Kabinetinin 2 avqust 1997-ci il tarixli 98 saylı qərarı (Nazirlər Kabineti yanında DAEK-in fəaliyyətinin dayandırılması haqqında).
55. Naxçıvan Universitetinin 1998/99-cu tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi statistik hesabat. (tarixi yoxdur)
56. Naxçıvan Universitetinin 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 04.10.99-cu il tarixli statistik hesabat.

57. Odlar yurdu Universitetinin 1998/99-cu tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi statistik hesabat. (tarixi yoxdur)

58. Odlar yurdu Universitetinin 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi statistik hesabat. (tarixi yoxdur)

59. Respublikada özəl təhsil müəssisələri: reallıqlar. “Azərbaycan müəllimi” qəzeti, 27 yanvar-2 fevral 2000-ci il.

60. Pəhimov A.P. və b. Bakı Ali Pedaqoji Qızlar Seminariyası. B., 1997.

61. San-Marino Beynəlxalq Elmlər Akademiyası Akademik Mərkəzi Azərbaycan filialının (Mingəçevir şəhəri) 1998/99-cu tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi statistik hesabat.(tarixi yoxdur).

62. San-Marino Beynəlxalq Elmlər Akademiyası Akademik Mərkəzi Azərbaycan filialının (Mingəçevir şəhəri) 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 04.10.99-cu il tarixli statistik hesabat.

63. *Təhsil haqqında Azərbaycan Respublikasının qanunu (layihə), “*Azərbaycan” qəzeti, 5 mart 1999.

*64.* Təhsil Nazirliyi Ali və orta ixtisas təhsili idarəsinin 22.07.99-cu il tarixli S-2633/11-24 saylı arayışı. (Ali məktəblərarası köçürmələr haqqında).

65. Təhsil Nazirliyinin 16.06.1999-cu il tarixli, 46-03-2144/17 saylı əmri. (Ali məktəblərarası köçürmələrin Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş akademik arayış əsasında həyata keçirilməsi haqqında)

66. Təhsil Nazirliyinin qanunsuz fəaliyyət göstərən təhsil müəssisələrinin siyahısı haqqında məlumatı. “Azərbaycan müəllimi” qəzeti, 15-21 aprel 1999-cu il № 15 (7810).

67. Təhsil Nazirinin Ali məktəblərarası köçürmələr haqqında 14.09.98-ci il tarixli, 46-03-2026/7 saylı əmri.

68.Təhsil Nazirinin “Ali və orta ixtisas məktəbləri tələbələrinin köçürülməsi” haqqında əsasnaməyə dəyişiklik edilməsi barədə 09.12.97-ci il 870 saylı əmri.

69.Təhsil Nazirinin 07.08.96-cı il 402 saylı əmri ilə təsdiq olunmuş “Ali və orta ixtisas təhsili məktəbləri tələbələrinin köçürülməsi” haqqında əsasnamə.

70.Təfəkkür Universitetinin 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi statistik hesabat. (tarixi yoxdur)

71.Həsənov Ə. *“Özəl ali məktəblər günün tələbinə cavab verirmi?”.* “Azərbaycan müəllimi” qəzeti, № 23 (7818), 10-16 aprel 1999.

72.Xəzər Universitetinin 1998/99-cu tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi statistik hesabat. (tarixi yoxdur)

73. Xəzər Universitetinin 1999/2000-ci tədris ili üçün Təhsil Nazirliyinə təqdim etdiyi 15.10.1999-cu il tarixli statistik hesabat.

74. Xəlilov S.S. *Təhsil sistemi: nəzəriyyə və praktika*. B.,1999.

75.Xəlilov S.S. “*Sovet təhsil sisteminin qalıqları və müstəqil təhsil siyasəti*”. “Xalq qəzeti”, 18 aprel 1998.

Rus dilində

76.*“Абитуриент”(журнал) №5*. Гос.комиссия по приему студентов, май 1999.

77.*Азербайджанский Государственный Университет им.В.И.Ленина*, первое десятилетие, 1919-1929. Баку, 1930; стр.5.

78.Американский Университет в Баку, 1999-2000 Каталог. Баку 2000

79.Карстанье П., Ушакова У. *Управление в образовании. Проблемы и подходы.* Москва, 1995.

80. Мусаева Т.А. *Революция и народное образование в Азербайджане. (Очерки истории развития народного образования в Азербайджане. (1920-1940гг.), Баку, 1979.*

81.*Приказ № 767 от 30.10.87.* Министерство ВУЗ СССР

82.Синкотта Х., Холден Р., Гивенз Д. *"Системы образования в США".* Национальная комиссия по повышению качества образования. Отдел учебных програм информационного агентства США, Виена, 1998.

İngilis dilində

83. Antonio Isidro and Maximo D. Ramos. *Private Colleges and Universities of the Philippines.* Quezon City, Alemar-Phoenix, 1973.

*84. American Universities and colleges.* 12th edition, American Council of education. 1983. p.7.

85. David W. Breneman and Chester E. Finn, eds. *Public Policy and Private Higher Education.* Washington, D. C. The Brooking institution, 1978.

86. *Education and Society in the new Russia.* Edited by Anthony Jones, Armonk, New-York-London, England. 1994.

87.Geiger Roger. *"Public and Private Sectors in higher education: a comparison of international patterns".* Higher education, 24: 1988.

88. Geiger Roger. *Private Sectors in Higher Education: Function, and Change in eight countries.* Ann Arbor, M\: University of Michigan Press, 1986.

89. *Higher education.* The lessons of experience a World Bank Publication, Washington, D.C. 1994; p.133.

90.*"Inventing Education for the future".* Institute of Government and Public Affairs, University of California, Los Angeles, 1967; p.284.

91.Isaxanli Hamlet. *In Search of Khazar. Journal of Azerbaijan Studies; Baku, Khazar University, Volume 1, number 4, 1998.*

92.Isao Amagi. *Higher education in Japan: Problems and Prospects institute for higher education.* Tokyo, 1977.

93. Isaxan Isayev. *"Factors Related to the Selection process at the state and private Universities. The Positive and negative Sides of centralization"*. Journal of Azerbaijani Studies, Volume 2, number 2, Khazar University, Baku, Azerbaijan, 1999, p.50-58

94. Isaxan Isayev. "*Basis and Continuation of Private Education in Azerbaijan".* 6th Nordic-Baltic Conference in Regional Science "Nordic-Baltic Sea Region on the eve of the 21st century"; October 4-7, 2000, Riga, Latvia, p.55-58

95. James Estelle and Gail Benjamin. *"Public Versus Private Education: The Japanese Experiment".* Yale University Institution for Social and Policy Studies Working Paper, Ponpo-81, 1984.

96. James Estelle. *"The Public /Private Division of Responsibility for Education.* An International Comparison, Mimeo, 1984.

97. Khazar University Catalog (1996-1998). Khazar University, Baku, p. 30-40.

98. Levy Daniel. *"Private and Public: Analysis amid ambiguity in higher education" in Levy D. (ed).* Private Education: Studies in Choice and Public Policy. New York and Oxford: Oxford University Press, 1986.

99. Levy Daniel. *Higher Education and the State in Latin America: Private challenges to Public Dominance.* Chicago: University of Chicago Press, 1986.

100. M. Gallon and B. Moon. *Handbook of Teacher Training in Europe.* London, 1994.p.132.

101. Raymond McGhee. *"Organizational culture in Private higher education: A case study of a new Private University in post-Soviet Azerbaijan",* Journal of Azerbaijani Studies, Volume 2, number 2, Khazar University, Baku, Azerbaijan, 1999; p.44.

102. Raymond McGhee. *Organizational Culture in Private higher education*: *A book of a new Private University in Post-Soviet Azerbaijan.* A dissertation for the degree Doctor of Philosophy in Education. University of California, Los Angeles, USA. 1997.

103. *"Relation between State and higher education".* Council of Europe and Kluwer law international, the Hague/London/Boston, 1996; p.22.

104. Richard C. Axt. *The Federal Government and Financing Higher Education*. New-York: Columbia University Press, 1952.

105. Robert O. Berdahe. *British Universities and the State*. Berkeley and Los Angeles; University of California Press, 1959.

*106. The American College and University. A* history Frederick Rudolph; introductory essay and Supplemental bibliography by John R. Thelin; The University of Georgia Press, 1990. Athens and London (D.Y).p.4.

107. Tominaga Keii, edc. *Evaluation Study of Japanese Universities.* Tokyo Press, 1984; p.103.

108. W. John Minter and Howard R. Bowen. *Independent Higher Education.* Washington D.C. National Institute of Independent Colleges and Universities, 1980.

109. William Bowen. *The Economics of Major Private Universities.* Berkeley: The Carnage Commission on higher education, 1968.

Əlavə istifadə olunmuş ədəbiyyat

110. Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabat. BMT-nin inkişaf proqramı, Bakı 1996.

111. Ədliyyə Nazirliyinin 05.07.99-cu il tarixli 33 saylı şəhadətnaməsi (Naxçıvan özəl Universitetinin qeydiyyata alınması haqqında).

112. Ədliyyə Nazirliyinin 14.08.98-ci il tarixli 23 saylı şəhadətnaməsi (Müstəqil Azərbaycan Universitetinin qeydiyyata alınması haqqında).

113. Kazımov.N.M. *Ali məktəb pedaqogikası.* ”Nicat” nəşriyyatı, Bakı 1999.

114. Nazirlər Kabinetinin 01.02.93-cü il tarixli 60 saylı qərarı (Təhsil Nazirliyi nəzdində DAEK-in yaradılması haqqında).

115. Nazirlər Kabinetinin Bakı Ali Pedaqoji Qızlar Seminariyasının qeydiyyata alınması haqqında 21 fevral 1996-cı il tarixli 21 saylı qərarı.

116. Nazirlər Kabinetinin Azərbaycan Universitetinin qeydiyyata alınması haqqında 4 mart 1995-ci il tarixli 47 saylı qərarı.

117. Nazirlər Kabinetinin Qərb Universitetinin qeydiyyata alınması haqqında 4 mart 1995-ci il tarixli 44 saylı qərarı.

118. Nazirlər Kabinetinin Xəzər Universitetinin qeydiyyata alınması haqqında 4 mart 1995-ci il 45 saylı qərarı.

119. Nazirlər Kabinetinin Ali Diplomatiya Kollecinin qeydiyyata alınması haqqına 21 fevral 1996-cı il tarixli 22 saylı qərarı.

120. Nazirlər Kabinetinin Odlar yurdu Universitetinin qeydiyyata alınması haqqında 8 iyul 1996-cı il tarixli 86 saylı qərarı.

121. Nazirlər Kabinetinin Bakı Asiya Universitetinin qeydiyyata alınması haqqında 4 mart 1995-ci il tarixli 46 saylı qərarı.

122. Nazirlər Kabinetinin San-Marino BEAAM Azərbaycan filialının (Mingəçevir şəhəri) qeydiyyata alınması haqqında 11 sentyabr 1995-ci il 204 saylı qərarı.

123. Nazirlər Kabinetinin Təfəkkür Universitetinin qeydiyyata alınması haqqında 11 sentyabr 1995-ci il tarixli 202 saylı qərarı.

124. Nazirlər Kabinetinin Qafqaz Universitetinin qeydiyyata alınması haqqında 11 sentyabr 1995-ci il tarixli 203 saylı qərarı.

125. Nazirlər Kabinetinin Naxçıvan Universitetinin qeydiyyata alınması haqqında 4 iyul 1996-cı il tarixli 84 saylı qərarı.

126. Nazirlər Kabinetinin Gəncə Elm-Təhsil Mərkəzinin qeydiyyata alınması haqqında 4 iyul 1996-cı il tarixli 81 saylı qərarı.

127. Nazirlər Kabinetinin Bakı Biznes Universitetinin qeydiyyata alınması haqqında 1997-ci il 204 saylı qərarı.

128. Nazirlər Kabinetinin Bakıda Amerika Universitetinin qeydiyyata alınması haqqında 17 yanvar 1995-ci il tarixli 8 saylı qərarı.

129. Nazirlər Kabinetinin Azərbaycan Beynəlxalq Universitetinin qeydiyyata alınması haqqında 11 oktyabr 1997-ci il tarixli 204s saylı qərarı.

130. Nazirlər Kabinetinin Ali İctimai-Siyasi Kollecin qeydiyyata alınması haqqında 11 oktyabr 1997-ci il tarixli 204s saylı qərarı.

131. Nazirlər Kabinetinin 19 may 1998-ci il tarixli 112 saylı qərarı (Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinin, ixtisasartırma institutlarının və digər təhsil və təlim-tərbiyə müəssisələrinin fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təqdim edilməsi haqqında).

132. Nazirlər Kabinetinin 28 dekabr 1995-ci il tarixli 230s saylı sərəncamı. (Xəzər Universitetinin tibb fakültəsinin tələbələrinin Azərbaycan Dövlət Tibb Universitetinə keçirilməsi haqqında).

133. Sadıqov F.B. *Müqayisəli pedaqogika*. “Ünsiyyət”” nəşriyyatı”, Bakı 2001.

134. Səhiyyə Nazirliyinin 02.07.98-ci il tarixli 106 saylı əmri.

135. Təhsil Nazirliyi nəzdində Dövlət Ali Ekspert Komissiyasının 10 aprel 1993-cu il tarixli 9/1 saylı qərarı (Xəzər Universitetinin qeydiyyatdan keçirilməsi haqqında).

136. Təhsil Nazirliyinin Ali məktəblər üzrə magistr hazırlığına icazə verilmiş ixtisaslaşmaların siyahısının təqdimi barədə 19.06.97-ci il tarixli 420 saylı əmri.

137. Təhsil Nazirliyinin Azərbaycan Beynəlxalq Universitetində magistratura yaradılması barədə 03 dekabr 1998-ci il tarixli 830 saylı əmri.

138. Təhsil Nazirliyinin Ali Pedaqoji Qızlar Seminariyasında magistratura yaradılması barədə 21 iyul 1999-cu il tarixli 607 saylı əmri.

139. Təhsil Nazirliyinin Ali İctimai-Siyasi Kollecdə magistratura yaradılması barədə 21 iyul 1999-cu il tarixli 608 saylı əmri.

140. Təhsil Nazirliyinin Qafqaz Universitetində magistratura yaradılması barədə 14 may 1999-cu il tarixli 11/347 saylı əmri.

141. Təhsil Nazirliyinin Ali Diplomatiya Kollecində magistratura yaradılması barədə 11 may 1999-cu il tarixli 11/346 saylı əmri.

142. Təhsil Nazirliyinin Odlar yurdu Universitetində magistratura yaradılması barədə 29 aprel 1999-cu il tarixli 293 saylı əmri.

143. Təhsil Nazirliyinin Naxçıvan Universitetində magistratura yaradılması barədə 30 aprel 1999-cu il tarixli 294 saylı əmri.

144. Təhsil Nazirliyinin Təfəkkür Universitetində magistratura yaradılması barədə 30 aprel 1999-cu il tarixli 295 saylı əmri.

145. Təhsil Nazirliyinin 04.09.98-ci il tarixli AV № 019001 saylı lisenziyası (Müstəqil Azərbaycan Universitetinin fəaliyyəti haqqında).

146. Xəzər Universiteti elmi şurasının Nazirlər Kabineti yanında DAEK-ə 07.10.1995-ci il tarixli 01/N-288 saylı müraciəti.

147. Xəzər Universiteti elmi şurasının Milli Məclisə 07.10.95-ci il tarixli 01/N-290 saylı müraciəti.

148. *Высшее образование в Израиле*. Справочник для студентов, издание 2-е Иерусалим, 1994.

149. *Высшее образование во Франции*. Информационные и учебные материалы №5. Посольство Франции в Москве, 1993.

150. *Комментарий к закону РФ об образовании*. Ответственный редактор проф. В.И.Шкатулла. Институт законодательства и сравнительного правоведения при правительстве Российской Федерации. Москва, 1998.